# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*18 mart 2017-ci il №10(8726)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Əziz həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunmuşdur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilmişdir. Yaz bayramı yeniləşdirici ruhu və ilıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır.

Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiramla yad edərək onlara Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işığında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlılıq hisslərini gücləndirir.

Arzu edirəm ki, öz gəlişiylə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin.

Xalqımızın əziz Novruz bayramı mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 mart 2017-ci il*

## H.Ə.Məmmədovun Bakı Mühəndislik Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Havar Əmir oğlu Məmmədov Bakı Mühəndislik Universitetinin rektoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 mart 2017-ci il*

## Gürcüstan Prezidentinə Dövlət İdarəçilik Akademiyasının fəxri doktoru adı verilib



Martın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Gürcüstan Prezidenti Giorgi Marqvelaşviliyə DİA-nın fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilib.

DİA-dan AZƏRTAC-a bildiriblər ki, bu ali məktəbin rektoru, akademik Urxan Ələkbərov Gürcüstan Prezidentini akademiyanın kollektivi adından salamlayıb, Azərbaycan və Gürcüstan arasında strateji əməkdaşlıq münasibətləri, elm və təhsilin inkişafına, təhsilin məzmununun yeniləşdirilməsi, müstəqil Gürcüstan üçün kadr hazırlığı prosesinə layiqli töhfələr vermiş ali qonağın Dövlət İdarəçilik Akademiyasına gəlişini önəmli hadisə kimi dəyərləndirib. Azərbaycanın Cənubi Qafqazın lider dövləti olduğunu diqqətə çatdıran rektor bunun müstəqil dövlətimizin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində mümkün olduğunu bildirib. U.Ələkbərov, həmçinin bu gün beynəlxalq müstəvidə özünü doğrultmuş, öz seçimini qoruyan və dinamik inkişaf edən, həm regional, həm də qlobal xarakterli layihələrdə fəal iştirak edən Azərbaycan və Gürcüstan arasında bütün sahələrdə ikitərəfli münasibətlərin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra DİA-nın humanitar və sosial məsələlər üzrə prorektoru Mehdi Abdullayev Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq münasibətlərinin qorunmasında, elm və təhsil sahəsində əməkdaşlığın möhkəmlənməsində xidmətlərinə görə Gürcüstan dövlətinin başçısına akademiyanın fəxri doktoru adı verilməsi barədə elmi şuranın qərarını oxuyub.

Gürcüstan Prezidentinə DİA-nın fəxri doktoru diplomu, mantiya və xatirə hədiyyələri təqdim edilib.

Prezident Giorgi Marqvelaşvili mərasimdə çıxış edərək Gürcüstan dövlətinin təşəkkülünün əsas mərhələlərindən, yeni ictimai-siyasi formasiyaya keçid dövründə gürcü xalqının qarşılaşdığı çətinliklərdən danışıb.

Gürcüstan-Azərbaycan münasibətlərinin perspektivlərindən bəhs edən ali qonaq Azərbaycanın yüksək iqtisadi potensialını vurğulayıb. Gürcüstan lideri Azərbaycanda həyata keçirilən qlobal enerji layihələrinin Gürcüstan üçün böyük əhəmiyyət daşıdığına da diqqət çəkib. Azərbaycanı regionun önəmli dövləti kimi dəyərləndirən Prezident Giorgi Marqvelaşvili ölkəmizin qazandığı böyük uğurların ümummilli lider Heydər Əliyevin xidməti olduğunu söyləyib. Ali qonaq bu gün bütövlükdə bölgədə ictimai-siyasi sabitlik, yüksək iqtisadi inkişaf tempinə Heydər Əliyev və Eduard Şevardnadzenin uzaqgörənliyi və qətiyyəti nəticəsində nail olunduğunu bildirib. Gürcüstan lideri regional məsələlərə, iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə Prezident İlham Əliyevin diqqətini yüksək qiymətləndirib. O, xüsusi vurğulayıb ki, bu gün ölkələrimiz yeni inkişaf strategiyasını müəyyənləşdirir, bizim birliyimiz, birgə layihələrimiz və energetika sektorunda, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə başlanmış əməkdaşlığımız digər sahələrə də təsirini göstərir və bu tendensiya həm Azərbaycan, həm də Gürcüstan prezidentləri tərəfindən dəstəklənir.

Yekunda Gürcüstan Prezidenti Azərbaycana gəlişindən böyük məmnunluq duyduğunu bir daha vurğulayıb.

## Albaniya Prezidentinə ADU-nun fəxri doktoru adı verilib



Bakıda keçirilən V Qlobal Forumda iştirak etmək məqsədi ilə Azərbaycanda səfərdə olan Albaniya Respublikasının Prezidenti Buyar Nişani Azərbaycan Dillər Universitetində (ADU) olub.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev Albaniya Prezidentinin universitetdə olmasından məmnunluq duyduğunu söyləyib. Rektor Albaniya və Azərbaycan arasında diplomatik münasibətlərin tarixindən danışıb. O, əlaqələrimizin ikitərəfli və çoxtərəfli siyasi dialoq, mədəni və iqtisadi sahədə əməkdaşlıq üzərində qurulduğunu söyləyib.

Albaniya və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq etdiyini söyləyən Ə.Abdullayev B.Nişaninin ölkəmizə səfərinin Azərbaycan-Albaniya münasibətlərinin tarixində yeni səhifə açacağını sözlərinə əlavə edib. Ölkələrimiz arasında tarixi baxımdan oxşarlıq və yaxınlığın olduğunu deyən Ə.Abdullayev Azərbaycan ərazisində qədim Alban dövlətinin mövcud olduğunu xatırladıb.

Hazırda ADU tələbələrinin Şərqi Avropada baş verən tarixi, siyasi və mədəni prosesləri öyrəndiklərini bildirən Ə.Abdullayev onların gənc diplomatlar kimi ölkələrimiz arasında qarşılıqlı əlaqələrin inkişafına töhfə verəcəyini diqqətə çatdırıb.

Prezident B.Nişani çıxışında ADU-da olmaqdan və universitetin akademik heyəti ilə görüşməkdən böyük şərəf hissi keçirdiyini bildirib. ADU-nun fəxri doktoru adı verilməsinin onun üçün böyük əhəmiyyət kəsb etdiyini söyləyən B.Nişani bu adın Albaniya və Azərbaycan arasında dostluq və əməkdaşlıq simvolu olacağını sözlərinə əlavə edib. O, ölkələrimiz arasında coğrafi fərqlərin olmasına baxmayaraq, oxşar cəhətlərin olduğunu da deyib. Prezident bu görüşdə ikitərəfli əlaqələri müzakirə etmək şansının yarandığını diqqətə çatdırıb. B.Nişani hər iki ölkənin tələbə mübadiləsini artıracağına və elmi təcrübələrini bölüşəcəyinə əminliyini ifadə edib.

Sonra Albaniya prezidenti tələbələrin suallarını cavablandırıb.

Sonda professor Ə.Abdullayev B.Nişaniyə universitetin Elmi Şurasının qərarına əsasən ADU-nun fəxri doktoru diplomunu təqdim edib.

Prezident B.Nişani ADU-nun fəxri qonaqlar üçün xatirə dəftərinə ürək sözlərini yazıb.

## 10 SABAH tələbəsinin təhsil haqqı bank tərəfindən ödəniləcək

SABAH qruplarında oxuyan, tədrisdə yüksək nəticələr əldə etmiş 10 nəfər tələbənin birillik təhsil haqqı Azər Türk Bank tərəfindən ödəniləcək. Həmin tələbələr ölkəmizin 5 fərqli universitetində 3-cü kursda təhsil alırlar.

Layihə SABAH Karyera Akademiyasının rəsmi tərəfdaşı olan Azər Türk Bankın təşəbbüsü ilə həyata keçirilir. Qeyd edək ki, SABAH Karyera Akademiyası ilk SABAH məzunlarının gələcək peşəkar inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə tələbələrə dəstək verilməsi məqsədilə yaradılıb. SABAH qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilində 7 ali təhsil müəssisəsində yaradılıb. SABAH layihəsinin əsas məqsədi ali təhsildə keyfiyyətin yüksəldilməsi, yeni və fərqli mühitin yaradılması, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsidir.

Hazırda SABAH qrupları 11 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 45 ixtisas və 2300-dən artıq tələbəni əhatə edir. Bu tədris ilində 740-dan artıq SABAH tələbəsi məzun olacaq.

## Respublika fənn olimpiadalarının yarımfinal turu keçirilib

Martın 11-də Respublika fənn olimpiadalarının yarımfinal turu keçirilib. Olimpiadanın yarımfinal turu ölkənin 12 müxtəlif bölgəsindəki mərkəzlərdə-Naxçıvan MR, Bakı, Sumqayıt, Gəncə, Şəmkir, Lənkəran, Mingəçevir, Ucar, Xaçmaz, Şirvan, Şəki və İsmayıllıda keçirilib. 6000-ə yaxın şagirdin qatıldığı yarımfinal turunda rayon, şəhər mərhələsində 60 faiz və yuxarı nəticə göstərmiş şagirdlər iştirak ediblər.

Respublika mərhələsinin yarımfinal turunda şagirdlərə hər fənn üzrə 25 sual təqdim edilib. Nəticələrə əsasən fənn olimpiadalarının final mərhələsinə 534 şagird vəsiqə qazanıb.

Respublika fənn olimpiadalarının final mərhələsi aprel ayında keçiriləcək.

Qeyd edək ki, Respublika fənn olimpiadalarının birinci - rayon (şəhər) mərhələsi yanvarın 15-də keçirilib. Bilik yarışında 30000 nəfərə yaxın şagird iştirak edib.

## SABAH qrupları tələbəsi Harvard Konfransında iştirak edib

Bakı Dövlət Universitetinin SABAH qruplarında təhsil alan, beynəlxalq münasibətlər ixtisasının IV kurs tələbəsi Kamilla Nəbiyeva Amerika Birləşmiş Ştatlarının Harvard Universitetində İdarəçilik və diplomatiya mövzusunda keçirilən konfransda iştirak edib.

Konfransda "Samsung" şirkətinin vitse-prezidenti, Tom Lantos adına İnsan Haqları Komissiyasının, Harvard və Kolumbiya universitetlərinin professorları və bir çox tanınmış şirkətlərin nümayəndələri çıxış ediblər.

Konfransda qloballaşma, kiberdiplomatiya, miqrasiya və digər mövzular ətrafında müzakirələr aparılıb.

Kamilla Nəbiyeva və xarici iştirakçılar qrup şəklində (case study) Çinin vətəndaşların qeydə alınması üzrə dövlət sisteminə aid (hukou sistemi) sənəd hazırlayaraq təqdimatla çıxış ediblər.

**www.edu.gov.az**

# Dövlət təltifi təqdim olundu

Martın 15-də təhsil naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycanda yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanması və ədəbiyyatşünaslıq sahəsindəki xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adı ilə təltif olunmuş Bakı Dövlət Universitetinin professoru Təhsin Mütəllimova ali mükafatı təqdim edib.

Təhsin Mütəllimovun elm və təhsilin inkişafı sahəsindəki fəaliyyətindən danışan nazir ona uğurlar arzulayıb.

Professor Təhsin Mütəllimov əməyinə verilən yüksək qiymətə görə dövlət başçısına dərin minnətdarlığını bildirib.






## Universitet Prezidentləri Beynəlxalq Assosiasiyasının sədri ilə görüş



Martın 16-da təhsil naziri Mikayıl Cabbarov Universitet Prezidentləri Beynəlxalq Assosiasiyasının (IAUP) yeni seçilmiş sədri Kaxa Şengeliya ilə görüşüb.

Görüşdə Mikayıl Cabbarov qonağı üç illik müddətə sözügedən yüksək vəzifəyə seçilməsi münasibəti ilə təbrik edib və fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra Azərbaycan ali təhsil müəssisələrinin IAUP ilə gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Şirməmməd Hüseynovdan "Novruz mühazirəsi"



Martın 14-də Muğam klubda növbəti "Novruz mühazirəsi" keçirilib.

Budəfəki görüşdə Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovun "Üzeyir Hacıbəyli fenomeni" mühazirəsi dinlənilib.

Tədbirdə millət vəkilləri, media rəhbərləri, tanınmış yazarlar, ictimaiyyət nümayəndələri, tələbələr iştirak edib.

Professor Şirməmməd Hüseynov mühazirəsində Azərbaycanın görkəmli bəstəkarı, milli operanın banisi, publisist Üzeyir Hacıbəylinin yaradıcılığına nəzər salıb, onun Azərbaycan mədəniyyətinə verdiyi töhfəsindən danışıb.

Şirməmməd Hüseynov bildirib ki, Azərbaycan və dünya musiqi mədəniyyəti tarixində böyük izlər qoymuş Üzeyir Hacıbəyli alim, mütəfəkkir - filosof, maarifçi, ensiklopedik zəka sahibi kimi mədəniyyət tariximizdə özünəməxsus yer tutub və onun yeganə amalı doğma xalqına sədaqətlə xidmət etmək olub.

Professor qeyd edib ki, Üzeyir Hacıbəylinin musiqi mədəniyyəti, musiqişünaslıq elmi, ədəbi-publisistik fəaliyyətinə dair çoxsaylı araşdırmalar aparılıb, dövlətin himayəsi ilə ardıcıl olaraq ölkə və beynəlxalq (YUNESKO) səviyyədə yubileyləri keçirilib, 2010-cu il "Üzeyir Hacıbəyli ili" elan olunub, haqqında çoxsaylı kitablar, elmi, elmi-kütləvi məqalələr çap edilib.

Sonra görüş iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

"Novruz mühazirələri"nin keçirilməsinin əsas məqsədi təhsil və elmin bu və ya digər sahələrinə dair mövzuların gündəmə gətirilməsi və populyar dildə təqdim olunmasıdır.

www.edu.gov.az

## "Sabahın alimləri" VI Respublika Müsabiqəsinin yekunları haqqında

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası təhsil nazirinin 2016-cı il 22 sentyabr tarixli 630 nömrəli əmrinə əsasən, 2017-ci il 15-17 fevral tarixlərində Bakı şəhərində "Sabahın alimləri" VI Respublika Müsabiqəsi keçirilmişdir. Müsabiqə İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil olunmuşdur. Müsabiqənin təşkilatçıları Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi olmuş, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən müsabiqəyə elmi dəstək verilmişdir. Bu tədbirdə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Bakı, Sumqayıt, Gəncə, Şəki, Mingəçevir, Şirvan, Lənkəran, Balakən, Qax və Ucarda yerləşən 78 ümumtəhsil məktəbinin IX-XI sinif şagirdləri iştirak etmişlər.

Müsabiqədə iştirak etmək istəyən şagirdlərin qeydiyyatı on-line həyata keçirilmişdir. Elektron qeydiyyatdan keçirilmiş 302 layihədən müsabiqədə 123 layihə ilə 198 şagird iştirak etmişdir. Bu layihələrdən 46-sı fərdi, 77-si isə kollektiv işlənilmiş layihələr olmuşdur.

Layihələrin qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə alimlərdən ibarət Münsiflər heyəti yaradılmışdır. Qiymətləndirmə 8 kateqoriya (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə həyata keçirilmişdir. Münsiflər heyətinin qərarına görə müxtəlif kateqoriyalar üzrə I, II və III yerlərə 42 layihə üzrə 71 şagird, o cümlədən I yerə 3 layihə üzrə 4 şagird, II yerə 15 layihə üzrə 27 şagird, III yerə 24 layihə üzrə 40 şagird layiq görülmüşdür. Qaliblər sırasından İntel İSEF- də iştirak etmək üçün 5 şagird seçilmişdir.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal və hədiyyələr təqdim edilmiş, yer tutmayan finalçılara isə müsabiqənin sertifikatları verilmişdir.

Müsabiqə çərçivəsində şagirdlərin elmi rəhbərlər üçün Təlim Akademiyası, məktəblilər, müəllimlər və media nümayəndələri üçün "açıq qapı" saatları təşkil edilmişdir.

Qeyd olunanları nəzərə alaraq və "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2017-ci il 15-17 fevral tarixlərində "Sabahın alimləri" VI Respublika Müsabiqəsinin Münsiflər heyəti tərəfindən seçilən qaliblərinin siyahısı təsdiq edilsin (əlavə 1).

**2.** Təşkilatçıların 2017-ci il 14 fevral tarixli birgə qərarına uyğun olaraq qaliblərə (əlavə 1), qalib şagirdlərin rəhbərlərinə (əlavə 2) nəzərdə tutulmuş pul mükafatları, Münsiflər heyətinin üzvlərinə (əlavə 3), Elmi Ekspertiza Komitəsinin üzvlərinə (əlavə 4) isə qonorar verilsin.

**3.** 2017-ci ilin may ayında ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində keçiriləcək İntel İSEF- də iştirak etmək üçün seçilmiş şagirdlərin siyahısı təsdiq edilsin (əlavə 5).

**4.** Nəzərə alınsın ki, ABŞ-a gedəcək şagirdlərin yol xərcləri "İntel Foundation" Fondu tərəfindən ayrılan qrant hesabına ödəniləcəkdir.

**5.** Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri, "Sabahın alimləri" VI Respublika Müsabiqəsinin direktoru Y.Piriyevə tapşırılsın:

5.1. İntel İSEF-də iştirak edəcək şagirdlərin layihələrinin ingilis dilində hazırlanmasına nəzarət etsin;

5.2. şagirdləri ABŞ-da müşayiət edəcək nümayəndə heyətinin tərkibi barədə təkliflərini Nazirliyin rəhbərliyinə 10 gün ərzində təqdim etsin;

5.3. İntel İSEF-in Təşkilat Komitəsinə müvafiq məlumatların göndərilməsini təmin etsin.

**6.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini C.Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*13 mart 2017-ci il*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ali təhsil müəssisələrində 2017-ci ildə keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların siyahısının təsdiqi barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılıq məktubunu, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəylərini və Təhsil Nazirliyi sistemindəki ali təhsil müəssisələrinin təkliflərini nəzərə alaraq

**ƏMR EDİRƏM:**

**1.** Təhsil Nazirliyi sistemindəki ali təhsil müəssisələrində 2017-ci ildə keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların siyahısı təsdiq edilsin (əlavə olunur).

**2.** Ali təhsil müəssisələrinin rəhbərləri:

2.1. 2017-ci ildə keçirilməsi nəzərdə tutulan müvafiq beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların keçirilməsini təmin etsinlər.

2.2. Beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların keçirilməsi ali təhsil müəssisələrinin 2017-ci ilə təsdiq olunmuş büdcə üzrə xərclər smetasının və büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclər smetasının müvafiq xərc yarımmaddəsində nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilsin.

2.3. 2017-ci ildə keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların nəticələri barədə (hər bir konfrans keçirildikdən 3 gün sonra) Təhsil Nazirliyinə hesabat təqdim etsinlər.

**3.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavəsi ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, çoxaldılıb yerlərə göndərilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə edilsin.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*17 mart 2017-ci il*

# ABŞ-ın Silikon Vadisinin investorları UNEC-də

ABŞ-ın Silikon Vadisində yerləşən "Global Catalyst Partners" (GCP) şirkətinin sədri, vençur kapitalı sərmayədarı Kamran Elahianın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub.

UNEC-in rektoru, professor Ədalət Muradov qonaqlara rəhbərlik etdiyi universitetdə həyata keçirilən layihələr, beynəlxalq əməkdaşlıq imkanları, həmçinin bu ali məktəbdə yaradılan İnnovativ Biznes İnkubator barədə məlumat verib.



İnnovasiyanın İKT-də tətbiqi sahəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə ortaq proqram əsasında ölkəmizdə səfərdə olduğunu bildirən Kamran Elahian UNEC-də yaradılan İnnovativ Biznes İnkubatorun fəaliyyətini müsbət dəyərləndirib. Görüşdə beynəlxalq ekspertlərin UNEC-ə cəlb edilməsi, birgə tədbirlərin keçirilməsi, təcrübə mübadiləsinin aparılması, burada reallaşdırılan startap layihələrinin beynəlxalq çıxışlar əldə etməsi üçün dəstəyin göstərilməsi, o cümlədən tələbələrin Silikon Vadisinə turlarının təşkili barədə fikir mübadiləsi aparılıb.

Tələbələr ilə görüşdə Kamran Elahian startapları dayanıqlı biznesə çevirməyin yollarından danışıb, investorları startaplara necə cəlb etməyin sirlərini açıqlayıb. Eyni zamanda hansı ideyaların daha uğurlu startap ola biləcəyindən və inkubator mentorlarının fəaliyyətindən söz açıb.

Görüşdə UNEC-in İnnovativ Biznes İnkubatorunda fəaliyyət göstərən tələbə-startapçılar öz layihələri barədə danışıblar.

K.Elahian startapların real şirkətlərə çevrilməsi və vençur kapitalının bu sahəyə cəlb edilməsi imkanları barədə də məlumat verib.

Sonda tələbələrin sualları cavablandırılıb.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

# Rektor Dissertasiya Şurasının üzvləri ilə görüşüb

Martın 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov ADPU-nun nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.061 Dissertasiya Şurasının yeni üzvləri ilə görüşüb.

Görüşü giriş sözü ilə açan rektor Cəfər Cəfərov bildirib ki, FD.02.061 Dissertasiya Şurasının yeni tərkibi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 3 mart 2017-ci il tarixli 38 nömrəli əmri ilə təsdiq edilib. FD.02.061 Dissertasiya Şurasında "Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası, Tarixin tədrisi metodikası, Azərbaycan dilinin tədrisi metodikası)"- pedaqogika elmləri, "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"- pedaqogika elmləri, "Korreksiya pedaqogikası"-pedaqogika elmləri ixtisasları üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsi keçirilir. Dissertasiya Şurasının tərkibinə ADPU-nun tanınmış və nüfuzlu 25 nəfər alimi daxildir. Dissertasiya Şurasının sədri universitetin rektoru, tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov, sədr müavini elmi işlər üzrə prorektor, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov, elmi katibi fizika və onun tədrisi metodikası kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru İsa İsmayılovdur. Elmi seminarın sədri isə professor Əbülfət Pələngovdur. Dissertasiya Şurasının səlahiyyət müddəti 15 dekabr 2018-ci ilədək müəyyən edilib.




Rektor Dissertasiya Şurasının üzvlərini təbrik edib və onlara uğurlar arzulayıb.

Elmi işlər üzrə prorektor, professor Asəf Zamanov və Elmi katib, dosent İsa İsmayılov çıxış edərək Dissertasiya Şurasının fəaliyyəti ilə bağlı öz fikir və təkliflərini bildiriblər.

Sonda rektor Cəfər Cəfərov Dissertasiya Şurasına təqdim edilən dissertasiya işlərinin keyfiyyətinə tələblərin artırılmasını və plagiatla prinsipial mübarizə aparmağı tapşırıb.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

# Miqrantlara dəstək kursları ilə əlaqədar görüş keçirilib

Moskvada Azərbaycan Texnologiya Universiteti (ATU) və Rusiya Xalqlar Dostluğu Universitetin (RUDN) rəhbərliyi arasında görüş keçirilib. ATU-nun rektoru, professor Akif Süleymanov, elm və texnika üzrə prorektor, dosent Səbuhi Yusifov və Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Vüqar İmaməliyevdən ibarət heyət əvvəlcə RUDN-in elmi kitabxanası və digər müxtəlif bölmələri ilə tanış olub.

Sonra iki ali təhsil ocağının rəhbərliyi arasında fikir mübadiləsi aparılıb, əməkdaşlığın mümkün istiqamətləri müzakirə olunub. RUDN-in elmi işlər üzrə prorektoru Nur Kirabayev universitet haqqında məlumat verib.



RUDN-in əlavə təhsil üzrə prorektoru Anjela Doljikova isə bildirib ki, universitet Rusiyanın miqrantların fəaliyyətinin tənzimlənməsi istiqamətində həyata keçirdiyi işlərdə mühüm rol oynayır. Belə ki, hazırda Federasiya ərazisində əmək fəaliyyəti ilə məşğul olan miqrantlar yaşamaq və işləmək icazəsi almaq üçün əvvəlcə rus dili, tarixi və mədəniyyəti, eləcə də Rusiya qanunvericiliyinə dair biliklərini təsdiq edən sənədlər əldə etməlidirlər. Məhz bu işin təşkilində RUDN-in nəzdindəki Miqrantların sertifikasiya mərkəzi əsas funksiyanı - təlim kurslarının təşkili və sertifikat imtahanlarının verilməsi vəzifəsini icra edir. Eyni zamanda bu prosesdə fəal iştirak edən miqrantlarla iş mərkəzləri RUDN tərəfindən akkreditasiya olunur. Burada əsas məqsəd həm Rusiyada sənədləşmə və iş tapmaqla bağlı çətinliklərlə üzləşən miqrantlara dəstək olmaq, həm də ölkənin müxtəlif peşə biliklərinə malik işçilərə olan tələbatını ödəməkdir. Ancaq bu proses müəyyən vaxt tələb etdiyindən artıq Rusiyaya gəlmiş miqrantlar üçün əlavə çətinliklər yaradır. Ona görə də bu prosesin tərəfdaş ali təhsil müəssisələri ilə birgə ən çox miqrant gələn ölkələrdə təşkili daha məqsədəuyğun olardı.

ATU-nun rektoru, professor Akif Süleymanov qeyd edib ki, Azərbaycanda bu işin rəhbərlik etdiyi universitet tərəfindən həyata keçirilməsi üçün hər cür şərait mövcuddur. Bununla bağlı artıq ilkin araşdırmaların da aparıldığını deyən rektor bildirib ki, ATU həm RUDN-in proqramları əsasında Rusiyaya getmək istəyənlər üçün müvafiq sertifikat imtahanlarını keçirə, həm də zəruri peşə istiqamətləri üzrə sürətləndirilmiş təlim kursları təşkil edə bilər. Bu kurslar nəticəsində verilən sertifikat və diplomlar isə Azərbaycan və Rusiyanın müvafiq dövlət qurumları tərəfindən tanınacaq.

Görüşün sonunda ATU ilə RUDN arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

**Mətbuat xidməti**

# SDU-nun kollektivi tibbi müayinədən keçib

Azərbaycan Respublikası Prezidentinin əhalinin tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq əhalinin növbəti tibbi müayinəsi 2017-ci il fevralın 15-dən mayın 15-dək ölkənin bütün yaşayış məntəqələri üzrə tibb müəssisələrində keçiriləcək. Bu mühüm tədbirin yüksək səviyyədə təşkili üçün şəhər və rayon icra hakimiyyətləri səhiyyə orqanları ilə birgə bütün təşkilati işləri həyata keçirir, əhali arasında izahat-maarifləndirmə işi aparılmaqla vətəndaşların əhatəli şəkildə tibbi müayinəyə cəlb olunmaları üçün zəruri tədbirlər görülür.



Sumqayıt şəhər tibb müəssisələrində fəaliyyət göstərən həkimlər martın 15-də SDU-nun kollektivinin tibbi müayinəsini həyata keçirmək məqsədi ilə universitetimizdə oldular. Həkim heyəti müayinə olunanların şikayətlərini dinlədi, müəyyən tövsiyələr verdilər.

Universitetin humanitar məsələlər üzrə prorektoru, dosent Ramiz Hüseynov bildirdi ki, xalqımızın sağlamlığının qorunmasını prioritet vəzifə kimi qarşıya qoyan ulu öndər Heydər Əliyev yüksəkixtisaslı tibb kadrlarının yetişdirilməsinə, səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, ən müasir tibbi cihaz və avadanlıqların gətirilməsinə xüsusi diqqət yetirirdi. Bu gün ulu öndərin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev əhalinin sağlamlığının qorunması istiqamətində bir-birinin ardınca mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail olub. Hazırda səhiyyə ocaqlarında elə bir şərait yaradılıb ki, insanlar xəstəxanalara böyük inamla gəlib müalicə olunurlar. Bu gün universitetimizdə keçirilən belə bir səhiyyə aksiyası cənab Prezidentin xalqımızın sağlamlığına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

SDU-nun əməkdaşları belə bir aksiyanın keçirilməsinə tapşırıq verdiyinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

**Mətbuat xidməti**

## Polşalı professorların mühazirələrinə start verilib

UNEC-də Polşanın Poznan İqtisad və Biznes Universitetinin (Poznan University of Economics and Buisness) professorlarının mühazirələrinə start verilib. Polşanın nüfuzlu universitetinin üç professoru - Konrad Jan Sobanski, Michal Konopczynski və Sylwester Bialowas UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbi və SABAH qruplarında dərs deyəcəklər. Onlar dünya iqtisadiyyatı, maliyyə və biznesin idarəedilməsi ixtisası üzrə təhsil alan tələbələrə risklərin idarə edilməsi, fyuçers və opsion müqavilələri, valyuta törəmələri, valyuta bazarının konvensiya və əməliyyatları mövzusunda mühazirə oxuyacaqlar.

Erasmus+ mübadilə proqramı çərçivəsində həyata keçirilən layihə bir həftə davam edəcək.

Qeyd edək ki, mübadilə proqramı çərçivəsində martın 6-dan 11-dək UNEC-in iki müəllimi - İnara Rzayeva və Sevər Məmmədova Poznan İqtisad və Biznes Universitetində mühazirə oxuyublar. Aprel ayında isə UNEC-in 4 professoru sözügedən universitetdə iqtisadiyyat və riyaziyyat fənlərini tədris etməyə dəvət edilib.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

## Tələbələr Duzdağ Fizioterapiya Mərkəzində olublar

"Naxçıvan" Universitetində yaradılmış Turizm və İnformasiya Mərkəzinin təşkilatçılığı ilə beynəlxalq münasibətlər və coğrafiya ixtisaslarının II və I kurs tələbələri Duzdağ Fizioterapiya mərkəzində olmuşlar. Universitetin Turizm və İnformasiya Mərkəzinin rəhbəri Şahnaz Məmmədova və təbiət elmləri kafedrasının müəllimi Nazim Bababəyli bildiriblər ki, Naxçıvanda turizmin bir çox sahəsinin inkişafı üçün əsaslı məkanlar var. Belə məkanlardan biri də sağlamlıq turizminin inkişafı baxımından əhəmiyyətli olan Duzdağ Fizioterapiya Mərkəzidir. Dağın altına doğru 300 metr uzanan və divarları duz qayaları ilə örtülü "Duzdağ" Fizioterapiya Mərkəzinin dünyada bənzəri yoxdur. Buraya gələnlər təxminən bir həftə gecələri duz mağarasında keçirdikdən sonra yenidən sağlamlıqlarına qovuşurlar. Sovetlər dövründə SSRİ-nin rəhbər şəxslərinin əksəriyyəti bu mağarada şəfa tapmışdır. Hətta rus çarlarının belə buraya müalicə üçün gəldiyi deyilir. Turistlərin marağına səbəb olan bu möcüzəvi yer sadəcə xarici turistlərin deyil, eləcə də yerli turistlərin də üz tutduğu ünvanlardan biridir.

Sonda tələbələr Fizioterapiya Mərkəzi ilə tanış olmuş, onlara ətraflı məlumat verilmişdir.

**Nuray ƏSGƏROVA**

## Təhsil İnstitutu mütəxəssisləri əməkdaşlığa dəvət edir

Təhsil İnstitutu ibtidai (I-IV) siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə dərslik müəllifi olmaq arzusunda olan mütəxəssisləri - müəllim, doktorant, metodistləri əməkdaşlığa dəvət edir.

İştirakçı namizədlər Azərbaycan dili və riyaziyyat fənləri üzrə bir sıra keyfiyyətlərə malik olmalıdır. Belə ki, seçimlərdə ixtisas fənni üzrə dərin bilikləri olan, araşdırma, fikirlərini yazılı formada şərh etmək təcrübəsinə, yüksək özünütəhsil vərdişlərinə, xarici dil, kompüter biliklərinə malik, tədris resurslarının hazırlanması layihələrində iştirak edən, geniş elmi dünyagörüşü olan şəxslərə üstünlük veriləcək.

Bir neçə mərhələdən ibarət olacaq müsabiqəyə zəruri keyfiyyətlərə malik şəxslər dəvət olunacaq və qaliblərlə əməkdaşlıq müqaviləsi bağlanacaqdır.

## Aqrar Universitetində telemüşavirə keçirilib

ADAU-nun aqronomluq fakültəsində üzümçüalim, professor Famil Şərifovun adını daşıyan auditoriyada MDB ölkələrində fəaliyyət göstərən 10-a yaxın aqrar universitetin iştirakı ilə "Qida məhsullarının təhlükəsizliyi və keyfiyyəti" mövzusunda telemüşavirə keçirilib.

ADAU-nun mətbuat xidmətinin xəbərinə görə, telemüşavirədə təhsil müəssisəsinin baytarlıq təbabəti və zoomühəndislik, əczaçılıq və BSE, epizootologiya, mikrobiologiya və parazitologiya, heyvandarlıq və balıq məhsulları istehsalının texnologiyası, eləcə də aqrotexnologiya fakültəsindən qida məhsulları mühəndisliyi və ekspertizası kafedrasının əməkdaşları, magistrlər iştirak ediblər. Qarşılıqlı dialoq şəklində davam edən müşavirədə dünyada ən aktual problem olan qida təhlükəsizliyi və keyfiyyəti məsələsi ətraflı müzakirə edilib, dəyərli təkliflər, fikirlər səsləndirilib. Problemin həlli üçün MDB məkanında bu sahənin alimlərinin birgə fəaliyyətinin vacibliyi xüsusi vurğulanıb.

Telemüşavirə həm də ixtisasartırma funksiyasını yerinə yetirib və Timiryazev adına Rusiya Dövlət Aqrar Universitetinin təşkilatçılığı ilə təşkil olunub.

**Mətbuat xidməti**

# Təhsil.TV-nin ADNSU haqqında çəkdiyi sənədli filmin təqdimatı olub

Martın 10-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Təhsil.TV-nin "Ali hədəflər" layihəsi çərçivəsində universitet haqqında çəkdiyi filmin təqdimatı keçirilib. Filmdə ADNSU-nun tarixindən, vaxtilə universitetdə təhsil almış görkəmli şəxsiyyətlərdən, həmçinin universitetin bugünkü həyatından, tələbələrdən, beynəlxalq əlaqələrindən, laboratoriya və tədris prosesindən bəhs olunub.





Filmin nümayişindən sonra ADNSU-nun rektoru, professor Mustafa Babanlı film haqqında təəssüratlarını bölüşüb və yaradıcı heyətə gözəl iş ərsəyə gətirdikləri üçün dərin təşəkkürünü ifadə edib. "ADNSU-nun şanlı tarixi var və bunu bu cür, olduğu kimi əks etdirmək böyük peşəkarlıq tələb edir. Azİİ-ni sevmədən bu cür film çəkmək olmazdı. Buna görə də yaradıcı heyətə dərin minnətdarlığımı bildirirəm", - deyə rektor M.Babanlı bildirib.

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov Azİİ-nin hər zaman seçilən universitet olduğunu vurğulayıb. Yalnız şanlı tarixi və parlaq gələcəyi olan belə bir ali məktəbin savadlı və peşəkar mütəxəssislər yetişdirə biləcəyini qeyd edən C.Valehov ADNSU-nun eyni zamanda gələcəyin universiteti olduğunu bildirib. Onun sözlərinə görə, təhsil, elm və innovasiyanı vəhdət şəkildə nəzərdən keçirən ADNSU-nu 3-cü nəsil universitet adlandırmaq olar.

Tədbirin sonunda Təhsil.TV-nin yaradıcı heyəti - layihənin rəhbəri Nurəddin Heydərov, əməkdaşlar Arzu Qulamov, Vahid Quliyev və Gülnarə İlham səhnəyə dəvət olunub, onlara təşəkkürnamə təqdim edilib.

Qeyd edək ki, "Ali hədəflər" layihəsi Təhsil Nazirliyi və Təhsil.TV-nin layihəsi olub, ölkədəki ali təhsil müəssisələrinin tarixi keçmişi və hazırkı fəaliyyətini əks etdirən filmlərin çəkilməsini nəzərdə tutur.

# Almaniyanın Vürtsburq Universitetinin professoru ADU-da mühazirə oxuyub

Martın 13-də Azərbaycan Dillər Universitetində (ADU) Osvald fon Volkenştayn Cəmiyyətinin prezidenti, Almaniyanın Vürtsburq Universitetinin professoru Ziqlinde Hartman müəllim və tələbələrə "Heinrich von Morungen: Minnesang" mövzusunda mühazirə oxuyub. Tələbə və müəllimlər tərəfindən maraqla qarşılanan mühazirədə professor onları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, Ziqlinde Hartman (Sieglinde Hartmann) ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayevin təklifi və alman dili kafedrasının baş müəllimi Sənubər Zeynalovanın təşkilatçılığı ilə almandilli tələbə və müəllimlər üçün martın 16-dək ADU-da mühazirələr aparıb.

**İnformasiya Departamenti**



# Gəncə Dövlət Universitetinin baza məktəblərində görüş keçirilib

Orta təhsil müəssisələri ilə əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi, tədris, elmi-tədqiqat, beynəlxalq əlaqələrin təbliği məqsədilə rektor, professor Yusif Yusibovun 7 mart 2017-ci il tarixli əmrinə əsasən Gəncə Dövlət Universitetində işçi qrupu yaradılıb. İşçi qrupu ilkin olaraq universitetin baza məktəblərindən olan Gəncə şəhər Mir Cəlal Paşayev adına 39 və M.Mehdizadə adına 4 nömrəli tam orta məktəblərin pedaqoji kollektivləri və XI sinif şagirdlərinin iştirakı ilə tədbir keçirib. Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin direktoru Nizami Rzayev çıxışında özünün, həmçinin müəllim kollektivinin 80 faizinin Gəncə Dövlət Universitetinin məzunu olduğunu vurğulayıb, şagirdlərə də bu ənənəni davam etdirməyi tövsiyə edib.

Təcrübə və karyera şöbəsinin müdiri, dosent Mahir Məmmədov universitetin tarixi və burada fəaliyyət göstərən fakültə və ixtisaslar haqqında ətraflı məlumat verib. Qeyd edib ki, universitetin rektoru, kimya elmləri doktoru, professor Yusif Yusibovun rəhbərliyi ilə son illərdə universitetin maddi-texniki bazası genişlənib. 5 tədris binası, kitabxana, açıq və qapalı tipli idman zalları, müxtəlif istiqamətli tədris və elmi-tədqiqat laboratoriyaları, yüksək sürətli internetlə təmin olunmuş kompüter otaqları, ixtisaslaşdırılmış auditoriyalar, fənn kabinetləri, hər fakültənin nəzdində tələbələrin ictimai fəaliyyətinin inkişafı üçün nəzərdə tutulmuş "Gənclər otağı" tələbələrin istifadəsindədir. Universitetin bütün tədris binaları arasında fiber-optik kabel vasitəsi ilə korporativ şəbəkə qurulub və geniş zolaqlı internetlə təmin edilib.



Universitetdə təhsil alan hər bir tələbə yüksək səviyyədə bilik əldə etməklə yanaşı, asudə vaxtlarını da səmərəli keçirə bilir.

Qeyd olunub ki, qərb regionu üzrə ilk dəfə olaraq İELTS imtahanları Gəncə Dövlət Universitetində təşkil edilib. İELTS imtahanlarında müsbət nəticə əldə edən tələbə və məzunlar Avropa universitetlərində təhsil almaqla yanaşı, xarici ölkələrdə əmək fəaliyyəti ilə də məşğul ola bilərlər.

Beynəlxalq əlaqələri getdikcə inkişaf edən universitet Horizon-2020 və YÖS proqramlarında fəal iştirak edir. İstanbul Universiteti ilə bağlanılan müqavilə əsasında Gəncə şəhərində 29 aprel 2017-ci il tarixdə Türkiyə Respublikasının 100-dən artıq universitetində təhsil almaq istəyən abituriyentlər üçün qəbul proqramı olan YÖS imtahanları təşkil ediləcəkdir.

Görüşlərdə vurğulanıb ki, universitet tərəfindən ardıcıl olaraq orta məktəb şagirdləri üçün fənn olimpiadaları, ekskursiyalar, müxtəlif xarakterli yarışlar və tədbirlər keçirilir.

Çıxış edən şagirdlər görüş üçün minnətdarlıqlarını və gələcəkdə ali təhsil almaq üçün Gəncə Dövlət Universitetini seçəcəklərini bildiriblər.

Çıxışlardan sonra universitetin həyatını əks etdirən videomateriallar nümayiş etdirilib, şagirdlərə bukletlər, universitetlə bağlı suvenirlər hədiyyə edilib.

Sonda xatirə şəkilləri çəkilib.

**Mətbuat xidməti**

# AzMİU-da tətbiq olunan diferensial əməkhaqqı sistemi müəllimlər arasında rəqabəti gücləndirib

Ölkəmizdə təhsil sisteminin insan kapitalının inkişafı tələblərinə cavab verməsi üçün yeni addımların atılması və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması zərurəti yaranır. Təhsil ekspertləri təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulmasını, bu sahədə insan resurslarının inkişaf etdirilməsini və müəllim peşəsinin nüfuzunun artırılmasını önə çəkirlər.

Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biri olan elmin və təhsilin inkişafı istiqamətində son illər mühüm addımlar atılır. Dövlət başçısının "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı təsdiq etməsi təhsildə prioritet istiqamətləri müəyyənləşdirdi. Eyni zamanda bu qərar respublikanın ali təhsil müəssisələrinə stimullaşdırıcı mexanizmlərin təkmilləşdirilməsi yönümündə islahatların aparılmasına istiqamət verdi.

Azərbaycan Memarlıq və İnşaat Universitetində 2015-ci ildən tətbiq edilən "Daxili qiymətləndirmə" layihəsi birbaşa bu prinsiplərə xidmət edir. Qiymətləndirmə sistemində təhsilverənin ilboyu pedaqoji, elmi-metodik işlərinin keyfiyyəti, beynəlxalq təhsil sisteminə inteqrasiyası, təhsildə müasir texnologiyaların tətbiqi və tələbələrin rəyi öz əksini tapır. Layihənin əsas vəzifəsi mütəxəssislərin hazırlıq keyfiyyətini yüksəltmək və universitetin inkişaf prioritetlərinə müəllimlərin diqqətini cəlb edərək, onların potensialının bu istiqamətlərdə daha dolğun reallaşdırılmasının motivasiyasıdır. Eyni zamanda, bu layihədə iştirak hüququ qazanan müəllimlərə diferensial əməkhaqqı verməklə stimullaşdırıcı mexanizmləri təkmilləşdirmək və universitetdə sağlam rəqabəti formalaşdırmaq qarşıya məqsəd qoyulub.

Azərbaycan Memarlıq və İnşaat Universitetində rektor Gülçöhrə Məmmədovanın əmri ilə daxili qiymətləndirmə layihəsini həyata keçirən Daxili Qiymətləndirmə Komissiyası fəaliyyət göstərir. Daxili Qiymətləndirmə Komissiyasının tətbiq etdiyi diferensial əməkhaqqı sistemi AzMİU-da tam ştatda çalışan professor-müəllim heyətini əhatə edir. Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirməsinin nəticələrinə əsaslanaraq onların vəzifə maaşlarına hər tədris ilinin əvvəlində müəyyən edilən əmsallar üzrə əlavələrin olunması nəzərdə tutulur.

Müəllimin kateqoriyası özü tərəfindən doldurulmuş attestasiya vərəqəsinin konkret göstəricilərinə və rəhbərlik tərəfindən verilən ballara uyğun olaraq müəyyənləşdirilir. Layihə çərçivəsində cari tədris ili üçün namizədlərdən 21 müəllim seçilib. Seçilmiş müəllimlərdən 4 nəfər A kateqoriyası, 17-si isə B kateqoriyası üzrə qiymətləndirilib. A kateqoriyası üzrə qiymətləndirilmiş müəllimlərin əməkhaqlarına il boyu 120 AZN, B kateqoriyası üzrə qiymətləndirilmiş müəllimlərin əməkhaqlarına isə il boyu 100 AZN məbləğində əlavələr ediləcək.

Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi onların universitetdəki fəaliyyətinin üç əsas istiqaməti nəzərə alınmaqla həyata keçirilir: elmi fəaliyyətlər (40%), tədris fəaliyyətləri (40%) və özününkişaf fəaliyyətləri (20%). Elmi fəaliyyət dedikdə, müəllimlərin elmi nəşrləri, xarici ölkələrdə nəşr olunan elmi məqalələrinin sayı nəzərdə tutulur. Bütün bu göstəricilər pedaqoji heyətin müəyyən vəzifələrə seçkisi və təyin olunması zamanı da nəzərə alına bilər.

AzMİU-nun Strateji planlaşdırma şöbəsinin müdiri Ülkər Səttarova sistemin tətbiqindən sonra professor-müəllim heyəti arasında elmi rəqabətin gücləndiyini və dünyanın nüfuzlu elmi jurnallarında dərc olunan məqalələrinin sayında artımın müşahidə olunduğunu vurğulayıb. O qeyd edib ki, bu rəqabət dünyanın aparıcı informasiya agentliyi olan "Thomson Reuters"in ali təhsil müəssisələri üçün qlobal elmi bazası olan "Web of Science"a daxil olan elmi nəşrlərin sayında da özünü göstərir.

Məlumat üçün onu da qeyd edək ki, təhsil xidmətinin keyfiyyətinin təkmilləşməsinə və rəqabətyönümlü mühitin yaranmasına müsbət təsiri nəzərə alınan Daxili qiymətləndirmə layihəsinin növbəti illərdə də tətbiqi planlaşdırılır.

**Mətbuat xidməti**

# UNEC-də Gənc Alimlər Məktəbi yaradılacaq



Dünyanın tanınmış elmi-analitik informasiya təminatçısı olan “Thomson Reuters”in departament direktoru Oleq Utkin və şöbə müdiri Valentin Boqorov UNEC-in rektoru, professor Ədalət Muradovla görüşüb. “Thomson Reuters”lə universitet arasında gələcək əməkdaşlığın 3 istiqaməti - Beynəlxalq konfransın təşkili, Elmmetrik laboratoriyanın qurulması və Gənc Alimlər Məktəbinin yaradılması görüşün əsas müzakirə mövzusu olub.

Bildirilib ki, UNEC və “Thomson Reuters”in birgə təşkilatçılığı ilə may ayında keçiriləcək “Müasir universitetlərdə elmi fəaliyyətin idarə olunması modeli: innovativ inkişaf, çağırışlar və perspektivlər” mövzusunda beynəlxalq konfrans dünyanın nüfuzlu universitetlərinin alimlərini UNEC-də bir araya gətirəcək. Tədbir eyni zamanda ölkədə “Web of Science” platformasına çıxış əldə etməyə dəstək olacaq. Bu isə elmi-tədqiqat işlərinin dünyanın elmi ictimaiyyəti arasında tanıdılmasında mühüm rol oynayacaq. Qeyd edək ki, nüfuzlu dünya universitetlərinin alimlərinin elmi məqalələrinin konfransa təqdim edilməsi ilə bağlı çoxsaylı müraciətlər daxil olub.

Görüşdə UNEC-in bazasında yaradılacaq Gənc Alimlər Məktəbi geniş müzakirə edilib. O.Utkin bildirib ki, dünya səviyyəli universitet olmaqda iddialı olan UNEC-də bu məktəbin təsis edilməsi gənc alimlərə müasir tələblərə cavab verən elmi nəşrlərin və məqalələrin hazırlanmasına, elmi araşdırmaların keyfiyyətinin artırılmasına xidmət edəcək.

UNEC-də həm Azərbaycanın, həm də regionun digər ölkələrinin maraqlarına cavab verəcək Elmmetrik laboratoriyanın açılması, “Xəzəryanı ölkələrin iqtisadiyyatı” adlı elmi jurnalın nəşri ətrafında da fikir mübadiləsi aparılıb.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

# Səfir Bakı Mühəndislik Universitetində olub



Ölkəmizin Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri Həsən Zeynalov Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədovla görüşüb.

Görüşdə məqsəd Bakı Mühəndislik Universiteti ilə Türkmənistanda fəaliyyət göstərən universitetlər arasında əlaqələrin genişləndirilməsidir.

Bakı Mühəndislik Universitetində baş tutan görüşdə professor Havar Məmmədov qonağa rəhbərlik etdiyi ali məktəbin ölkəmizdə mühəndis texnologiyalarının tədrisinin təkmilləşdirilməsi və bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Prezident İlham Əliyevin 8 noyabr 2016-cı il tarixli sərəncamı ilə yarandığını bildirib.

Qeyd edib ki, Bakı Mühəndislik Universitetinin məqsədi Azərbaycan iqtisadiyyatının indiki inkişaf səviyyəsinə əsasən mövcud elmtutumlu sənaye müəssisələrində istehsal proseslərinin təşkili, innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığını həyata keçirməkdir.

Görüşdə səfir Həsən Zeynalov bu gün Azərbaycanla Türkmənistan arasındakı əlaqələrin ən yüksək səviyyədə olduğunu bildirib. Səfir çıxışında Azərbaycanın nüfuzlu ali məktəbində olmaqdan qürur duyduğunu, Türkmənistanın bir çox elm mərkəzlərinin Bakı Mühəndislik Universiteti ilə əlaqələr qurmaq istədiklərini dilə gətirib. Türkmənistandan Bakı Mühəndislik Universitetində 10 tələbənin təhsil aldığını deyən səfir, onlara burada yüksək təhsil almaları üçün hər cür şəraitin yaradıldığından məmnun olduğunu söyləyib.

**Mətbuat xidməti**

## ADNSU-da memorandum imzalanıb

Martın 15-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Gürcüstanın Beynəlxaq Qafqaz Universitetinin rektoru və Universitet Rektorları Beynəlxalq Assosiasiyasının prezidentı Kaxa Şengeliya ilə görüş keçirilib. Tədbirdə Azərbaycan və Gürcüstan arasında təhsil sahəsində genişlənən əməkdaşlıq, eləcə də yeniliklərin tətbiqi məsələləri müzakirə olunub. ADNSU-da həyata keçirilən yeniliklər və tədris prosesi haqqında qonağa geniş məlumat verən rektor, professor Mustafa Babanlı Azərbaycanla Gürcüstan arasında təhsil əlaqələrinin genişləndirilməsinin, Gürcüstanda olan təhsillə əlaqəli yeniliklərin ölkəmizdə tətbiq edilməsinin və birgə layihələrin həyata keçirilməsinə dəstək verilməsinin əhəmiyyətini qeyd edib.

“Bizim Gürcüstanın Beynəlxaq Qafqaz Univesiteti ilə əməkdaşlıq edə biləcəyimiz sahələr çoxdur. Biz bir çox sahələrdə birgə layihələr hazırlaya bilərik. Qafqaz Universitetinin bu sahədə kifayət qədər təcrübəsi var”, - deyə ADNSU-nun rektoru, professor M.Babanlı bildirib.

Rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında görüş iştirakçılarına ətraflı məlumat verən Gürcüstanın Qafqaz Universitetinin rektoru K.Şengeliya Azərbaycanla Gürcüstanın artan əməkdaşlıq istiqamətləri içərisində təhsilin xüsusi yer tutduğunu qeyd edib. Rektor bildirib ki, bu əlaqələri inkişaf etdirmək, elm və təhsil sahəsində ümumi maraqlara əsaslanan əməkdaşlıq əlaqələri qurmaq olduqca mühüm əhəmiyyət kəsb edir. Gürcüstan ali məktəblərində tətbiq olunan yeniliklərdən söz açan rektor K.Şengeliya öz təcrübələrindən və tədrisdə tətbiq olunan innovativ layihələrdən danışıb.

Tədbirdə universitetlərin tanıdılması istiqamətində layihələrin həyata keçirilməsinin əhəmiyyətindən söz açılıb. Həmçinin, dünyanın 100-dən çox universitetinin qoşulduğu Universitet Rektorları Beynəlxalq Assosiasiyasının növbəti iclasının 2018-ci ildə Azərbaycanda keçirilməsi müzakirə olunub.

Tədbirin sonunda tərəflər arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

**Mətbuat xidməti**

## ADPU-da əməkdaşlıq məsələləri müzakirə edilib

Martın 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov Gürcüstan Respublikasının Qafqaz Universitetinin rektoru, Beynəlxalq Universitetlər Assosiasiyasının prezidenti Kaxa Şengeliya ilə görüşüb. Görüşdə ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Nigar Abbaszadə iştirak edib.

Rektor Cəfər Cəfərov görüş zamanı rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verərək bildirib ki, ADPU-nun tərkibində 5 filial və Azərbaycan Dövlət Pedaqoji Kolleci (ADPK) fəaliyyət göstərir. Bakı şəhərindəki Məmməd Rahim adına 7 nömrəli tam orta məktəb isə ADPU-nun baza məktəbidir. Tədris 4 korpusda aparılır. ADPU-nun 20 minə yaxın tələbəsi var.

Rektor universitetin fəaliyyət istiqamətləri, həyata keçirilən islahatlar, yeniliklər, layihələr və beynəlxalq əlaqələr barədə danışıb.

Qafqaz Universitetinin rektoru, Beynəlxalq Universitetlər Assosiasiyasının prezidenti Kaxa Şengeliya səmimi və qonaqpərvər münasibətdən məmnun qaldığını bildirərək Beynəlxalq Universitetlər Assosiasiyası barədə məlumat verib. Bildirib ki, Beynəlxalq Universitetlər Assosiasiyası 1965-ci ildə Birləşmiş Millətlər Təşkilatının yanında yaradılıb. Dünyanın 200-dən çox qabaqcıl və nüfuzlu universiteti bu Assosiasiyanın üzvüdür. Assosiasiyanın əsas mərkəzləri ABŞ-ın Nyu-York şəhərində və Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşir. Kaxa Şengeliya rektor Cəfər Cəfərovu Beynəlxalq Universitetlər Assosiasiyasının 5-8 iyul 2017-ci ildə Avstriyanın paytaxtı Vyana şəhərində keçiriləcək toplantısına dəvət edib.

Görüşdə ali təhsil sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, ali təhsilin yeni keyfiyyət standartları, intellektual resurslardan səmərəli istifadə və gələcəkdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə olunub.

Sonda xatirə şəkli çəkdirilib.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

## Əməkdaşlıq müqaviləsi imzalanıb

Azərbaycan Memarlıq və İnşaat Universiteti Türkiyənin İstanbul Kəmərburqaz Universiteti ilə əməkdaşlıq edəcək. İstanbul Kəmərburqaz Universitetinin rektoru, professor Cağrı Erhan və AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova birgə əməkdaşlığa dair müqavilə imzalayıblar.

Müqavilədə birgə elmi tədqiqatların aparılması, birgə təhsil proqramları, konfrans, seminar və simpoziumların keçirilməsi, hər iki universitetin maraq dairəsində olan nəşrlərin mübadiləsi, eyni zamanda müəllim-tələbə mübadiləsi və digər məsələlər nəzərdə tutulur.

Əməkdaşlıq müqaviləsi 5 il müddətinə qüvvədə qalacaq, əgər tərəflər istəyərlərsə, müddət bitdikdən sonra müqavilə yenidən 5 il müddətinə uzadıla bilər.

# Milli Teatr Günü münasibətilə “SABAH” qrupu tələbələri mükafatlandırılıb



Milli Teatr Günü münasibətilə “Səda” Tədris Teatrında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “SABAH” qrupu aktyor sənəti III kurs tələbələrinin ifasında M.F.Axundovun “Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur” komediyası tamaşaçılara təqdim olunub.

Tamaşa kurs rəhbəri, əməkdar artist, rejissor Nofəl Vəliyev, səhnə danışığı kafedrasının müəllimi, dosent Nadir Hüseynov və dram teatrı və kino aktyoru kafedrasının müəllimi Ruslan İsmayılovun təşəbbüsü nəticəsində tələbələrlə birgə hazırlanıb. “Səda” Tədris Teatrı kino və televiziya fakültəsinin, Tələbə Həmkarlar İttifaqı Komitəsi rəssamlıq fakültəsinin tələbələrini teatrın fəaliyyətində yaxından iştirakına görə YAP Gənclər Birliyi və “Elm çırağı” İctimai Birliyi “SABAH” qrupları III kurs aktyor sənəti və teatr sənəti fakültəsinin istedadlı tələbələrini aktyorluq məharətinə görə fəxri fərman və diplomlarla təltif ediblər. Tamaşanın sonunda universitetin rektoru, əməkdar incəsənət xadimi, professor Fərəh Əliyeva tələbələri təbrik edib və gələcək yaradıcılıq fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# “Gənc istedadlar” liseyində akademik Vasim Məmmədəliyevlə görüş keçirildi



Martın 16-da Bakı Dövlət Universitetinin nəzdindəki “Gənc istedadlar” liseyində görkəmli şərqşünas alim, BDU-nun ilahiyyat fakültəsinin dekanı, ərəb filologiyası kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şuranın sədri, akademik Vasim Məmmədəliyevlə görüş keçirildi. Görüşdə liseyin müəllim-şagird kollektivi ilə yanaşı, BDU-nun əməkdaşları, valideynlər və KİV nümayəndələri də iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan liseyin direktoru, professor Qasım Hüseynov görkəmli alimin həyat və fəaliyyəti haqqında danışdı. Alimin Azərbaycanda şərqşünaslıq elminə verdiyi töhfələrdən söz açdı. Nəzərə çatdırdı ki, Vasim Məmmədəliyev akademik Ziya Bünyadov ilə sovet rejimi dövründə Qurani-Kərimi ilk dəfə Azərbaycan dilinə tərcümə etmişdir. Bundan başqa, alimin yüzlərlə elmi məqaləsinin dünyanın bir çox ölkələrində nəşr edildiyini diqqətə çatdırdı.

Görüşdə ilahiyyat fakültəsinin islam elmləri kafedrasının baş müəllimi Aqil Şirinov “Akademik Vasim Məmmədəliyevin elmi, pedaqoji və ictimai fəaliyyəti” mövzusunda məruzə etdi.

BDU-nun professoru Əyyub Əzizov, liseyin tarix müəllimi Nuru Məmmədov tədbirdə çıxış edərək alimin dünya elminə verdiyi töhfələrdən danışdılar.

Sonda akademik Vasim Məmmədəliyev liseyin müəllim və şagirdlərini maraqlandıran sualları cavablandırdı.

**Niyazi RƏHİMOV,**
*“Azərbaycan müəllimi”*

# BSU nəzdində Məktəb-Lisey Kompleksində “Açıq qapılar günü”



Martın 15-də Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksində yeni təlim texnologiyalarıının və yanaşmaların, eləcə də fənn kurikulumlarının tətbiqi vəziyyətinin öyrənilməsi və qiymətləndirilməsi məqsədilə “Açıq qapılar günü” keçirilib. Tədbir çərçivəsində təşkil olunan “açıq dərs”lər və təqdimatlarda universitet kafedralarının professor-müəllim heyəti, müvafiq şöbələrin mütəxəssisləri, valideynlər, təcrübəçi tələbələr, metodist müəllimlər, rayon məktəblərinin müəllimləri iştirak ediblər.

“Açıq qapılar günü”ndə kompleksdə müxtəlif fənlər (Azərbaycan dili, tarix, coğrafiya, rus dili, ingilis dili, biologiya, riyaziyyat) üzrə və ibtidai siniflərdə 15 dərs dinlənilib.

Tədbirin sonunda dərs-təqdimatların hər birinin geniş müzakirəsi təşkil olunub, fikir mübadiləsi aparılıb. Qonaqlar eyni zamanda Novruz bayramı münasibətilə düzənlənmiş şagirdlərin əl işləri sərgisi ilə tanış olublar.

**Mətbuat xidməti**

# Təhsil müəssisələrində Novruz bayramı qeyd olunub

## Bakı Dövlət Universitetində

Bakı Dövlət Universitetində Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçirilib. Rektor, akademik Abel Məhərrəmov bayram münasibəti ilə universitetin müəllim-tələbə heyətini təbrik edib, xalqımızın milli dəyərlərə önəm verməsi baxımından Novruzun keçirilməsinin əhəmiyyətini qeyd edib. Ulu öndər Heydər Əliyevin bayramın dövlət səviyyəsində qeyd olunması məqsədi ilə atdığı mütərəqqi addımları, Prezident İlham Əliyevin hər il Novruz şənliklərində iştirak etməsi, xalqımıza təbrik ünvanlaması diqqətə çatdırılıb.

Daha sonra filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının nəzdində fəaliyyət göstərən "Folklor" dərnəyinin təqdimatında yeddi regionda - Qarabağ, Bakı, İrəvan, Naxçıvan, Gəncə, Şirvan, Lənkəranda Novruz bayramının qeyd olunmasını əks etdirən səhnəciklər, adət-ənənələr nümayiş etdirilib, dərnəyin üzvləri, Asəf Zeynallı adına musiqi kollecinin tələbələrinin təqdimatında muğam ifa edilib.

Tədbir Bakı Musiqi Akademiyasının "Baku Chamber Orchestra" gənclər kamera orkestrinin çıxışı ilə davam edib.



## Bakı Mühəndislik Universitetində

Bakı Mühəndislik Universitetində xalqımızın milli bayramı olan Novruz bayramına həsr olunmuş tədbir keçirilib. Universitetin həyətində təşkil olunmuş tədbirdə Novruz bayramına aid milli mətbəx, milli oyunlar və adət-ənənələr nümayiş olunub. Şənliyə qatılan universitetin rektoru, professor Havar Məmmədov bayram münasibətilə müəllim və tələbələri təbrik edib, milli-mənəvi dəyərlərimizdən və onlar içərisində Novruzun xüsusi yeri olmasından danışıb. Novruz tonqalını alışdıran professor gənclərin milli ruhda böyüməsi üçün milli adət-ənənələrimizi öyrənmələrini və yaşatmalarını tövsiyə edib.

Qeyd edək ki, universitetdə alimlər tərəfindən tələbələr üçün "Novruz bayramının qaynaqları və mənəvi dəyərləri" mövzusunda seminar keçirilib.

Şənlik Novruza xas oyunlar, milli rəqslər və milli musiqi ifaları ilə davam edib.



## Bakı Slavyan Universitetində

Martın 14-də Bakı Slavyan Universitetində (BSU) Novruz bayramına həsr olunmuş bayram tədbiri keçirilib. Yazın gəlişini xüsusi qarşılayan universitet kollektivi torpaq - ilaxır çərşənbəsini də yüksək ab-hava ilə qeyd edib. Belə ki, bayramla əlaqədar BSU-nun foyesində fakültələr arasında "Xonça" müsabiqəsi keçirilib. Universitetin rektoru, professor Nurlana Əliyeva və prorektorlar tələbələr tərəfindən hazırlanmış xonçalara qiymət verib, hazırladıqları təamlardan dadıb, onlarla yumurta döyüşdürüblər. Bayram tədbirini giriş sözü ilə açan rektor, professor Nurlana Əliyeva Novruzun ölkəmiz və xalqımız üçün tarixi və mədəni əhəmiyyətindən danışıb.

Sonda rektor bayram münasibətilə hər kəsi təbrik edib, sağlam can, bol ruzi, firavanlıq arzulayıb. Tədbir konsert proqramı ilə davam edib. Bayram tədbirində "Xonça" müsabiqəsinin qalibləri professor Nurlana Əliyeva tərəfindən mükafatlandırılıb.



## Azərbaycan Texniki Universitetində

Martın 14-də Azərbaycan Texniki Universitetində təntənəli şəkildə ilaxır çərşənbə ilə əlaqədar şənlik keçirilib.

Şənliyi giriş sözü ilə açan universitetin rektor əvəzi Xalıq Yahudov professor-müəllim heyətini və tələbələri Novruz bayramı münasibəti ilə təbrik edib, ölkədə mühəndis kadrların inkişafından söz açaraq tələbələrə gələcəkdə daha yüksək pillələrdə olmalarını arzulayıb. Təbrik çıxışından sonra Xalıq Yahudov universitetin həyətində Novruz tonqalını alovlandırıb.

Şənlikdə AzTU-nun yaradıcı tələbələri müxtəlif nömrələr nümayiş etdirərək mahnı oxuyub, rəqs ediblər. Kosa, Keçəl, Bahar qızı obrazında şənliyə xoş ovqat gətirən tələbələr universitetin həyətində əsl Novruz ab-havası yaradıblar.

Şənlik AzTU-da təhsil alan xarici tələbələrin böyük marağına səbəb olub. Universitetin nigeriyalı II kurs tələbəsi adət-ənənəyə uyğun olaraq 3 dəfə Novruz tonqalının üzərindən hoppanıb.



## Azərbaycan Dövlət İqtisad Universitetində

UNEC tələbələri Novruz bayramı münasibəti ilə Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən "Əlilliyi olanlar üçün Şağan müalicə pansionatı"nı ziyarət ediblər. Universitetin tələbələrlə iş üzrə prorektoru, dosent Səadət Qəndilova UNEC rəhbərliyi adından pansionat sakinlərini təbrik edib. Novruz bayramının qədim tarixindən, ənənələrindən danışıb, xalqımızın bu el şənliyini daim qeyd etməsindən söhbət açıb.

UNEC-də fəaliyyət göstərən "Əlilliyi olan tələbələr üçün mərkəz" barədə məlumat verən S.Qəndilova universitetdə bu kateqoriayadan olan gənclərə xüsusi diqqətin olduğunu bildirib, onların cəmiyyətə adaptasiyası sahəsində görülən işlərdən, həyata keçirilən layihələrdən, bu məqsədlə mərkəz tərəfindən görülən tədbirlərdən danışıb.

İqtisad Universitetinin professor-müəllim heyətinin də qatıldığı Novruz şənliyində UNEC Yaradıcılıq Mərkəzinin üzvləri mahnılar oxuyub, şeirlər səsləndiriblər.

## Bakı şəhəri 204 nömrəli tam orta məktəbdə

Martın 15-də Bakı şəhəri 204 nömrəli tam orta məktəbdə xalqımızın əziz bayramı Novruza həsr olunmuş "Ətirli Novruz" adlı ingilis dilində ədəbi-bədii tədbir keçirilib. Məktəbin VII "d" sinfinin təşkil etdiyi tədbiri giriş sözü ilə açan direktor Ziba Rzayeva qonaqları və tədbirin digər iştirakçılarını salamlayıb və bayram münasibəti ilə onları təbrik edib. Novruz bayramının xalqımızın həyatındakı rolundan danışan direktor bildirib ki, hər gəlişi ilə yeni, sevimli olan bu müqəddəs bayramımız xalqımızın milli sərvətidir. Bu günlər qədim Odlar Yurdunun bütün bölgələrində Novruz böyük təntənə ilə qeyd edilir, hər addımda bayram əhvali-ruhiyyəsi hiss olunur.

Tədbirdə milli paltarlar geyinmiş şagirdlər Novruz bayramı və bahar fəslini tərənnüm edən şeirlər söyləyiblər. Novruz haqqında ifa olunan mahnıların sədaları altında rəqslər ifa olunub, bayram atributları olan Kosa, Keçəl, Bahar qızın iştirakı ilə səhnəciklər göstərilib.

Sonra şagirdlər arasında ingilis dilində intellektual oyun keçirilib.

Ədəbi-bədii tədbirin sonunda qonaqlar söz alaraq məktəb kollektivini Novruz bayramı münasibətilə təbrik edib, maraqlı çıxışlarına görə məktəblilərə təşəkkürlərini çatdırıblar. Qeyd olunub ki, varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə aparıb. Bu bayram sülh və əmin-amanlığın təmin olunması, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradaraq əsrlər boyu yaşadıb, nəsillərdən-nəsillərə ötürüb.

**Yusif ƏLİYEV**, *"Azərbaycan müəllimi"*

## Bakı Qida Sənayesi Kollecində

Bu günlərdə ilaxır çərşənbə və Novruz bayramı Bakı Qida Sənayesi Kollecində də qeyd edilib. Tədbiri kollecin direktoru Vilayət İsmayılov açaraq bildirib ki, təbiətin, həyatın oyanması Novruzdan başlayır və Azərbaycan xalqı bunu çox təntənəli və bir ay qalmışdan qeyd etməyə başlayır. Belə ki, hər həftənin ikinci günləri su, od, yel və torpaq çərşənbələri qeyd olunur.

Novruz - bir bayram kimi baharın gəlişi münasibəti ilə geniş miqyasda qeyd edilir və sevincli bir hala - qışın qurtarmasına və baharın gəlməsinə həsr olunur. Yeni həyat gətirən, qəlbləri sevindirən, ətrafı gözəlləşdirən, təbiəti oyadan, bayramların ən sevimlisi olan Çərşənbə və Novruz bayramınız mübarək olsun.

Sonra kollecin tədris hissə müdiri Adil Tapdıqov, şöbə müdirləri Mübariz Arzumanov, Nəzakət Atakişiyeva, Sevinc Məmmədova, Aytən Ağayeva və müəllimlərdən Sveta İsgəndərova, Firidun Qurbanov, Sevinc Şərifova kollektivin bütün üzvlərini bayram münasibəti ilə təbrik ediblər.

Bayram tədbirində həmçinin tələbə qruplar üzrə düzəldilmiş "Bayram süfrəsi" müsabiqəsi keçirildi. Bu müsabiqədə münsiflər heyətinin qərarı ilə 614-cü qrupun komandası birinci yerə layiq görüldü. 614-cü qrup tələbələri Könül Məhərrəmli, Aysel Vəlizadə, Şahlar Hüseynov, Nərminə Zeynalova, Aysel Quluzadə, Həyat Mustafayeva və Jalə Pirməmmədovanın böyük əməyi sayəsində əldə olunan qalibiyyət və bu qalibiyyətin sevinci tədbirə xüsusi rəng qatıb.

**Akif KƏRİMLİ**

# Məktəbdə Novruz mövzusunda "açıq dərs"

Martın 14-də Bakı şəhəri 175 nömrəli tam orta məktəbdə "Novruz bayramı" mövzusunda "açıq dərs" keçirilib. İngilis dili müəllimi Gülşən Şiriyevanın VIII "c" sinfində apardığı "açıq dərs"də bütün sagirdlər fəal iştirak edib.

Müəllim uşaqları salamladıqdan sonra lövhədə dərsin standartları, basqa fənlərlə inteqrasiyası, dərsin strategiyası, iş formaları və dərsdə istifadə olunan resursları qeyd edib. Müəllim dərsin motivasiya mərhələsində şagirdlərə bir neçə sual verib, videoçarx nümayiş olunub. Təqdim edilən videoçarxda nə gördüklərini və ona baxarkən nə haqqında düşündüklərini şagirdlərdən soruşub. Dərsin mövzusu açıqlanmazdan əvvəl müəllim uşaqlara bir krossvord həll etdirib. Krossvorddan alınan cavaba əsasən dərsin mövzusu elan edilib. Sonra tədqiqat sualı qoyulub.

1. Nəyə görə biz bayramları qeyd edirik?

2. Novruz bayramı haqqında nə bilirsiniz?

Dərsin məqsədi şagirdlərdə bayramların qeyd olunmasına aid dinləmə-danışma bacarıqlarını inkişaf etdirmək idi. Sonra müəllim sinfi 4 qrupa bölüb.

1."Su" qrupu, 2."Od" qrupu, 3."Külək" qrupu, 4."Torpaq" qrupu.

Qrup liderləri seçilib və tədqiqata başlanılıb. Müəllim Novruz çərşənbələri haqqında bir neçə sual verdikdən sonra qrup üzvləri çərşənbələr haqqında hazırladıqları materialları təqdim ediblər. Sonra şagirdlər müəllimin tapşırığı ilə Novruz adətləri haqqında öz fikirlərini



yazıblar. Müəllim müzakirə üçün suallar verib.

1. Novruz sözünün mənası nədir?

2. Siz Novruzun tarixi haqqında nə bilirsiniz?

3. Bu bayramın xalqımız üçün əhəmiyyəti nədir?

4. Xalqımız bu bayrama necə hazırlaşır? və s.

Ölkəmizdə Novruz bayramının necə qeyd olunmasına aid videoçarx nümayiş olunub. Sonra müəllim uşaqlara Azərbaycan xəritəsini göstərib, Novruz bayramının Qarabağdan başqa Azərbaycanın bütün bölgələrində qeyd olunduğunu vurğulayıb. Vətənimizin dilbər guşəsi olan Qarabağın indi düşmən tapdağı altında olduğunu deyən müəllim hər bir Azərbaycan vətəndaşının ən böyük arzusunun gələn il Novruz bayramını Qarabağda keçirmək olduğunu bildirib.

Şagirdlərdən Ülvi Əliyev və Teymur Süleymanov Novruz atributları Kosa və Keçəlin tamaşasını göstəriblər. Bahar qızları Fatimə Həsənova və Leyla Abdullayeva mahnı ifa ediblər. Yumurta döyüşdürülüb. Papaq atılıb. Küsülülərin barışması adəti göstərilib. "Dəli Kür" filmindən Novruz adətlərinin əks olunduğu parça göstərilib.

Sonra müəllim BİBÖ cədvəlini uşaqlara göstərərək keçdikləri mövzu haqqında nəyi bildiklərini, nəyi bilmək istədiklərini və nəyi öyrəndiklərini qeyd edib. Dərsin nəticə mərhələsində şagirdlər Novruz və Novruz çərşənbələri, adətləri haqqında danışıblar.

Sonda dərsdə daha fəal iştirak edən şagirdlər qiymətləndirilib.

"Açıq dərs"də "Palitra" qəzetinin əməkdası Mahmud Sadıqov, məktəbin direktoru Qələndər Qələndərov, təlim-tərbiyə işləri üzrə direktor müavinləri Tünzalə Həsənova, Vidadi Həmzəyev, Həcər Məmmədova, müəllimlər və valideynlər iştirak ediblər.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*

# Təhsil ocağında Novruza həsr olunmuş ədəbi kompozisiya nümayiş etdirilib



Novruz bayramı özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu bayram xalqımızın tarixi kökü ilə bağlı olduğundan adət-ənənələrlə zəngindir. Martın 16-da Bakıdakı Texniki-Humanitar Liseyində keçirilən Novruz şənliyinin iştirakçısı olan şagirdlər də məhz özünün orijinallığı ilə fərqlənən, qədim ənənələrə söykənərək hazırladıqları musiqili ədəbi kompozisiya ilə orada iştirak edənlərə unudulmaz anlar bəxş etdi. Təhsil müəssisəsinin həyətində təşkil olunan Bahar təravətli Novruz şənliyi adət-ənənələrimizə uyğun olaraq qeyd olunurdu. "Cəngi"nin sədaları altında yallı gedən şagirdlər tədbir iştirakçılarına bir coşqu yaşadaraq bayram ab-havası oyatdılar. Şənliyin aparıcısı olan liseyin müəllimi Nərgiz Verdiyeva qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycan xalqının qoruyub saxladığı Novruz bayramının özünəməxsusluğundan, adət-ənənələrindən danışdı.

Təbii ki, Novruz bayramını Kosasız, Keçəlsiz təsəvvür etmək mümkün deyil. Bayramın əsas atributlarından olan Keçəl və Kosa öz oyunları ilə şənliyə xüsusi ovqat gətirdilər. Onların meydana daxil olması, şagirdlərlə rəqs edib, yumurta döyüşdürmələri hər bir kəsə Novruz əhvali-ruhiyyəsi yaşatdı. Milli geyimlərdə olan şagirdlərdən Mirəli Mirqulamovun, Fidan Əliyevanın, Zeynəb Tofidinin, Mədinə Əsədlinin, Zeynəb Quluzadənin, Şahin İsmayılzadənin və başqalarının ifalarında Novruz, çərşənbələr haqqında şeirlər, rəngarəng musiqi, rəqs nömrələri, həmçinin liseyin VI sinif şagirdlərinin möhtəşəm fləşmobu tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.

Şənliyin diqqətçəkən məqamlarından biri də təhsil ocağının texnologiya müəllimləri Fəridə Hüseynova və Məlahət Hüseynovanın rəhbərliyi altında şagirdlərin kağızdan hazırladıqları bir-birindən gözəl paltarları nümayiş etdirmələri oldu.

Liseyin direktoru Səidə Zeynalova çıxış edərək baharın gəlişinin insanlarda xoş ovqat yaratdığını, Novruzun ümumxalq bir bayram olduğunu söylədi. Bildirildi ki, xalqımız Novruz bayramını qeyd etməklə, həm də öz tarixi keçmişinə, milli dəyərlərinə bağlılığını göstərir. Direktor rəhbərlik etdiyi liseyin müəllim və şagirdlərinin xalqımızın ən qədim milli bayramını böyük coşqu ilə keçirdiklərini söylədi. Uşaqların çıxışlarını yüksək qiymətləndirən S.Zeynalova onların bu hazırlığında Azərbaycan dili və ədəbiyyat müəllimləri Kəmalə İbrahimovanın, Nahidə Qarayevanın, Könül Namazovanın, tarix müəllimi Gülşən Muradzadənin, ingilis dili müəllimi Axirə Salmanovanın, liseyin kitabxana müdiri Rəhilə Ağacanovanın böyük rolu olduğunu deyərək onlara təşəkkürünü bildirdi, hər kəsi Novruzun gəlişi münasibətilə təbrik etdi.

Şənliyin ən həyəcanlı anı isə Novruz tonqalının alovlandırılması oldu. Liseyin həyətində çatılmış tonqalın ətrafında şagirdlər, müəllim kollektivi, valideynlər Keçəl, Kosa, Bahar qızı ilə birgə yallı getdilər.

**Samirə KƏRİMOVA,**
**Foto Rəşad ZİYADOVUNDUR**
*"Azərbaycan müəllimi"*

# Azərbaycan Dövlət Pedaqoji Kollecində "Fərqli Sən" müsabiqəsi



Martın 16-da ADPU-nin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Novruz bayramına həsr olunmuş "Fərqli Sən" istedad müsabiqəsi təşkil olunmuşdur.

Müsabiqədə istedadlı tələbələrin təqdimatında bir-birindən maraqlı nömrələr nümayiş olundu. Tələbələr arasında rəqs, bədii qiraət, ifaçılıq, saz ifası və s. üzrə istedadlar öz bacarıqlarını kollecin müəllim və tələbə heyətinə nümayiş etdirdilər. Yarışmada 4 münsif tələbələrin çıxışlarını dəyərləndirdi. Münsiflərdən türk müğənnisi Murad Ərdoğan, əməkdar artist Sevda Kazımova, əməkdar artist Almaz Mustafayeva, "Qismət" qrupunun rəhbəri Tural bəy iştirak etdilər.

Tədbirin açılışını bayram personajları olan Kosa və Keçəl etdi. Sonra gözəl cəngi rəqsi ilə müsabiqəyə keçid verildi. Aparıcı hər kəsə bayram əhvali-ruhiyyəsi bəxş edərək münsiflərin çıxışına yer ayırdı.

Növbə nömrələrini təqdim etmək üçün kollec tələbələrinə verildi. Münsiflər 15 dəqiqəlik fasilə verərək qalibləri müəyyənləşdirdilər. I, II, III yerlər ən istedadlı tələbələr arasında bölüşdürüldü. I yerin qalibi 4at qrup tələbəsi Natiq Binyatov, II yerlərin qalibi 585-ci qrup tələbəsi Hüsniyyə Cavadova və 4tra qrup tələbəsi Bəhram İbrahimov, III yerin qalibi 3am qrup tələbəsi Lamiyə Xəlilova oldu.

İstedadları ədalətlə qalib edən münsiflər hətta 2-ci yeri iki tələbə arasında paylaşdırdı.

Qalib tələbələrə İB-clubdan odənişsiz kurslar, Kreativ Travel-dən tur paketləri və diplomlar təqdim olundu.

Müsabiqənin ideya müəllifi və təşkilatçısı rejissor Röyal Cəbiyev idi.

Yarışmadan sonra tələbələrin əyləncəsi üçün şərait yaradıldı.

## Novruz gəlir, yaz gəlir

Bakı şəhəri 64 nömrəli tam orta məktəbin şagird kollektivi də bu il "Yeni gün"ü - Novruzu xüsusi hazırlıqlarla qarşılayıb. Bayram şənliyində Xətai Rayon İcra Hakimiyyətindən nümayəndələr, məktəb direktorları, KİV təmsilçiləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə foyedə Bahar qızının təqdimatı ilə yazın gəlişini əks etdirən rəsm sərgisi nümayiş olunub. Sərgi ilə tanışlıq skripkada ifa edən üç istedadlı şagirdin müşayiəti ilə olub. Sonra qonaqları məktəbin xor kollektivi, saz və tarda ifa edən şagirdlər qarşılayıblar. Onlar qonaqların zövqünü oxşayan mahnılar səsləndiriblər. Azərbaycanın adını beynəlxalq idman yarışlarında yüksəldən iki güləşçi şagird öz məharətlərini nümayiş etdirib. Bir tərəfdə milli mətbəximizin və Novruzun atributları olan şəkərbura və paxlavanın hazırlanması ilə məşğul olan qızlar, digər tərəfdə isə simvolik tonqaldan atlanan şagirdlər qonaqların diqqətini cəlb edib.

Məktəbin akt zalında şagirdlərin hazırladığı tədbir milli adət-ənənələrimizi özündə əks etdirib, keçmiş və bu günü vəhdətdə səsləndirib. Milli rəqsimizlə başlayan tədbir sazda iki şagirdin ifası ilə davam edib. Milli nemətimiz sayılan çayın verdiyi zövqü kiçik bir səhnəciklə şagirdlər qonaqlara təqdim ediblər. Tədbirin ən təsiredici səhnəsi Bahar qızının ağlaya-ağlaya gözəl, qədim, qəlbimizin bir parçası olan Şuşamızı və Qarabağımızı xatırlatması olub. Bu an müdrik Dədə Qorqudun səhnəyə gəlişi və Qarabağımızın tarixini yada salması iştirakçıları riqqətə gətirib.

Sonda məktəbin direktoru Rafael Mehdiyev tədbir iştirakçılarını Novruz bayramı münasibəti ilə təbrik edib. O, Novruz bayramının qeyd olunmağa başladığı tarixdən danışıb və bu adət-ənənələri öz övladlarına öyrədən valideynlərə və müəllimlərə təşəkkürünü bildirib.

**Rəşad ZİYADOV,** *"Azərbaycan müəllimi"*

## "Bahar necə yaraşır Azərbaycana"

Barlı-bəhrəli, xonçalı-səmənili Bahar yurdumuza qədəm qoyur. Azərbaycanın hər yerində olduğu kimi, Lerik rayonundakı Daster kənd məktəbində də bu çiçək qoxulu gün böyük sevinclə, fərəhlə qarşılanır. Bir həftədən çoxdur ki, müəllimlər, şagirdlər dərsdən sonra məktəbin həyətində təmizlik, abadlıq işləri görür, meyvə ağacları, gül kolları əkirlər.

Çərşənbə günü isə yazın gəlişinə həsr olunan "Bahar necə yaraşır Azərbaycana" adlı bayram tədbiri keçirildi. Aparıcı, məktəbin müəllimi Tural Əliyev dahi şairimiz Səməd Vurğunun "Bahar" şeirini ifa etdikdən sonra sözü məktəbin direktoru Zöhrab Şəfiyevə verdi. Direktor Novruz bayramı münasibətilə tədbir iştirakçılarını təbrik etdi. Müəllimlərdən Rəfael Hüseynov, Elşad Həsənov, Şəlalə Hümbətova, qonaq kimi tədbirə dəvət olunmuş Böyük Vətən müharibəsi veteranı Cəbrayıl Babayev öz çıxışlarında qədim tarixi köklərə malik olan, xalqımızın milli bayramları sırasında özəl yer tutan Novruz ənənələrindən danışdılar və onun insanları birliyə, bolluğa, xoş ovqata səsləyən gün olduğunu bildirdilər. Məktəbin şagirdləri Aynur Dadaşovanın, Simran Rəsulovun, Elvin Babayevin, Kamala Fərziyevanın, İsmayıl Vəliyevin hazırladığı "Bu yaz bir başqa yazdır" mövzusunda ədəbi-bədii kompozisiya tədbirə xüsusi rövnəq verdi. Şagirdlər Novruz bayramına, bahara aid şeirlər söylədilər, "Kosa-Kosa" mərasimini təqdim etdilər.

**Zəfər ORUCOĞLU,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Novruz mərasimində Kosa və Keçəlin unudulmuş arxaik funksiyaları

Son dövrlərdə bəzi KİV və TV kanallarında ilaxır çərşənbə və Novruz bayramı günlərində baharın gəlişi münasibətilə oynanılan qışın ölümü və yazın gəlişini, təbiətin oyanışını şən bir biçimdə canlandıran "Kosa-kosa" meydan tamaşasının qəhrəmanları Kosa və Keçəl obrazları, onların funksiyaları haqqında düzgün olmayan fikirlər səslənir. Bəzən isə bu obrazların tamamilə bahar bayramının əsas atribut və simvolları sırasından çıxarılması təklifi də verilir. Fikrimizcə, bu cür yanlış fikir və təkliflərin səslənməsi kosa və keçəlin daşıdığı funksiyaların dərk edilməməsi ilə bağlıdır.

Dini-mifoloji, arxaik mifopoetik ənənədə Novruz bayramı sakral sferaya maksimum dərəcədə bağlılığı ilə seçilən zaman kəsimidir. Arxaik ritual semantikası və dəyəri ilə seçilən bayram zamanının başlıca əlaməti onun sakrallığıdır. Bir sıra bayramlar görünüşdə dini məzmun daşımasalar belə, mənşə etibarilə sakral-dini olandan gəlməkdədir. Bayram öz strukturu ilə kosmosun xaosdan əmələ gəldiyi situasiyanın sərhədlərini müəyyən edir. Sakral zamanlarda keçirilən bayramlarda ilkin çağa qayıdılaraq mifik zamanın yenidən canlandırıldığı düşünülmüşdür. Novruz bayramı ilə bağlı ilk bayram gecəsi hər şeyin bir anlığa dayandığına dair inanc köhnə zamanın-xaosun bitib, yeni zamanın "başlanğıcı" olan zamanı - kosmosun yaranmasını mənalandırır. Həmin "başlanğıc"da - xaosdan kosmosun yaradılışı anında olan situasiyadır ki, bayram vaxtı bir daha təkrarlanaraq aktuallaşır (Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003).

Novruz bayramının ab-havası daxili sərbəstlik və azadlığın sayəsində yaranır. Bayram zamanı kəskin şəkildə birlik və sosial həmrəylik hissləri yaranır, emosional gərginlik aradan götürülür. Novruz xalq kütlələri tərəfindən "idealdan doğan" bayram kimi keçirilir. Ciddilik tanımayan xalq bayramı gülüş üstündə bərqərar olur. Gülüşü doğum və həyat mənbəyi sayan xalq komik folklor nümunələrinin məzmununu da məhz həmin baxış üzərində qurur.

Xalq gülüşünün "hamı gülür və hamıya gülürlər" xüsusiyyəti karnavalla əlaqəlidir. Karnaval üçün səciyyəvi sayılan bu gülüş tipini Novruz mərasim şənliklərində də görmək olar. Novruz bayram şənliklərində "Kosa-kosa" kimi meydan tamaşaları səhnədə deyil, küçə və meydanlarda oynanılır. Meydan tamaşalarının bu xüsusiyyətinə diqqət yetirən Ə.Sultanlı yazırdı: "Meydança həm səhnə, həm də amfiteatr idi, hətta burada səhnəni andıracaq xüsusi tikiliş və yaxud bir hissə yox idi... Əhali həqiqi mənada passiv tamaşaçı deyildi, bəlkə tamaşanın bütün gedişində iştirak edirdi. Başqa sözlə, oyunbaz ilə tamaşaçı arasında rəsmi bir hüdud yox idi. Oyunbaz tamaşaçılara sual verir və cavab tələb edirdi, oyunun məzmunca inkişafı bu cavablardan asılı idi. Onsuz da tamaşanın əsas məzmununu qabaqcadan bilən əhali oyunbazın sualına arzu edilən cavabı verirdi. Beləliklə, tamaşa daha canlı, daha həyati, daha real bir şəkil alırdı". Novruz bayram şənliklərində keçirilən meydan tamaşalarında hamı ifaçı və tamaşaçıya çevrilir, hamı deyib-gülür, zarafatlaşır və oynayır.

Qışın ölümü və yazın gəlişini gülməli şəkildə canlandıran "Kosa-kosa" meydan tamaşasında cəmiyyətin bütün sosial təbəqələri tənqid hədəfinə çevrilirdi. Özlərini tənqid hədəfləri sıralarından ayırmayan Kosa və Keçəl başlarına gələn əhvalatları danışdıqca öz eyiblərini açır, tamaşanı seyr edən izləyiciləri özünün "səfeh" hərəkətlərinə güldürürdü. Fikrimizcə, köhnə ilin tamam olub yeni ilin başlanması zamanı oynanılan "Kosa-kosa" tamaşası təbiətə təsir göstərmək, torpağı barlı-bərəkətli, məhsuldar etmək məqsədi güdür. Folklorda ritual gülüş həyatvericiliyi, doğuluşu rəmzləndirir.

"Kosa-kosa" mərasimi və bu mərasimdəki Kosa obrazı təbiətin təzələnməsi və ölüb-dirilmə mifologemi çevrəsində təşəkkül tapır. Çoxvariantlı tamaşa olan "Kosa-kosa" ayrı-ayrı bölgələrimizdə şəraitə uyğun olaraq göstərilir. Bir nəfər zirək, hazırcavab və rəqs eləməyi bacaran bir uşağın əyninə tərsinə çevrilmiş kürk geyindirər, üzünə kağızdan düzəldilmiş üzlük taxar, başına uzun şiş papaq qoyar, belinə zınqrovlu kəmər bağlayar, boynundan da zınqrov asardılar. Tədqiqatçılar haqlı olaraq Kosanın geyimində, qurşağa və boynuna düzdüyü zınqrovlarda, başa geydiyi şiş papaqda və s.-də qam-şaman geyiminin rəmzlərini görmüşlər. İnanca görə, kosa birinci dəfə kimin həyətinə girsəymiş, həmin il o evin içinə, həyət-bacasına xeyir-bərəkət gəlirmiş. Ona görə də evlərə gələn Kosa oyunçularına ev sahibləri çörəkdən, yağdan-undan, puldan-paradan hədiyyə edərdi. Beləcə, oyunçular kəndin bütün evlərini bir-bir gəzərdilər. Bütün kənd camaatı buna sevinər, deyər-gülərdi. Kosanın burada icra etdiyi funksiya ilə ibtidai çağ mərasimlərindəki sehrkar, ovsunçu və ya din xadiminin yerinə yetirdiyi funksiyalar arasında bir uyğunluq vardır (Bəydili C. (Məmmədov). Türk mifoloji obrazlar sistemi: Struktur və funksiya (monoqrafiya). Bakı, "Mütərcim", 2007).

Kosanın birinci gəldiyi evə xeyir-bərəkət gətirməsi əslində onun bolluq, artım, məhsuldarlıqla bağlı mifoloji təsəvvürlərdən qaynaqlandığını göstərir.

Azərbaycan xalq teatrı tarixinə dair araşdırmalarda artım ideyası ilə bağlılıqda bu mərasim tamaşası ilə əlaqəli qiymətli etnoqrafik detala rast gəlinir; xalq arasında yaşamaqda olan əqidəyə görə, guya uşağı olmayan bir kəs Kosa rolunda çıxış etsəymiş, onun oğlu olarmış (Allahverdiyev M.Q. Azərbaycan xalq teatrı. Bakı: Maarif, 1978). Bu etiqad mifoloji simvolikasına görə Umaya tapınanın oğlu olacağı əski inamı ilə səsləşir. Kosanı oynayanın bəxtinin açılacağı inamı da artım ideyasından gələn eyni bir kökə bağlıdır. Gülməli sözlər deyə-deyə meydan dolaşan Kosanın zarafatlar eləməsi, tamaşanı seyr edənlərin gülüb uğunması belə artım ideyası ilə əlaqədardır. Mifoloji ənənədə hər yeni həyat nişanı gülüş motivi ilə müşayiət olunur. Deməli, buradakı gülüş ritual məna daşıyır.

Kosanın kürkü tərsinə geyməsi, eybəcər və çirkin olması və s. gülüş doğurmaq üçün uydurulan zahiri qüsur deyil, əksinə onun sakral dünyaya məxsusluğundan xəbər verir.

Əski bayramlardan qalma və elliklə oynanılan bütün kütləvi tamaşa və oyunlar dirilik, bolluq və bərəkəti rəmzləndirir. Simvolik olaraq Kosa adı ilə bağlanan tamaşa və oyunlar köhnə ilin qovulması, yeni ilin gəlişiylə bağlanılır. Kosanın artım, bərəkət ideyası ilə əlaqəsi Həmədanda icra olunan oyun zamanı "Kosa gəldi" sözlərinə "Xoş gəldi" deyiləndən sonra "Nə gətirdi?" sualına "Bərəkət" cavab verməsi ilə təsdiqlənir

Quzey İraqdakı Kosa oyununa toxunan türk tədqiqatçısı M.And bunun eyni zamanda bir ölüb-dirilmə oyunu olduğunu vurğulayır.

Xalq inanır ki, uşağı olmayan hər hansı bir kişi kosa libası geysə, həmin kişinin övladı olar, yaxud kosa hansı həyətə, evə birinci girsə, o ev ruzili-bərəkətli olar.

Çoxmənalı mahiyyət daşıyan xalq gülüşündə ölümlə həyat, inkarla təsdiq iç-içədir. "Kosa-kosa" tamaşasında kosaya müraciətlə belə deyilir:

*Kosama əl vurmayın,*
*Kosam ikicanlıdır...*
*Yüz əlli beş yaşında*
*Lap, lap cavandı kosam!*

AMEA-nin müxbir üzvü, professor M.Kazımoğlu verilmiş nümunəyə toxunaraq bildirir ki, yüz əlli beş yaşlı kosanın ikicanlı və cavan olması xalq gülüşünün məğzindəki ölüm-həyat, köhnə-yeni münasibətindən xəbər verir. Buradakı gülüş ölümə yox, ölüm anında yenidən doğana və doğulana doğru yönəlir. Ölüm və həyat eyni bir obrazda, yəni kosada birləşir. Hamiləlik və cavanlıq yüz əlli beş yaşlı qocalığa, yəni həyat ölümə qarşı dursa da, onlar ayrılmazdır, çünki eyni bətndədirlər (Kazımoğlu (İmanov) M.Gülüşün arxaik kökləri. Bakı: Elm, 2005).

Ə.Axundovun tərtib etdiyi "Azərbaycan folkloru antologiyası" kitabının birinci cildində Kosanın bolluq, artım və məhsuldarlıqla bağlı olması "Kosa-kosa" tamaşasının aşağıdakı örnəyindən aydın olur:

*...Kosam bir oyun eylər*
*Quzunu qoyun eylər,*
*Yığar bayram xonçası*
*Hər yerdə düyün eylər.*

Kosa kimi keçəl də qeyri-adi mənşəli bir obrazdır. Türk xalqları folklorunda ironik qəhrəman obrazı olan Keçəl əsas qəhrəmanın yardımçısı kimi özünü göstərir, çoxbilmiş olmaqla yanaşı hiyləgərlik səciyyəsini də daşıyır. Bir qisim nağıllarda qəhrəmanın özünün keçələ çevrilərək o biri dünyaya getməsi araşdırıcıları Keçəl obrazının da qəhrəman obrazından yarandığı qənaətinə gətirmişdir. Bəzi tədqiqatçılar keçəlliyin kökünü inisiasiya məqsədilə baş verən dəyişmədə, bəziləri isə magik qorunmada axtarır.

Nağıl və dastanlarda qəhrəmanın köməkçisi yerində çıxış edən keçəl surəti şamanizmdə qam-şamanın hami ruhları ilə eyni bir funksiyanı yerinə yetirir. Sehrli nağıllarda köməkçi kimi keçəllik atributunu təkcə insan deyil, həm də şamanın köməkçi ruhları daşıyır. Folklorşünas M.Kazımoğlu keçəlin qeyri-adi mənşəyinin təzahür formalarından birini bu obrazın qızıl-gümüş saçlı qəhrəmanlarla əlaqəsində axtarmağın zəruriliyini qeyd edir.

Türk mifoloji düşüncəsində demonik varlıqların keçəl olmaları həmin varlıqların o biri dünyaya məxsus olduqlarının bir göstəricisidir. O biri dünyaya yollanan qəhrəmanlar həmin yeraltı dünyanın atributunu qəbul eləyir, yəni keçələ çevrilirlər. B. Ögəlin fikrincə, atları ilə keçəl cildinə girən nağıl və dastan qəhrəmanları bu yolla ilahi güc almış olurlar. Qəhrəmanlar göydəki savaşlarda güc tapmaq üçün keçəl olur və həmin güclə dünyalar arasındakı sədləri adlaya bilirlər (Ögel B. Türk mitolojisi. (Kaynakları ve açıklamaları ile destanlar). II cilt. Ankara: Türk Tarih Kurumu Basımevi, 1995, s.76-79).

Başda tükün olmaması dünyaya gəlişin, doğuluşun əlaməti sayılır. Müvəqqəti ölüm kimi rəmzləndirən inisiasiya mərasimlərində saçın qırxılmağı "ölüm"ünün ardından neofitin sanki "yenidən doğulmağı" kimi mənalandırılır. Burada gülüş, keçəllik və doğulma aktı ilkin arxaik anlamdakı eyniyyyət təşkil edən simvolikası ilə özünü göstərir. "Kosa-kosa" meydan tamaşasında oxunan nəğmə örnəklərindən aydın olur ki, keçəl də dirilik, artım, bolluq və məhsuldarlıqla bağlıdır:

*...Keçəl, keçəl, mərəndə,*
*Arpa, buğda sərəndə...*
*Bir arpanı beş eylər,*
*Yeddi qazan aş eylər.*

Kosa və keçəlin bolluq, bərəkət, artım, məhsuldarlıq və s. funksiyaları daşıması onların sakral dünyaya, yəni o biri dünyaya məxsusluqlarından xəbər verir. Bu funksiyaların müəyyənləşdirilməsi həmin obrazlarla bağlı mülahizəyə, yəni keçinin yaz, Kosa və Keçəlin isə qışı təmsil etməsi fikrinə yenidən baxmaq zərurətini yaradır. Folklorünas M.Kazımoğlunun fikirlərinə şərik olaraq bildiririk ki, Kosa məhz qış, yəni qocalıq libası geymiş yazdır-cavanlıqdır. Belə olmasaydı, tamaşada Kosanın artım, məhsuldarlıq funksiyasına işarə edilməzdi. Deməli, zahiri görünüşcə, eybəcər, çirkin, keçəl olan bu obrazlar zəifliyi, acizliyi, qıtlığı, qışı, qocalığı deyil, gücü, qüdrəti, yazı, gəncliyi, məhsuldarlığı, bolluğu rəmzləndirir.

**Məhəmməd MƏMMƏDOV,**
*Bakı Dövlət Universitetinin dosenti*

# Öyrətməyi öyrədirik

Cari ilin yanvar ayından etibarən Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda yeni "Refleksiv müəllim" layihəsinə start verilmişdir. "Öyrətməyi öyrədirik" devizi altında həyata keçirilən layihənin iş prinsipi çox sadədir: könüllü müəllimlər özlərinin uğurlu saydıqları dərslərin planını, icmalını və ya qısa videogörüntüsünü başqa müəllimlərə təqdim edir, dərs barədə məlumat verir, sonra isə suallar və şərhlər vasitəsilə həmin dərsin müzakirəsi aparılır. "Niyə bu formada" sualına belə cavab veririk ki, illər ərzində müəllimlərimizlə aparılmış yüzlərlə təlimin ən səmərəli hissəsinin məhz real dərs icmalının müzakirəsi prosesi olduğunu yəqin etmişik. Müəllim özünün dərsi üzərində fikirləşəndə isə səmərə birə-beş qat artır. Necə deyərlər, "yüz dəfə eşitməkdənsə, bir dəfə görmək" effekti işləyir.

Layihənin keçirilməsində bir neçə məqsəd güdürük:

- Məktəb metodbirləşmələrinə konstruktiv dərs müzakirələrinin modelini təqdim edirik;
- Nəticəyə aparan refleksiv suallar qoymağı öyrənirik və öyrədirik.
- Müəllimlər arasında buzqıran effekti yaratmaqla şəbəkələşmə, birlikdə hazırlanmış uğurlu dərs icmallarından yararlanma təcrübəsi yaradırıq;
- Müəllimlərə hazırladıqları dərsə müxtəlif rakurslardan baxmaq, konstruktiv tənqidə açıq olmaq, prosesi təhlil etmək bacarıqları aşılayırıq;
- İstənilən dərsi daha da uğurlu etmək imkanlarının sonsuz olduğunu, ideal dərs anlayışının nisbi olduğunu nümayiş etdiririk.

Zənnimizcə, son illərin ən ağrılı pedaqoji problemi məntiqsiz dərslərdir. Məntiqsiz dərs deyərkən aşağıdakıları nəzərdə tuturuq:

- müəllim məzmun standartlarını şərh etməkdə çətinlik çəkir, standartla mövzu arasında əlaqəni görmür və ya səthi görür;
- seçilmiş iş üsulları və iş formaları ya bir-birini təkrar edir, ya təkzib edir, ya da məzmuna uyğun olmur;
- müəllim iş üsulları və iş formalarını ya qeyri-adilik, ya da asanlıq nöqteyi-nəzərindən seçir;
- dərsin mərhələləri bir-birini əvəz edərkən irəliyə addım deyil, xaotik hərəkət baş verir;
- şagirdlərə verilən tapşırıqlar öyrənilən materialı əks etdirmir, öyrədilənləri ölçməyə imkan vermir;
- dərs daha çox şou effekti üçün hazırlanır – dərsdə real öyrənmə prosesi getmir; ən yaxşı halda məlumat axını baş verir, şagirdlərin hafizəsi ilə iş aparılır;
- qrup işləri üçün nəzərdə tutulan tapşırıqlar qrup işi konsepsiyasına uyğun gəlmir;
- dərsin qiymətləndirilməsi qeyri-adekvat aparılır;
- 7 mərhələli interaktiv dərs modeli düşünülmədən bütün fənlərdə və mövzularda tətbiq edilir;
- Hərdən müəllim bütün mərhələləri əhatə etmək istəyi ilə dərsi qaçaqaçda başa vurur (nəticədə şagirdlər öyrənmə prosesindən aralanır).

Son bəndi daha geniş şərh etmək zərurəti hiss edirik. Elə mövzular ola bilər ki, müəllim bütün dərs vaxtını "Tədqiqatın aparılması" mərhələsinə sərf edə bilər, sonrakı günlərdə isə həmin mövzu üzrə növbəti öyrənmə mərhələlərini təşkil edər. Əsas odur ki, müəllim təbii öyrənmə prosesini süni şəkildə nə uzatsın, nə də qısaltsın. Məsələn, əgər tarix dərsində qoyulmuş mövzu ətrafında şagirdlər qızğın diskussiyaya qoşulubsa, müəllim "vaxtımız qurtarır, növbəti mərhələyə keçməliyik" deyib, təbii öyrənməni dayandırmamalıdır. Elə mövzular var ki, onları dərindən və daha uzun zaman öyrənmək lazımdır. Belə mövzuları öyrənərkən yaranan səriştələr sonradan şagirdlərə digər mövzuları daha tez və sərbəst öyrənmək imkanı yaradar. Ümumiyyətlə, "Dərs = 45 dəqiqə" yanaşması artıq özünü doğrultmur (burada "dərs" sözü "dərs almaq", "öyrənmək" mənasında işlənir). Hərdən olur ki, müəyyən səriştənin formalaşması üçün bir neçə 45 dəqiqəlik dərs və sərbəst öyrənmə vaxtı lazım gəlir. Bəzən isə 45 dəqiqəlik dərsin kiçik bir hissəsi şagirdlərdə güclü şüur genişlənməsinə səbəb olur. Refleksiya etməyi bacaran müəllim bütün bu nüansları hiss edir və öyrənmə prosesini daha sərrast idarə edir.

Beləliklə, bizim layihədə iştirak edən müəllimlər real dərs icmalları üzərində nəyin necə işlədiyini öyrənirlər. Artıq ibtidai sinif müəllimlərindən ibarət iki qrup (hər biri ayrı-ayrılıqda) dərs müzakirəsində iştirak edib. Qızğın mübahisələr, hərdən emosional çıxışlar da olub. Müzakirələrin konstruktiv məcrada və ziyalı mühitində keçməsini təmin etmək məqsədilə xüsusi qaydalar tətbiq olunur:

- Müzakirə mövzusu müəllim deyil, onun hazırladığı dərsdir;
- Dərs icmalı təqdim edilərkən suallar və şərhlər verilmir;
- Suallar icmal dinlənildikdən sonra verilir: sual konkret olmalı, şərh xarakteri daşımamalıdır;
- Sonra dərs haqqında şərhlər dinlənilir (hər şərh 1 dəqiqə ərzində verilməlidir, bu məsələyə vaxta nəzarət edən şəxs cavabdehdir, vaxt tamam olanda o, xüsusi siqnal verir);
- Təkliflər verilir (hər təklif 1 dəqiqə ərzində verilməlidir);
- Təkliflər və müzakirə əsasında dərsin daha təkmil və səmərəli forması hazırlanır (indi bu dərs icmalından hamı istifadə edə bilər);
- Həm dərsi təqdim edən şəxs, həm də bir neçə nəfər könüllü müzakirə zamanı öyrəndikləri barədə danışır (Bu, prosesin dəyərli hissəsidir. Müzakirədən çıxan müəllim müzakirəyə qoşulduğu andan bəri nə qədər inkişaf etdiyini özü üçün kəşf edir).

Biz addım-addım müəllimlərimizdə pedaqoji refleksiya bacarıqlarının formalaşdırılması üzərində işləyirik. Bəs pedaqoji refleksiya olmayanda nə baş verir?

- Müəllim özünümüdafiə taktikası seçir;
- Onun üçün başqalarının nəzər nöqtəsini qəbul etmək çətin olur;
- Stereotip təfəkkür güclü olur.

İlk iki müzakirəmizin qazancı müəllimlərimizi özünümüdafiə taktikasından uzaqlaşdırmaq, başqalarına qulaq asmaq, öz əməyinə tənqidi nəzərlərlə baxmaq mədəniyyəti formalaşdırmaqdan ibarətdir.

İbtidai sinif müəllimləri ilə işi bu təqvim ilində mütəmadi davam etdirməyi düşünürük. Digər fənn müəllimləri qrup şəklində maraq göstərdiyi təqdirdə onlar üçün də "Refleksiv müəllim" seminarları təşkil ediləcəkdir. Bunun üçün TİPİİ-nin elektron səhifəsindəki müvafiq qeydiyyatdan keçmək kifayətdir. İlin sonunda 3 nəfər müəllimi "Refleksiv müəllim" sertifikatı ilə təltif etməyi planlaşdırırıq.

Sonda layihənin adı barədə. Hərdən mütəxəssislər sual verir ki, "Nə üçün layihəni "ReflekTiv müəllim" deyil, "ReflekSiv müəllim" adlandırmısınız?". Ad üzərində fikirləşərkən "ReflekTiv müəllim" variantına da baxmışdıq. Araşdırarkən məlum oldu ki, məsələn, rus mənbələri "refleksiv" və "reflektiv" sözlərini eyni tezliklə istifadə edir və bu sözlər arasında fərq qoymur. Bizim üçün çıxış nöqtəsi "reflekSiya" sözü olduğunda, "ReflekSiv müəllim" ifadəsindən istifadə etməyi qərara aldıq. İstənilən halda layihəmizin adından asılı olmayaraq onun məzmununun Azərbaycan müəlliminin peşəkar inkişafına dəstək olacağına əminik. "The Economist" jurnalının təbirincə desək, "Xoşbəxtlikdən, öyrətməyi öyrətmək mümkündür".

**Vəfa YAQUBLU,**
*Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor əvəzi, əməkdar müəllim*

## Mingəçevir Dövlət Universitetinin kollektivi iməcilikdə

Mingəçevir Dövlət Universitetinin pedaqoji və tələbə heyəti yaz fəslinin gəlişi ilə bağlı keçirilən iməcilikdə iştirak ediblər.

Mingəçevirin ekoloji mühitinin yaxşılaşdırılması və şəhərin daha da gözəlləşdirilməsinə xidmət edən iməcilikdə 100-ə yaxın ağac və dekorativ gül kolları əkilib. Ərazi məişət tullantılarından təmizlənib, alaq otları götürülüb, mövcud yaşıllıqlar suvarılıb. Universitetin ərazisi boyunca ağacların dibi bellənib, gövdələri rənglənib, bəziləri budanıb, torpaq sahələri əkilib, ərazi süpürülüb təmizlənib, səliqə-sahman yaradılıb.

*Mətbuat xidməti*

# Paytaxt təhsilində yeniliklər

## I sinfə şagird qəbuluna start verilib



Martın 15-də 2017-2018-ci tədris ili üçün elektron sistem vasitəsilə Bakı şəhərinin ümumi təhsil məktəblərinin və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalarının I sinfinə şagird qəbuluna start verilib.

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə tətbiq olunan elektron sistem vasitəsilə I sinfə şagird qəbulu BŞTİ tərəfindən ərizələrin onlayn qeydiyyatı vasitəsilə həyata keçirilir.

Təhsil nazirinin müvafiq əmrinə əsasən, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinə I sinfə şagird qəbulu valideynin (qanuni nümayəndənin) elektron ərizəsinin mektebeqebul.edu.az saytında qeydiyyatı yolu ilə həyata keçirilir. 15 mart-15 sentyabr 2017-ci il tarixlərini əhatə edən elektron ərizənin qeydiyyatı prosesində valideynlər məktəbi, təlim dilini və müəllimi seçməlidirlər. Hər hansı səbəbdən özü elektron qeydiyyatdan keçə bilməyən şəxslər Bakı şəhərinin hər inzibati rayonunda I sinfə elektron sistem vasitəsilə ərizələrin qeydiyyatı məsələlərində vətəndaşlara kömək məqsədilə 50 məktəbdə yaradılmış Alternativ Qeydiyyat Mərkəzlərinə müraciət edə bilərlər.

Həmçinin, I sinfə şagird qəbulu prosesində valideynlərlə (qanuni nümayəndələrlə) qeydiyyat və sənəd qəbulu üzrə yarana biləcək mübahisəli məsələlərin həlli məqsədilə Bakı şəhəri üzrə 6 ümumi təhsil müəssisəsində Apelyasiya Komissiyaları təşkil olunub.

Qeyd edək ki, ümumi təhsil məktəbinin I sinfinə 2017-ci il sentyabrın 15-nə kimi 6 yaşı tamam olan, fiziki və əqli cəhətdən normal inkişaf etmiş, eləcə də Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada xüsusi istedadlı uşaqların vaxtından əvvəl I sinfə qəbulu üzrə müsahibədən uğurla keçmiş 16.09.2011-ci il tarixindən 31.12.2011-ci il tarixinədək olan dövrdə anadan olan və dövlət ümumi təhsil müəssisələrində ödənişsiz məktəbəhazırlıq qrupunu bitirmiş uşaqlar qəbul edilir.

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 287 nömrəli "Zəkalar" liseyi, eləcə də 160 nömrəli Klassik Gimnaziyada 2017-2018-ci dərs ili üçün birinci sinfə, ilk növbədə həmin ümumi təhsil müəssisələrinin müəyyən edilmiş mikroərazisində yaşayan vətəndaşların ərizələrinin qeydiyyatı aparılır. Digər ərazilərdə yaşayan valideynlərin (qanuni nümayəndələrin) uşaqları qeyd olunan ümumi təhsil müəssisələrinə yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçə bilərlər.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən mektebeqebul.edu.az saytının istifadəçiləri üçün 2017-2018-ci tədris ilində elektron sistem vasitəsilə uşaqların I sinfə şagird qəbulu barədə videotəlimat hazırlanıb.

Eyni zamanda, vətəndaşları düşündürən məsələlərə daha geniş aydınlıq gətirmək üçün BŞTİ-nin rəsmi "Facebook" səhifəsində 15-17 mart 2017-ci il tarixlərində I sinfə qəbulla bağlı suallara cavab verilib.

***

Elektron sistem vasitəsilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərinin və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I sinfinə qəbulla bağlı 17.03.2017-ci il (saat 18:00) tarixinə olan məlumata əsasən, 13877 nəfər valideyn sorğu yerləşdirib. Onlardan 12259 nəfəri övladlarının təhsil alması üçün ümumi təhsil məktəblərini, 1618 nəfəri isə lisey və gimnaziyaları seçib.

2017-2018-ci tədris ili üçün Bakı şəhərinin ümumi təhsil məktəblərinin və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I sinfinə şagird qəbulu prosesi 15 mart - 15 sentyabr 2017-ci il tarixlərini əhatə edir.

## "İslam Həmrəyliyi ili"nə həsr olunmuş səyyar mühazirələr



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil məktəblərində "İslam Həmrəyliyi ili"nə həsr olunmuş səyyar mühazirələr davam edir.

Səyyar mühazirələr Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən imzalanmış "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafi, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq təşkil edilir.

"İslam Həmrəyliyi İli" çərçivəsində "Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi", "Azərbaycan cəmiyyətində "İslam həmrəyliyi", "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə metodu kimi", "Milli-mənəvi dəyərlər və gənclik", "İslam Həmrəyliyinin Azərbaycan modeli", "Dünyəvi dövlətdə multikultural və tolerant dəyərlərin vəhdəti", "Milli-mənəvi dəyərlərimiz və İslam", "Dünyəvi dövlətdə İslam və milli birlik" mövzularında keçirilən mühazirələrdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin nümayəndələri, rayon icra hakimiyyətləri və rayon polis idarələrinin əməkdaşları, tərbiyə işləri üzrə direktor müavinləri (təşkilatçılar), uşaq birliyi rəhbərləri, psixoloqlar, valideyn icmasının nümayəndələri və IX-XI sinif şagirdləri iştirak ediblər.

Tədbirlərdə çıxış edənlər ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının Azərbaycanın İslam dünyasındakı nüfuzundan və hörmətindən qaynaqlandığını və IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsinin böyük tarixi əhəmiyyətə malik olduğunu qeyd ediblər.

Mühazirələrdə gənclər arasında milli-mənəvi və ümumbəşəri dəyərlərin təbliğinin əhəmiyyətinə toxunulub, hər bir gəncin vətənpərvərlik ruhunda böyüməsinin vacibliyi vurğulanıb, dini radikalizmin zərərli təsirləri, gənclərin onların fəsadlarından qorunmaları üçün maarifləndirmə işlərinin aparılmasının vacibliyi qeyd olunub. Bildirilib ki, İslam həmrəyliyinin gücləndirilməsi Azərbaycanın xarici siyasətində prioritet məsələlərdən biridir. Həmçinin, Azərbaycanda tarixən formalaşmış tolerantlıq mühitindən, mehriban şəraitdə yaşayan çoxsaylı xalqların həyatından, multikultural dəyərlərin inkişafından bəhs edilib.

Mühazirələrin sonunda şagirdləri maraqlandıran suallar cavablandırılıb, "Fitnə" sənədli filmi nümayiş olunub.

Qeyd edək ki, mart-aprel aylarında "İslam Həmrəyliyi ili" ilə əlaqədar səyyar mühazirələrin paytaxtın 34 ümumi təhsil məktəbində keçirilməsi nəzərdə tutulub.

## "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində görüşlər



Bakı şəhəri üzrə ümumi təhsil məktəblərinin şagirdləri ilə "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində görüşlər keçirilib.

"Ölkəmizi tanıyaq" tur-aksiyasının əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Görüş zamanı dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən keçirilən tur-aksiyalar barədə şagirdlərə geniş məlumat verilib. Bildirilib ki, ümumi təhsil məktəblərinin IX-XI sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları artıq dörd ildir ki, təşkil olunur.

Qeyd olunub ki, tur-aksiyanın proqramı təkcə bölgələrin sosial-iqtisadi, tarixi-mədəni həyatı ilə tanışlıqla bitmir. Aksiyanın hər iki mərhələsində ənənəyə uyğun olaraq, məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları keçiriləcək, qaliblərə xatirə hədiyyələri təqdim ediləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

**www.baku.edu.gov.az**

# Aprel savaşının şəhid könüllüsü

## Vətənpərvərlik



O, şəhidliyi ilə müqəddəs zirvəyə daha bir nüans - mülki insanlar arasından çıxan “hünər və cəsarətin” simvolu olan şəhid təyinini əlavə etdirəndir!

Keçdiyi yol ömrünün sadəcə bir günü olsa da... O bir gün-ilk və son gün... O ilklə bir ilkə və o sonla bir sonsuzluğa imza atdı. Söhbət aprel döyüşləri zamanı Gəncədən könüllü olaraq yeznəsi ilə birlikdə cəbhə bölgəsinə gedib orada şəhid olan Fərman Əsədlidən gedir.

Döyüş ruhu əzmini əyninə geydiyin hərbi paltar ikiqat artırar, təbii. Ən əsası vətənpərvərlik ruhunun hərbi paltar kimi cismində, canında daşınmasıdır.

Fərman o döyüşə getməsiylə bunu sübut etdi. Onun hər zaman əynində daşımaq istədiyi hərbi paltarı özü geyinə bilməsə də, qızı 2 yaşlı (artıq 3 yaşı olacaq-T.V) Xatirəyə bunu miras qoydu.

Fərman Əsədli keçmiş komissar Elçin Əsədovun oğlu kimi atasının yolu ilə gedərək hərbi geyimdə - komissar olmağı arzulayıb. Oğlan uşaqları “ulduzlu paqon” həvəslisi olurlar. Amma ondakı bu həvəsdən də irəli gedən bir şey idi. Hələ də torpaqlarımızda “atəşkəsli” müharibənin vaxtaşırı qapıları döyən şəhid tabutlarını qucaqlayan anaların naləsi, fəryadı ilə pozulan səssizliyi hökm etdiyindən bu fikrində qətiydi.

Amma... Həyatın axarının istəklərimizi ertələmək zorunda buraxdığı vaxtlar çox olub. Onu dəyişmək isə bəzən əlimizdə olmayıb.

“Aprel döyüşü” adı ilə tarixə düşən 4 günlük döyüş həm də bir oyanış, milli ruhun silkələnməsi, özümüzə qayıdışa döndü.

Bayaq xatırlatdığım həyatın axarı istəkləri ertələməyə məcbur etdiyi kimi, bəzən gedişatın fürsət olaraq qarşımıza çıxardıqları da varmış. Ən azından Fərman üçün belə oldu. O bu döyüşü istəyinə doğru bir addım kimi dəyərləndirib yola çıxdı.

Fərman Əsədli o gün “heç nəyi ölçüb-biçmədən” sadəcə “Vətənin bizə ehtiyacı var”- deyib getdi.

Bir ömür hərbçi paltarı geymək istədiyi yola mülki sıravi kimi getmişdi, həm də dönüşündə bayrağa bürünüb qayıtmaq ehtimalını gözə alaraq.

Aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan ordusunun bütün cəbhəboyu hücuma keçdiyi o gün yeznəsi Sadiq Əliyevlə “Niva” markalı maşınına minərək “cəbhə bölgəsinə gedək, bəlkə bizim də bir yardımımız toxunar” - deyə qərar verirlər. Gedəndə əsgərlərə siqaret və ərzaq yardımı da götürürlər. Tərtər rayonunun Şıxarx qəsəbəsi istiqamətindəki evlər ermənilərin ağır artilleriya atəşi altında qaldığından oradan yaralıları və dinc sakinləri çıxarmağa ehtiyac olduğunu görürlər. Fərman və Sadiq ərazidə olan mülki vətəndaşların düşmənin hədəfində olan ərazidən çıxarılmasına kömək etməklə yanaşı, oranı tərk etməyərək erməni mərmisi düşən yerlərdə yaralananların olub-olmadığını öyrənmək üçün gözləyib, onları maşınları ilə xəstəxanaya və nisbətən təhlükəsiz yerlərə daşımağa yardımçı olurlar.

Sonuncu dəfə bir də ərazini yoxlamaq üçün dönəndə kapitan Mübariz Rəhimovla rastlaşırlar. “Onu da ön cəbhəyə yetişdirək, sonra dönərik”, - deyirlər. Şıxarxda yerləşən qum-çınqıl karxanasının təxminən 500 metrliyində düşmənin top mərmisi avtomaşının yaxınlığına düşür. Maşının qabaq hissəsində oturan yeznə və qayın ağır yaralanır, kapitan Rəhimov isə xətasız ötüşür. Sadiq özü qanlar içində olsa da qaynı Fərmanı Tərtər xəstəxanasına çatdırır. Və orada özü də huşunu itirir. Həkimlərin səyinə baxmayaraq ciyərlərini qəlpə dağıtmış və çox qan itirmiş Fərman Əsədli əməliyyat stolunda keçinir. Sadiq isə başının arxa hissəsindən aldığı yaradan bir neçə gün komada qalır. Ayılanda isə...

““Ögey ana” filmindəki İsmayılı xatırladırdı uşaqlığı. Çox dəcəl idi. Samux rayonunun Sərkar kəndində - qaynatamgillə qalırdıq o zamanlar. Qonşuların toyuğundan-cücəsindən tutmuş, meyvə ağacları bunun dəcəlliyindən təngə gəlmişdi. Düzü utanırdım hamıdan. Qonşular isə onu bu şirin dəcəlliyi ilə sevirdilər” - deyə anası Xatirə xanım o şəhid olandan sonra yazdığı “Fərmanlı gündəliyində” qeyd edir. O gündəlik dediyimiz də dağınıq və başında sıra nömrəsi qeyd edilmiş vərəqlərdən ibarətdir.

Birində uşaqkən atdan yıxılıb qolunu əzsə də, çox nəfis işlənmiş qamçısının olmadığını fərq etdiyi hadisədən söz açılır. “Qamçım qaldı” - həkimə aparılarkən yolda dediyi sözü-atasının “sənin qolun ağrımırmı” - cümləsi kəsir. O da “Atlı da heç qamçısız olarmı?” - deyir.

Onun 25 illik ömründən daha hansı epizodları xatırladıqca yazacaq vərəq-vərəq şəhid anası...

Bunu Fərmanın yadigarı 2 yaşlı Xatirə üçünmü yazır, ya da onu yazaraq hər gün yenidən yaşatmaq üçünmü. Bu da şəhid olduğu üçün qürur duysa da, yoxluğunda varlığını yaşatmaq üçün etdiyindəndir, çox güman ki...

“Kimsəsizlər və uşaq evlərinə tez-tez gedər, yardım aparardı. Yuxa ürəkli idi. Heç varlı-kasıb fərqi qoymazdı. Bir gün ona - hər şeyini paylayırsan dediyimdə - cavabı bu oldu: -Əlacım olsa bütün dünyadakı acları doydurar, kimsəsizləri sevindirərdim.

Məktəbdə də dəcəlliyindən əl çəkməsə də, dərsini oxuyan, sinfin sevimlisi olanlardandı. Ali məktəbdə, əsgərlikdə özünə çoxlu dost qazanmışdı.

Fərman istər ata, istərsə də ana tərəfdən çox sayılan-seçilən, ziyalı bir nəsildəndir. Adını daşıdığı babası da xeyirxah əməlləri ilə tanınıb. Atası oğlunun ölüm xəbərini alanda bunu hərbçiyə uyğun təmkinlə qarşılayıb. Komissar Elçin həyat yoldaşı Xatirə xanıma: “Mən hərbi komissar işlədiyim müddətdə 150 şəhidi əlimlə torpağa vermişəm. Və bu qürurqarışıq acını səninlə paylaşmışam. O balalar da mənim, bizim balamız idi. Fərman da onlardan biridir. Vətən sağ olsun! Oğlumuzla qürur duy!”-deyib.

Əsgərlikdə olanda sərrast güllə atıcısı olması ilə seçilib. Aralarında “onda onluq vurur”-deyirlərmiş nəticələrinə baxıb. İdmanın bir neçə növü üzrə təltif və tərifnamələri var. Belə sərrast atıcının döyüş meydanında düşmən mövqeyini silah atəşi ilə susdurması varkən, əliyalın düşmən mərmisinə tuş gəlməsi həyatın ona acı istehzası olsun gərək.

Şəhid kimdir? Bu ad qızı Xatirənin “Atam kim olub?”- sualı qarşısında - bir atanın övladına miras qoyduğu ən dəyərli cavabdır: “Sənin atan Şəhid olub!”.

Xatirə və onun kimi balaların libasının atalarının hərbi geyiminə dəyişməməsi, onu geyinmək məcburiyyətində qalmaması üçün həyatını fəda edən - Vətənə fəda olanlardır - Şəhidlər!

**Tünzalə VƏLİQIZI**

## BÖLGƏ XƏBƏRLƏRİ

### “Mənim mənəvi borcum” mövzusunda “açıq dərs”



İsmayıllı şəhər E.Məmmədov adına 3 nömrəli məktəb-liseyin VIII “b” sinfində həyat bilgisi fənnindən “Mənim mənəvi borcum” mövzusunda “açıq dərs” keçirilib.

Müəllim Famil Əhmədzadənin fəal təlim metodları və üsulları ilə təşkil etdiyi dərsin bütün mərhələləri öyrədici, inkişafetdirici və tərbiyəedici istiqamətdə qurularaq şagirdlərin idraki fəallığı təmin etməklə onların tədqiqat aparmaq, mənbələri araşdırmaq, İKT-dən istifadə etmək və s. bacarıqlarını üzə çıxarıb. Onlar sərbəst fikir yürüdüb, həyatdan nümunələr gətirərək müqayisələr edib, vətən qarşısında borcunu ləyaqətlə ödəyən vətən övladlarını tanıdan təqdimatlar ediblər.

Şagirdlər dərs boyunca öyrəndikləri mənəvi dəyərlər və uzaq tariximizdən bu günə qədər vətən, millət qarşısında əvəzsiz xidmətlər göstərmiş insanlar haqqında məlumatları tətbiq etməklə həll etdikləri krossvordun mərkəzində yazdıqları Azərbaycan sözünü alqışlarla və sevinclə qarşılayıblar.

Müzakirələrdə bu “açıq dərs”in məktəbdə dərslərin müasir tələblərə uyğun metod və mexanizmlərlə qurulması təcrübəsini artırmış olduğu qeyd edilib.

RTŞ-nin müdir müavini Rahim Baxışov bildirib ki, dərslərdə seçilən təlim formaları və üsulları formal xarakter daşımamalı, bütün şagirdlərin aktivliyini və əməkdaşlığını təmin etməlidir. O, keçirilmiş nümunəvi dərsə görə müəllim Famil Əhmədzadəyə təşəkkür edib.

**Sevda QASIMOVA,**
*İsmayıllı şəhər E.Məmmədov adına 3 nömrəli məktəb-liseyin direktor müavini*

### “Şahin” hərbi-idman oyunu gənclərin vətənpərvərlik tərbiyəsi işinə mühüm təsir göstərir



“Şahin” hərbi-idman oyunu üzrə respublika birinciliyinin Qaxda keçirilən rayon turunun yarışları Qax şəhər 2 nömrəli məktəb-liseyin komandasının qələbəsi ilə başa çatıb. Şəhər stadionunda 15 komandanın iştirakı ilə keçirilən rayon birinciliyində əvvəlcə komandaların sıra hazırlığının səviyyəsi yoxlanılıb.

Tərkibinə 10 oğlan və 4 qız iştirakçının daxil olduğu komandalar sonra maneələrin dəf olunması, kəndir vasitəsilə yüksəkliyə dırmanma, turnikdə dartınma, tüfəngdən hədəfə atəş açmaq, mülki müdafiə hazırlığı, yaralıya ilk tibbi yardımın göstərilməsi, çadırın qurulması və digər yarışlarda qüvvələrini sınayıblar.

Rayon birinciliyinin qalibi olan 2 nömrəli məktəb-liseyin komandası, eyni zamanda zona yarışlarında iştirak etmək hüququ qazanıb. Sonrakı yerləri Qax şəhər 4 nömrəli və Ləkit kənd tam orta məktəblərin komandaları tutublar.

Qeyd edək ki, Gənclər və İdman, Təhsil, Müdafiə, Fövqəladə Hallar nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən bu yarışlar yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işini daha da gücləndirmək, orta məktəb şagirdlərini hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına kömək məqsədi daşıyır.

### “Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları”



Abşeron rayonunun Novxanı kənd 1 nömrəli tam orta məktəbində Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Mərkəzinin təşkilatçılığı ilə “Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları” mövzusunda maarifləndirmə tədbiri keçirilib. Məqsəd müəllim və şagirdlərin fövqəladə hallarla bağlı davranış qaydaları və mülki müdafiə sahəsində biliklərinin artırılmasına, məktəblərdə baş verə biləcək yanğın və ya partlayış hadisələrinin qarşısının alınması məqsədilə profilaktik tədbirlərin görülməsinə nail olmaqdır.

Sumqayıt Regional Mərkəzinin, I Ərazi Dövlət Yanğın Nəzarəti İdarəsinin, Abşeron rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşları, rayon təhsil şöbəsinin nümayəndəsi, məktəbin müəllim kollektivi və şagirdlər tədbirdə iştirak ediblər. Burada “Fövqəladə halların təsnifatı”, “Zəlzələ zamanı necə davranmalı”, “Sel və daşqın zamanı nə etməli”, “Məişətdə yanğın zamanı davranış qaydaları” və s. mövzularda çıxışlar edilib, həm də mövzulara aid videoçarxlar nümayiş olunub.

Sonda şagirdlərin sualları cavablandırılıb.

**Adil QURBANOV,**
*Abşeron Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi*

### “Arximed qüvvəsi” mövzusunda “açıq dərs” keçirilib



Saatlı Rayon Təhsil Şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, şəhər 1 nömrəli tam orta məktəbdə fizika fənnindən “Arximed qüvvəsi” mövzusunda “açıq dərs” keçirilib. Dərsdə məktəbin direktoru Günay Qənbərova və fənn müəllimləri iştirak ediblər.

Fizika müəllimi Elnur Cəfərli maye və qaz daxilində olan cisimlərə təsir edən itələyici qüvvəni izah edib, itələyici qüvvəyə təsir edən kəmiyyətləri - cismin suya batırılmış hissəsinin həcmi, mayenin sıxlığı haqqında məlumat verib.

Şagirdlər saf və duzlu suya atılmış yumurtaya mayenin təsirini təcrübə ilə yoxlayıblar. Sonra dinamometrdən asılmış cismin çəkisi təyin olunub, cisim mayeyə daxil edilib və cismin çəkisinin dəyişməsi müzakirə olunub.

Sonda “açıq dərs” geniş şəkildə müzakirə edilib.

**Hazırladı: Şakir CƏFƏROV,**
*“Azərbaycan müəllimi”*

# Dünyanın ixtisas hazırlığı üzrə ən yaxşı universitetlərinin reytinqi açıqlanıb

**Oruc MUSTAFAYEV,** *"Azərbaycan müəllimi"*
o.mustafayev@muallim.edu.az

Böyük Britaniyanın nüfuzlu Quacquarelli Symonds (QS) şirkəti dünyanın ixtisas hazırlığı üzrə ən yaxşı universitetlərinin sayca 7-ci reytinq cədvəlini (QS World University Rankings by Subject 2017) açıqlayıb. Reytinqdə 46 ixtisas üzrə 74 ölkədən olan universitetlər qiymətləndirilib. Builki tədqiqata ilk dəfə anatomiya və fiziologiya, mehmanxana biznesinin idarə olunması, idman, teologiya, ilahiyyat və dinin tədqiqatları kimi ixtisaslar cəlb olunub.

Reytinq tərtib olunarkən bütün dünya üzrə 4500 ali təhsil müəssisəsi təhlil olunub, onlardan 1127-si siyahıya daxil olub. Tədqiqat gedişində elmi məqalələrdən 185 milyondan çox sitatgətirilmə təhlil olunub, 18900 tədris proqramının təminatı yoxlanılıb. Reytinq 194000 işəgötürən və akademik cəmiyyətin 305000 nümayəndəsinin ekspert rəyinə, eləcə də 43 milyon tədqiqat işinin təhlilinə əsaslanır. Tərtibçilər ali məktəbləri qiymətləndirərkən universitetlərin akademik aləmdə nüfuzu, işəgötürənlərin rəyləri, müəllimlərin və tələbələrin Scopus/Elsevier biblioqrafiya verilənlər bazasından əldə olunmuş məlumatlar əsasında elmi məqalələrindən sitatgətirilmə indeksini əsas götürüblər.

Dünyanın aparıcı universiteti adını Harvard Universiteti qazanıb. Bu ali məktəb 15 müxtəlif fənn üzrə birinci yeri tutub. Onun ardınca 12 fənn üzrə ən yüksək qiymət almış Massaçusets Texnologiya İnstitutu gəlir. Üçüncü sırada isə Böyük Britaniyanın Oksford Universiteti qərarlaşıb. Harvard Universiteti "Müasir dillər", "Antropologiya", "Sosial siyasət və administrasiya", "Psixologiya", "Hüquq", "Tarix", Massaçusets Texnologiya İnstitutu "Riyaziyyat", "Arxitektura", "Linqvistika", "İqtisadiyyat", Oksford Universiteti "İngilis dili və ədəbiyyat", "Coğrafiya", "Arxeologiya" kimi fənlərdə dünyada birincidir. Reytinq bir daha təsdiqləyib ki, dünyada ali təhsil sahəsində liderlik rolu ABŞ və Böyük Britaniya ali məktəblərinə məxsusdur, adıçəkilən ölkələrin universitetləri bəhs olunan 46 ixtisasdan 43-də lider mövqedədirlər (ABŞ 35, Böyük Britaniya 8).

Reytinq cədvəlinin ilk 10-luğunda Kembric Universiteti 36, Berkli Kaliforniya Universiteti 34, Oksford Universiteti 33, Stenford Universiteti 32, Massaçusets Texnologiya İnstitutu 21, Los-Anceles Kaliforniya Universiteti 14, London İqtisadiyyat Məktəbi 13, Yel Universiteti 12, Sürix Ali Texnik Məktəbi və Prinston Universiteti hərəsi 10 ixtisas istiqaməti ilə qərarlaşıb.

M.V.Lomonosov adına Moskva Dövlət Universiteti ilk dəfə dünyanın 50 ən yaxşı ali məktəbi arasına daxil olub. Universitetdən verilən rəsmi açıqlamada qeyd olunur ki, bu, ali məktəbin tarixi ərzində əldə etdiyi ən yüksək göstəricidir.

MDU "Linqvistika" sahəsində 13-cü, "Fizika və astronomiya" üzrə 21-ci, "Riyaziyyat" üzrə 33-cü yeri tutub. MDU "Arxeologiya", "İngilis dili və ədəbiyyat", "Tarix", "Fəlsəfə", "Kimya", "Siyasi və beynəlxalq əlaqələr", "Hüquqşünaslıq", "Mühəndislik və kosmik texnologiyalar", "Sosial siyasət və inzibatçılıq" üzrə ilk 100-lükdə yer alıb. MDU-nun rektoru, akademik Viktor Sadovniçi universitetin uğurunu belə qiymətləndirib: "Moskva Dövlət Universiteti 15 ixtisas hazırlığı üzrə dünyanın 100 ən yaxşı ali məktəbi arasına daxil olmuş yeganə Rusiya ali məktəbidir. Biz bütün sahələrdə, təbiət və humanitar elmlər üzrə fəal inkişaf edirik. MDU ən yaxşı professor-müəllim heyəti və aydın məqsədli tələbələri ilə elm və təhsilin ən böyük beynəlxalq mərkəzi kimi öz statusunu təsdiq edir. Bu reytinq növbəti dəfə sübut edir ki, MDU dünyanın beynəlxalq elmi-təhsil məkanını formalaşdıran ən nüfuzlu ali məktəblərin sırasına daxildir. Fundamental və tətbiqi elmi araşdırmaların müasir inkişaf səviyyəsi fənlərarası səriştələrə malik olan mütəxəssislərin hazırlığını tələb edir. Məhz təlimə fənlərarası yanaşmanın zəruriliyi anlayışı biomühəndislik və bioinformatika, materiallar haqqında elmlər, fundamental tibb fakültələrini, eləcə də ali tərcüməçilik məktəbinin yaradılmasına təkan verdi. Bu il ilk dəfə kosmik tədqiqatlar fakültəsinə qəbul aparılacaq. Fakültələrarası kurslar da müvəffəqiyyətlə inkişaf edir, biz onlara tələbələr tərəfindən yüksək maraq görürük". MDU-dan başqa, reytinqə bir sıra Rusiya ali məktəbləri də daxil olub. Rusiyanın Ali İqtisadiyyat Məktəbi də ilk 100-lükdə "İqtisadiyyat və ekonometrika", "Siyasi və beynəlxalq tədqiqatlar" və "Sosiologiya" istiqamətləri üzrə 3 yer qazanıb. Moskva Fizika-Texnika İnstitutu "Fizika və astronomiya" sahəsində dünyada 42-ci yeri tutub. Bu ali məktəb eləcə də riyaziyyat, mühəndislik işi, kompüter elmləri, kimya və mexanika mühəndisliyi üzrə top-200-lükdə yer alıb. Sankt-Peterburq Dağ-Mədən İnstitutu "Mühəndislik işi -faydalı qazıntılar hasilatı və mədən sənayesi" istiqaməti üzrə 15-ci, Novosibirsk Dövlət Universiteti 50-ci yerdədir.

Bütövlükdə "QS World University Rankings by Subject"ə 28 Rusiya ali təhsil müəssisəsi daxil olub, onlar 38 fənn üzrə 147 mövqe tutublar.

QS WORLD UNIVERSITY RANKINGS by subject

Ötən illə müqayisədə reytinqdə Rusiya ali məktəblərinin payı 0,82-dən 1,03 faizə qədər artıb. "QS Quacquarelli Symonds"un tədqiqatlar şöbəsinin rəisi Ben Sauterin sözlərinə görə, yeni reytinq deməyə əsas verir ki, Rusiya ali təhsili xüsusən də dəqiq elmlər sahəsində nəzərəçarpan irəliləyiş nümayiş etdirməkdədir.

Ötən ilki reytinqdən fərqli olaraq builki "QS World University Rankings by Subject" sıralamasında Türkiyənin iki universiteti mədən mühəndisliyi sahəsində ən yaxşı 50 ali məktəb arasında yer alıb. İstanbul Texnik Universiteti mədən mühəndisliyi sahəsində ən yaxşı 100 universitet arasında 31-ci, Orta Doğu Texnik Universiteti 45-ci yerə yüksəlib. Ayrıca olaraq 46 ixtisas üzrə Türkiyənin ali məktəbləri 59 yer (ötən il 34) tutub. Türkiyə universitetlərinin fərqləndiyi ixtisas istiqamətlərinin sayı da 13-dən 24-ə artıb.

Baxmayaraq ki, reytinqə ABŞ və Böyük Britaniya ali məktəbləri liderlik edirlər, keyfiyyətli ali təhsil təqdim edən ölkələrin sayı da artmaqdadır. Avstriya, Cənubi Afrika, Finlandiya, Braziliya, Çin və İsveç ayrı-ayrı ixtisas istiqamətləri üzrə reytinq sıralamalarında ilk 10-luqlarda yer alıblar.

Qeyd edək ki, QS Quacquarelli Symonds 1990-cı ildən ali təhsil sahəsində və biznes sektorunda nüfuzlu ekspert qrupudur. QS World University Rankings-in ixtisas hazırlığı istiqamətləri üzrə illik reytinqi işəgötürənlərə, tələbələrə, valideynlərə və müəllimlərə dünya üzrə hansı universitetin keçilən hər bir fənn üzrə ən yaxşı olmasına dair tam və ən dolğun aktual məlumatlar imkanı verir.

Dünyanın ixtisas hazırlığı sahəsində ən yaxşı universitetlərinin reytinq vəziyyəti ilə *www.topuniversities.com/student-info/university-news/out-now-qs-world-university-rankings-subject-2017* səhifəsindən daha yaxından tanış olmaq olar.

| İxtisaslar | Qalib universitetlər | Ölkələr |
|---|---|---|
| 1. Maliyyə və mühasibat uçotu | Harvard Universiteti | ABŞ |
| 2.Meşə və kənd təsərrüfatı | Vageningen Universiteti | ABŞ |
| 3.Anatomiya və fiziologiya | Oksford Universiteti | Böyük Britaniya |
| 4.Antropologiya | Harvard Universiteti | ABŞ |
| 5.Arxeologiya | Oksford Universiteti | Böyük Britaniya |
| 6.Arxitektura | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 7.İncəsənət və dizayn | Kral İncəsənət Universiteti | Böyük Britaniya |
| 8.Biologiya elmləri | Harvard Universiteti | ABŞ |
| 9.Biznes və idarəetmə tədqiqatları | Harvard Universiteti | ABŞ |
| 10.Kimya | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 11.Kommunikasiya və media | Cənubi Kaliforniya Universiteti | ABŞ |
| 12.İnformatika və informasiya sistemləri | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 13.Stomatologiya | Honkonq Universiteti | Honkonq |
| 14.Beynəlxalq inkişaf | Susseks Universiteti | Böyük Britaniya |
| 15.Yerin və dünya okeanının tədqiqi | Sürix Ali Texnik Məktəbi | İsveçrə |
| 16.İqtisadiyyat və ekonometrika | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 17.Təhsil | London Universitet Kollecinin Təhsil İnstitutu | Böyük Britaniya |
| 18.Kimya mühəndisliyi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 19. Mülki və struktur tədqiqatlar mühəndisliyi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 20.Elektrik mühəndisliyi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 21.Mexanika mühəndisliyi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 22.Dağ-mədən sənayesi mühəndisliyi | Koloradao Dağ -Mədən Məktəbi | ABŞ |
| 23.İngilis dili və ədəbiyyat | Oksford Universiteti | Böyük Britaniya |
| 24.Ətraf mühit haqqında elmlər | Berkli Kaliforniya Universiteti | ABŞ |
| 25.Coğrafiya | Oksford Universiteti | Böyük Britaniya |
| 26.Tarix | Harvard Universiteti | ABŞ |
| 27.Qonaqpərvərlik və asudə vaxtın idarə edilməsi | Nevada Universiteti | ABŞ |
| 28. Hüquq | Harvard Universiteti | ABŞ |
| 29.Linqvistika | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 30.Materialşünaslıq | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 31.Riyaziyyat | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 32.Tibb | Harvard Universiteti | ABŞ |
| 33.Müasir dillər | Harvard Universiteti | ABŞ |
| 34. Tibb bacısı işi | Pensilvaniya Universiteti | ABŞ |
| 35.İncəsənətin praktik növləri | Culyard Məktəbi | ABŞ |
| 36.Aptek işi və farmakologiya | Harvard Universiteti | ABŞ |
| 37.Fəlsəfə | Pittsburq Universiteti | ABŞ |
| 38.Fizika və astronomiya | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 39.Siyasət və beynəlxalq tədqiqatlar | Harvard Universiteti | ABŞ |
| 40.Psixologiya | Harvard Universiteti | ABŞ |
| 41.Sosial siyasət və administrasiya işi | Harvard Universiteti | ABŞ |
| 42.Sosiologiya | Harvard Universiteti | ABŞ |
| 43.İdman yarışlarıyla bağlı fənlər | Lafboro Universiteti; Sidney Universiteti | Böyük Britaniya; Avstraliya |
| 44.Statistika və əməliyyatların tədqiqi | Harvard Universiteti | ABŞ |
| 45.İlahiyyat | Harvard Universiteti | ABŞ |
| 46.Baytarlıq elmi | Kaliforniya Universiteti, Devis | ABŞ |


*Harvard Universiteti*


*Massaçusets Texnologiya İnstitutu*


*Oksford Universiteti*

# Rusiyanı heyrətləndirən azərbaycanlı tələbə

Pərvanə Əlcanova 1999-cu ildə Göranboy rayonunda anadan olub. O, 3 yaşından "Bakı SOS Uşaq Kəndləri"nin sakini olub. Bakıdakı 257 nömrəli tam orta məktəbin IX sinfini bitirib. Hazırda Bakı Humanitar Kollecinin kitabxana informasiya təminatı ixtisası üzrə III kurs tələbəsidir. Kollecin bütün tədbirlərində fəal iştirak edən Pərvanə təhsil ocağında fəaliyyət göstərən "Buta" rəqs qrupunun fəal üzvlərindəndir. O, Binəqədi rayonunda və respublika səviyyəsində keçirilən tədbirlərdə öz ifaları ilə hamını təəccübləndirir. Kollecin musiqi müəllimi Bəhruzə Məmmədova onu ən istedadlı yetirməsi adlandırır. Bunun nəticəsidir ki, Pərvanə Rusiyanın NTV telekanalında yayımlanan "Sən supersən!" beynəlxalq musiqi yarışmasına qatılaraq uğur qazanıb və münsiflər heyətini öz ifası ilə heyran edib.



Bakı Humanitar Kollecinin direktoru Vaqif Əmiraslanovun dediklərindən: - Pərvanə kollecdə təhsil aldığı ilk gündən istedadlı tələbə olduğuna görə xüsusi qayğı və böyük məhəbbətlə əhatə olunub. Bu gün onun istedad yarışmalarında qələbəsi hər kəsi sevindirir. Biz onunla fəxr edirik.

Oxuduğu qrupun nümayəndəsi Ə.Nəzrin də öz fikirlərini bizimlə bölüşdü: -Pərvanə kollecə gələn gündən onunla rəfiqəlik edirəm. Çox səmimi qızdır. Pozitiv düşüncəyə malikdir. Möhkəm iradəsi var. Ən əsası istedadlıdır. Mədəni-maarif şöbəsinin müdiri Afaq Əsgərova da hər zaman Pərvanəyə dəstək olduğunu, onunla fəxr etdiyini söylədi. Onun həmişə şən əhvali-ruhiyyədə olmasını xüsusilə vurğuladı. Dedi ki, ona dərs deyən müəllimlər Pərvanə ilə fəxr edir və bu gün də onun müxtəlif nominasiyalı yarışmalarda qazandığı uğurları böyük ruh yüksəkliyi ilə qarşılayırlar.

# V sinif şagirdi beynəlxalq müsabiqələr laureatıdır

Banu Tağıyeva 2006-cı ildə Bakı şəhərində anadan olub. Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət gimnaziyasının V sinfində təhsil alır. O, beynəlxalq müsabiqələr laureatıdır. İlk uğuru 2015-ci ildə İtaliyanın Pesaro şəhərində keçirilən XII "Citta di Pesaro" adlı gənc ifaçıların beynəlxalq müsabiqəsində qazanıb. Öz ifası ilə seçilən Banunun çıxışı münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib və I yerə layiq görülüb. 2016-cı il isə yeniyetmə qız üçün daha uğurlu olub. Belə ki, Fransanın Paris şəhərində XIII beynəlxalq Nikolay Rubinşteyn adına müsabiqədə yüksək istedad nümayiş etdirərək I yerə layiq görülüb. Banu Tağıyeva daim öz üzərində səylə çalışır, müxtəlif festival və müsabiqələrdə fəal iştirak edir. O, 2017-ci ilin yanvarında Nyu-York şəhərində keçirilən "American Protege"adlı müsabiqəyə videoyazı vasitəsilə qatılaraq III yeri qazanıb. Bu müsabiqənin təşkilatçıları Banu Tağıyevanı may ayında Nyu-York şəhərində keçiriləcək Qala konsertə dəvət ediblər. Qeyd edək ki, qaliblərin konserti Nyu-Yorkun möhtəşəm "Carnegie Hall" zalında keçiriləcək.



İnanırıq ki, bu konsertdə də Banu ölkəmizi layiqincə təmsil edəcək, öz ifaçılıq məharəti ilə seçilərək müəllimlərinin etimadını doğruldacaq.

# "Baku Open" yarışmasının qalibi

Fidan Dadaşova 2003-cü ildə Bakı şəhərində anadan olub. 3 yaşından bədii gimnastika ilə məşğul olub. 5 yaşından isə milli və dünya xalqlarının rəqslərini özünəməxsus tərzdə məharətlə ifa edib. Fidan rəqsləri ilə nəinki respublikamızda, hətta Türkiyədə, Misirdə və Kiprdə keçirilən festivallarda uğurla çıxış edərək I yerə layiq görülüb. İdmana olan marağı isə onda qardaşı oyadıb və karate ilə məşğul olub. Vado ryu karate do klubunun baş məşqçisi Namiq Pirverdiyev artıq 7 ildir ki, Fidanla məşğul olur. Bunun nəticəsidir ki, peşəkar məşqlər nəticəsində yeniyetmə qız 2012-ci ilin dekabrında Türkiyənin Trabzon şəhərində keçirilən beynəlxalq turnirdə I yerə, 2013-cü ildə 31 yanvar, 2 fevral tarixlərində Dubayda keçirilən beynəlxalq turnirdə fəxri fərmana, 2014-cü ildə isə Şəki şəhərində keçirilən beynəlxalq turnirdə I yerə layiq görülüb. O, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov tərəfindən "Ən yaxşı idmançı-əzmkar döyüşçü" xüsusi medalı ilə mükafatlandırılıb. 2014-cü ilin 16-17 may tarixlərində Bakı şəhər "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən "Caspian cup" beynəlxalq turnirində I, 2015-ci ilin 1-3 may tarixlərində Gürcüstan Respublikasında 12-13 yaşlılar arasında keçirilən dünya birinciliyində II, 2016-cı ilin 22-23 aprel tarixlərində "Baku Open" VII beynəlxalq karate turnirində II, 2017-ci ilin 20-22 yanvar tarixlərində Milli Karate Federasiyası və Arpaçay Karate Klubunun keçirdiyi beynəlxalq yarışda şəxsi və komanda döyüşünə görə hər iki halda I yerlərin sahibi olub. Fidan Dadaşova respublikamızda bu günlərdə keçirilən "Baku Open" beynəlxalq yarışlarına da qatılaraq qızıl medala layiq görülüb. Azərbaycan Milli Karate Federasiyasının 14-15 yaş qrupunun baş məşqçisi Anar Allahverdiyev, əməkdar məşqçilər Şahin Xudaverdiyev və Qurban Tağıyevin peşəkar və təcrübəli yanaşmaları nəticəsində Fidan Dadaşova 11 yaşından yığma komandanın məşqlərinə dəvət olunub. Buna görə onlara dərin təşəkkürünü bildirir. Deyir ki, bu insanlar mənim qazandığım bütün uğurların səbəbkarlarıdır. Hazırda Fidan Bakıdakı 31 nömrəli tam orta məktəbin VIII sinfində təhsil alır. Dərslərini yaxşı oxuyur və məktəbin ictimai işlərində fəal iştirak edir. Beynəlxalq idman yarışlarında qazandığı uğurlar Fidanın gələcəkdə daha böyük qələbələr əldə edəcəyinə ümid verir.



# Bacı-qardaşın uğurlu sənət karyerası

Ülkər Ağayeva 2000-ci ildə Bakı şəhərində anadan olub. 4 yaşında ikən Azərbaycan Dövlət Uşaq Filarmoniyasının rəqs dərnəyinin üzvü olub. 2005- ci ildə ilk dəfə Space telekanalında milli və dünya rəqslərini nümayiş etdirib. 8 yaşı olanda Ülkər Azərbaycan televiziyasında yayımlanan "Çoxbilmişlər" verilişinə dəvət alıb. Bu intellektual bilik yarışmasında teleaparıcı Məsmə Ağaverdiyeva onun danışıq qabiliyyətini çox bəyəndiyindən həmin efir gününün tamaşaçılarını salamlamağı ona həvalə edib. Yarışmada isə I yerə layiq görülüb. 2009-cu ildə Tofiq Quliyev adına 12 nömrəli Uşaq İncəsənət Musiqi Məktəbinin pianino şöbəsinə yazılıb. Qeyri-adi istedadı ilə fərqlənən Ülkər 2010-cu ildə musiqi məktəbinin xor dərnəyinə üzv olub və konsertlərdə solo, xor şəklində oxuyub. O, Uşaq Hüquqları üzrə pilləli tədris kursunda da iştirak edib. 2012-ci ildə "Təbəssüm uşaq musiqili teatrı"nın rəqs dərnəyinin tərkibində Türkiyədə keçirilən X Uluslararası Türkçe Olimpiyatlarında öz məharətini göstərib. O, İstanbul, Sivas, Konya, Karaman, Ankara, İsparta, Antalya, Bodrum, Muğla, Kayseri və digər şəhərlərdə keçirilən yarışmalarda Azərbaycanı layiqincə təmsil edib. 2013-cü ildə Macarıstanda keçirilən beynəlxalq rəqs festivalında I yeri qazanıb. 2014-cü ildə Uluslararası 23 Nisan Uşaq Şənliyində, həmin il Gürcüstanın Tbilisi şəhərindəki beynəlxalq rəqs müsabiqəsində uğurlu çıxışı I yerə layiq görülüb.



Qardaşı Murad Ağayev də bacısından geri qalmır. Aralarında bir yaş fərq olduğuna baxmayaraq eyni sinifdə təhsil alırlar. Bu bacı-qardaş konsertlərdə, festivallarda bəzən tərəf müqabili də olurlar. Murad da rəqs həvəskarıdır. 2005-ci ildən bacısı ilə birgə Azərbaycan Dövlət Uşaq Filarmoniyasının rəqs dərnəyində məşğul olub. Azərbaycan rəqsini layiqincə təmsil edən Murad Macarıstanda keçirilən rəqs festivalında iştirak edərək I yerə layiq görülüb və diplomla mükafatlandırılıb. 2014-cü ildə Türkiyənin Gaziantep şəhərində keçirilən "23 Nisan uşaq şənliyi"ndə Azərbaycan rəqsini və mədəniyyətini təmsil edərək diplom və hədiyyələr, "TRT kanal"ı tərəfindən ona xüsusi olaraq kitablar, suvenirlər və qiymətli hədiyyələr verilib. 2014-cü ildə o, Gürcüstanın Tbilisi şəhərində keçirilən beynəlxalq uşaq rəqs festivalında iştirak edib və I yerə, 2015-ci ildə isə eyni məzmunlu rəqs festivalında II dəfə Azərbaycanı təmsil edib və diplomlarla mükafatlandırılıb. 2016-cı ildə Murad da bacısı kimi "Yaradıcı gənclər"in təşkil etdiyi rəqs festivalına qatılıb və II yerə layiq görülüb. Həmin ildə bacı-qardaş Ülkər və Murad Ağayevlər "Ölkəmizi tanıyaq" tur aksiyasının iştirakçısı olublar. Hazırda Ülkər və Murad Bakıdakı 31 nömrəli tam orta məktəbin X sinif şagirdləridir. Gələcəkdə hər ikisinin arzusu Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olmaqdır.

# Həm rəssam, həm də şahmatçı



Fuad Anzurov 2003-cü ildə Bakı şəhərində anadan olub. Paytaxtdakı fizika, riyaziyyat və informatika təmayüllü liseyin VIII sinfində təhsil alır. O, uşaqlıqdan rəsm çəkməyə həvəs göstərib. Bu həvəsi görən valideynləri onu Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinə yazdırıblar. Hazırda mərkəzin rəsm dərnəyində məşğul olur və müəllimi Nərminə Abdullayevadan bu sənətin sirlərini öyrənir. Fuad rəsmlərində milli üsluba, qrafikaya daha çox üstünlük verir. Çəkdiyi bütün rəsmlərdə rəng çalarlarından məharətlə istifadə edir. Mürəkkəb kompozisiyalar yaratmağa çalışır və çox vaxt da buna nail olur. Yeniyetmə istedad həm respublikadaxili, həm də beynəlxalq rəsm müsabiqəsinə mütəmadi olaraq qatılır və uğur qazanır. 2008-ci ildə 1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Vergi uşaqların gözü ilə" rəsm müsabiqəsində II yeri, 2010-cu ildə uşaqlar arasında "Təmiz şəhərim" adlı rəsm sərgi müsabiqəsində isə II yeri qazanıb. 2012-ci ildə "Dədə Qorqud" Fondu və "Azərbaycan dünyası" beynəlxalq jurnalı tərəfindən keçirilən "Dədə Qorqud uşaqların gözü ilə" sərgisində nümayiş olunan rəsmləri diploma layiq görülüb. O, 2015-ci ildə isə Polşada keçirilən XVIII beynəlxalq uşaq rəsm müsabiqəsinə qatılaraq gümüş medalla mükafatlandırılıb. 2016-cı ildə Polşada dahi rəssam Van Qoqa həsr olunmuş beynəlxalq uşaq sərgisində, həmin il Sloveniyada keçirilən XXII beynəlxalq uşaq rəsm müsabiqəsində, Xətai İncəsənət Mərkəzində keçirilən "Mənim düşüncəm" adlı rəsm müsabiqəsində I yerləri tutaraq diplomlara sahib olub. 2017-ci il Fuad Anzurov üçün daha uğurlu olub. Belə ki o, Yunanıstanda keçirilən "Musiqi yollarında" adlı beynəlxalq rəsm müsabiqəsində I yeri qazanıb. Fuad eyni zamanda I dərəcəli şahmatçıdır, dərslərini də yaxşı oxuyur. Riyaziyyat fənnini daha çox sevdiyini deyir. Fuada bütün arzularının reallaşmasında uğurlar diləyirik.

# Ecazkar səs sahibi uğurlarını artırmaq əzmindədir



Zeynalabdin Bağırzadə 2001-ci ildə Bakı şəhərində anadan olub. Paytaxtdakı 238 nömrəli tam orta məktəbin IX sinif şagirdidir. Hələ kiçik yaşlarından sevdiyi şair və yazıçıların şeirlərini əzbərləyib və xüsusi intonasiya ilə söyləmək bacarığına malik olub. Səlist danışığı, aydın diksiyası ilə seçilən bu gəncin istedad sahibi olması hamını heyran edib. Yüksək səhnə və nitq mədəniyyəti ilə seçilən Zeynalabdin Bağırzadə hazırda Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin gənc aktyorlar dərnəyində Xanım İsmayılovadan dərs alır. Məhz bütün nailiyyətlərinə də burada yiyələnib. Mərkəzin keçirdiyi tədbirlərdə fəal iştirak edərək dəfələrlə diplom və fəxri fərmanlarla mükafatlandırılıb. 2013-cü ildə o, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə Nizami rayon məktəbliləri arasında keçirilən "Sən elə bir zirvəsən" şeir müsabiqəsində II yeri qazanıb. 2014-cü ilin fevralında İstanbul şəhərində keçirilən "Xocalıya ədalət!" həftəsində "Xocalı", "Azərbaycan-Türkiyə" şeirlərini söyləyib. 2015-ci ildə 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə məktəblilər arasında "Müstəqilliyimiz əbədidir" mövzusunda keçirilən şeir müsabiqəsində I, 2016-cı ildə 9 noyabr - Azərbaycan Dövlət Bayrağı Günü münasibətilə Bakı şəhərində yerləşən orta ümumtəhsil müəssisələrinin şagirdləri arasında "Mənim bayrağım" mövzusunda keçirilən şeir müsabiqəsində I yerləri tutduğuna görə diplomlarla mükafatlandırılıb. Cəfər Cabbarlının poeziyasına həsr olunan şeir müsabiqəsində isə dramaturqun "Məhkum şərqə" şeirini söyləyərək aktyorluq məharətini nümayiş etdirib və iştirakçılarda xoş ovqat yaradıb. Zeynalabdin sevdiyi bu sənətin daşıyıcısı olacağına əmindir. Deyir ki, şeirin hər misrasını, hər bəndini söyləyərkən özünə qarşı çox tələbkar olur. Bədii qiraət elə də asan iş deyil, bədii qiraət incəsənətin bir növüdür, söyləyir. "Səlist nitq mədəniyyətinə sahib olmaq üçün çoxlu bədii ədəbiyyat oxumaq lazımdır. Gərək ecazkar səs sahibi olasan ki, öz məharətinlə tamaşaçıları və dinləyiciləri təəccübləndirəsən və onların alqışlarını qazanasan. Mən 2017-ci ilin mayında Türkiyədə keçiriləcək teatr festivalında iştirak edəcəyəm və "Arşın mal alan" filmindəki Soltan bəy obrazını canlandıracağam. Arzum Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq və rejissorluq fakültəsinə qəbul olmaqdır. Qəbul olacağıma da tam əminəm, çünki özümə, istedadıma güvənirəm".

**Səhifəni hazırladı: Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*
s.seferova@muallim.edu.az

# Elmi-pedaqoji kadr hazırlığı: mülahizələr

Azərbaycanda elmi-pedaqoji kadr hazırlığına Sovetlər Birliyi dövründən başlanılmışdır. Etiraf edək ki, Sovetlər Birliyinin 70 ili ərzində Azərbaycanda elmi-pedaqoji kadr hazırlığı sahəsində tarixi nailiyyətlər əldə edilmişdir. Məşhur rus alimlərinin yaxından köməyi ilə azərbaycanlılardan ibarət elmi-pedaqoji kadr hazırlığının bünövrəsi qoyuldu, Əhməd Seyidov, Mehdi Mehdizadə, Əliş Həsənov, Surxay Hacıyev, Mərdan Muradxanov, Vəlixan Mustafazadə, Dilrubə Mustafayeva və s. kimi pedaqoq alimlərin ilkin dəstəsi yetişdi. Keçən əsrin 60-70-ci illərində Əliheydər Həşımov, Nurəddin Kazımov, Ağahəsən Rzayev, Hüseyn Əhmədov, Aben Kərimov, Yusif Talıbov, Əjdər Ağayev, İbrahim Mollayev, Rəfiqə Mustafayeva və başqalarının şəxsində elmlər doktorları hazırlandı. Azərbaycan elmi-pedaqoji kadrların potensialı baxımından Sovetlər Birliyi məkanında öncül yerlərə qalxdı. Bütün bunların nəticəsi idi ki, əvvəllər doktorluq müdafiəsi üçün Tbilisi və Moskvaya üz tutulurdusa da, sonralar Ermənistandan, Gürcüstandan, Özbəkistandan, Türkmənistandan, Şimali Qafqazdan, hətta Moskvadan müdafiə üçün Bakıya, Azərbaycan Dövlət Pedaqoji İnstitutuna, onun ümumi pedaqogika kafedrasına müraciət edilirdi. İnstitutun vizit kartı hesab edilən ümumi pedaqogika kafedrası respublikada və bütövlükdə ölkədə şöhrət qazandı. Ölkənin tanınmış alimləri, o cümlədən N.K.Qonçarov, İ.S.Marjenko, Z.İ.Ravkin, V.A.Polyakov, F.A.Fradkin, V.V.Qaqua və başqaları rəsmi opponent sifətilə Bakıya gəlmiş, Azərbaycan alimləri isə İrəvan, Tbilisi, hətta Moskvada ixtisaslaşdırılmış Müdafiə Şuralarında rəsmi opponent kimi çıxış etmişlər. Bütün bunların nəticəsi idi ki, Sovetlər Birliyi dövründə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun 4 nəfər professoru, RSFSR və SSRİ PEA-ya seçildi (A.Abaszadə, M.Mehdizadə, S.İmanov və H.Əhmədov). Onlardan ikisi ümumi pedaqogika kafedrasının professoru idi. Bu, Azərbaycan pedaqoji elminin və ADPİ-nin ümumi pedaqogika kafedrasının tarixi nailiyyəti, uğuru idi.

Keçən əsrin sonlarında SSRİ-nin labüd süqutu nəticəsində müstəqillik əldə edən Azərbaycan Respublikasında elmi-pedaqoji kadr hazırlığı dövlətin diqqət mərkəzində olmuş, elm sahələrinə kifayət qədər vəsait sərf edilmişdir.

Respublikamızda əldə edilən təcrübə və ənənə bu gün də müvəffəqiyyətlə davam etdirilir. Digər elmi müəssisələr kimi Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən Dissertasiya Şurasında ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası (5804.01) ilə bərabər, həmçinin təlim və tərbiyənin nəzəriyyəsi və fənlərin tədrisi metodikası ixtisası (5801.01) üzrə dissertasiyalar uğurla müdafiə olunur. Son iki ildə bu Şurada 46 nəfər pedaqogika üzrə fəlsəfə doktoru, 5 nəfər isə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Əgər Sovetlər Birliyi illərində müdafiə üçün Bakıya müttəfiq respublikalardan gəlirdilərsə, bu gün Azərbaycana həm də qonşu İran və qardaş Türkiyədən gəlirlər.

Yeri gəlmişkən qeyd edək ki, bu Şurada fənlərin tədrisi metodikası ixtisası üzrə dissertasiyaların müdafiəsinə şərait yaradılması təqdirəlayiqdir.

Lakin elmi-pedaqoji kadr hazırlığında uğurlarımızla bərabər qüsurlar, müdafiə edilən dissertasiyalarda, nəşr edilən əsər və məqalələrdə təhriflər, elmi səhvlər və digər nöqsanlar da müşahidə edilir. Bunlardan bəzilərini qeyd etmək istərdim.

Əvvəlcə dissertasiyalarda özünü göstərən qüsurlar barəsində. Müşahidələrim göstərir ki, müdafiə edilən dissertasiyaların bir çoxunda, xüsusilə də pedaqogikanın və təhsilin tarixi üzrə fəlsəfə doktorluğuna təqdim edilmiş dissertasiyalarda mövzu o qədər də aktual deyil. Təhsilin tarixi üzrə təqdim edilən dissertasiyaların mənbələri qeyri-qənaətbəxşdir, ilk mənbələrə, arxiv sənədlərinə müraciət, mövcud ədəbiyyatın xülasəsi, bunlara tənqidi münasibət yox dərəcəsindədir. Tədqiqat üsulları məqbul deyil. Bəzi dissertasiyalarda elmi təhriflərə də yol verilir və göstərilən bu qüsurlar nədənsə rəsmi opponentlər, avtoreferatlara rəy verən müəssisələr və çıxış edənlər tərəfindən dilə gətirilmir.

Məsələn, bu yaxınlarda kimyanın tədrisi metodikası üzrə müdafiə edilən bir doktorluq dissertasiyasında silsilə qüsurlara rast gəldim. Dissertasiyada kimya fənninin tədrisi metodikasının inkişafı üç dövrə bölünür. Sovet hakimiyyətinə qədər olan dövr (1900-1920) birinci dövr hesab edilir. Burada qüsur odur ki, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1919-cu illər) Rusiyanın işğalı dövrü hesab edilir ki, bu, ciddi səhvdir.

İkinci dövr Sovet hakimiyyəti dövrü adlanır. Bu dövr 1 saylı sxemdə 1920-1991-ci illər, növbəti səhifədə isə nədənsə 1920-1988-ci illər kimi təqdim olunur.

1991-ci ildən bu günümüzə qədər olan dövr isə müstəqillik dövrü hesab edilir. İddiaçı bu dövrün özünü də üç mərhələyə bölür. 1993-1995-ci illəri bu dövrün ikinci mərhələsi adlandırır və müstəqilliyin bərqərar olması illəri hesab edir ki, bu da məqbul deyil. Mövcud mənbələrdə bu mərhələ 1993-1995-ci illər deyil, 1993-2003-cü illəri əhatə edir. Bu mərhələ Heydər Əliyev zirvəsi kimi tariximizə daxil edilmişdir. Bundan başqa, avtoreferatın 13-cü səhifəsində müstəqillik illəri üç mərhələyə böləndüyü halda, 33-cü səhifədə - "Rezume"də iki dövrə böləndüyü göstərilir.

Fikrimcə, metodika sahəsində əsər yazan dissertantlar əvvəlcə məktəb tarixini bilməlidir. Belə ki, tədris fənləri məktəblə bağlıdır, məktəblərdə tədris edilir.

Bəzi dissertasiyalarda fənlərin tədrisi metodikasının müstəqil elm sahəsi hesab edilməsi, hətta bu fənnin orta ümumtəhsil məktəblərində də tədris edilməsi təklifləri irəli şürülür ki, bu da yersizdir. Təxminən, son 100 il ərzində nəşr edilən bütün pedaqogika dərsliklərində və dərs vəsaitlərində, məqalələrdə metodikalar pedaqogika elminin tərkib hissəsi hesab edilmiş və pedaqoji elmlər sisteminə daxil edilmişdir.

Metodikaların bir tədris fənni kimi pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərlə yanaşı, həm də orta ümumtəhsil məktəblərinin də tədris planlarına daxil edilməsi təklifinə gəldikdə isə demək istərdim ki, əlbəttə ki, müdafiə edilən dissertasiyalarda irəli sürülən təklif, - əgər onun elmi dəyəri varsa, - bu və ya digər sahəyə, təcrübəyə tətbiq edilməlidir. Elmlərin inkişafı da bunu tələb edir. Lakin metodikanın orta ümumtəhsil məktəblərində də tədris edilməsi təklifi məqbul sayıla bilməz. Çünki orta məktəb kimya müəllimi hazırlamır. Orta məktəbdə elmlərin əsasları öyrədilir.

Başqa bir misal: "Azərbaycanda 1918-ci ilədək gimnaziya, real, ali-ibtidai, "rus-tatar" məktəblərində kimya fənninin tədris edilməməsi, kimyanın müstəqil fənn kimi yalnız XX əsrin əvvəllərindən tədris planına daxil edilməsi" kimi fikirlər tamamilə yanlışdır. Əlimizdə olan arxiv sənədlərində, ilk mənbələrdə son zamanlar aparılmış tədqiqatların nəticəsi kimi respublikamızda nəşr edilmiş monoqrafiyalarda kimyanın müstəqil bir fənn kimi çox-çox əvvəllərdən tədris edilməsi göstərilir.

Dövlət arxivlərində Bakı realnı məktəbinin müəllimlərinin müvəffəqiyyəti və işə can yandırmasına aid bir sıra sənədlər vardır. Onlardan birinə nəzər salaq.

QTD-nin popeçiteli Bakı realnı məktəbinin birinci buraxılışının müvəffəqiyyəti ilə əlaqədar olaraq, 1871-ci il iyulun 13-də Bakı məktəblər direksiyasının direktoruna yazdığı məktubda buraxılış imtahanlarının müvəffəqiyyəti üçün gimnaziyanın inspektoruna, müəllimlərinə, xüsusilə *kimya müəllimi Novitskiyə* (kursiv bizimdir - H.Ə.), riyaziyyat müəllimi Çerntsova və Kojevskiyə, tarix müəllimi Levitskiyə özünün səmimi təşəkkürünü bildirmişdir. Popeçitel Novitskinin fəaliyyətini ayrıca qiymətləndirir və qeyd edir ki, onun özünün tədris etdiyi fənnə şagirdlərdə sevgi təlqin etməsi və onların kimyadan əla müvəffəqiyyəti, bununla bərabər laboratoriyanın gözəl təşkili və şagirdlərin işlərində qayda qoyulması və s. cənab Novitskini mənim tabeliyimdə olan təlim dairəsinin ən yaxşı müəllimləri sırasında hesab etməyə əsas verir" (Bax: Циркуляр попечителя КУО, 1871, № 5, 6. стр.12-13).

Kimyanın müstəqil bir fənn kimi mədrəsələrdə də tədris edilməsinə aid maraqlı mənbələr mövcuddur.

Məlum olduğu kimi, bir sıra elm sahələri kimi kimya da Şərqdə, qədim Misirdə meydana gəlmiş, inkişaf etmiş, Azərbaycan mədrəsələrində tədris edilmiş, sonralar hətta Avropaya inteqrasiya edilmişdir.

Müdafiə edilmiş dissertasiyaların bir çoxunda tədqiqat üsulu kimi pedaqoji eksperimentdən bəhs edilir ki, belə mövzuların tədqiqində bu üsulu tətbiq etmək olmaz (məsələn, ailə tərbiyəsi ilə bağlı mövzularda).

Avtoreferatlarda 20-30 müəllifin adı hallanır, lakin bunlardan heç birinin bir əsərinin adı belə çəkilmir. Bəzən isə bir qrup alimin adı çəkilir. Sonda isə göstərilir ki, "lakin bunlardan heç biri bu mövzu ilə bağlı fikir söyləməmişlər".

Türkiyə və Azərbaycan folkloru ilə bağlı müdafiə edilən dissertasiyada bir sıra maarifçilərin, o cümlədən Firudin bəy Köçərlinin yalnız adları qeyd edilir. Lakin onların heç birinin əsər və ya məqalələrinin adı belə çəkilmir. Halbuki belə tədqiqatlarda istər qardaş Türkiyə, istərsə də Azərbaycan maarifçilərinin xidmətləri öz əksini tapmalı, dəyərləndirilməli idi.

Son vaxtlar nəşr olunan məqalələrdə təhriflər, elmi cəhətdən əsaslandırılmayan fikirlərə münasibət bildirməyi də faydalı hesab edərdim. Belə yazılar oxucuları çaşdırır, elmdə dolaşıqlıq əmələ gətirir. Bəzi faktlara müraciət edək. Kirovabad (Gəncə - H.Ə.) şəhərindəki M.Qorki adına 1 nömrəli məktəbin yubileyi ilə əlaqədar bir materialda oxuyuruq: "Görkəmli Azərbaycan şairi, maarifçisi və ateisti Mirzə Şəfi Vazeh bu məktəbin *yaradıldığı illərdə orada ilk müəllim,* Azərbaycan dramaturgiyasının banisi M.F.Axundov isə məktəbin ilk *şagirdləri* sırasında olmuşlar".

Tamamilə yanlışdır. Əsası 1833-cü il fevralın 18-də qoyulmuş Gəncə qəza məktəbinin fəaliyyətinin ilk illərində, yəni 1846-cı ilə qədər orada Azərbaycan dilindən (və şəriətdən) Molla Abdulla Əliməmməd oğlu dərs demişdir. M.Ş.Vazeh həmin məktəbdə sonralar, 1846-cı ilin sentyabrından 1850-ci ilin yanvarına qədər işləmişdir. M.F.Axundov isə Gəncə deyil, Nuxa (Şəki) qəza məktəbinin ilk şagirdlərindən olmuşdur.

"Gəncə məktəbinin ilk dərsliyi" sərlövhəli başqa bir məqalədə A.A.Bakıxanovun "Qanuni-Qüdsi" adlı əsəri bu məktəbin ilk dərsliyi hesab edilir. Halbuki qəza məktəblərinin tədris planında fars dili olmamışdır. Bu məktəblərdə tədris rus dilində idi. Yerli dil kimi Azərbaycan dili tədris edilmişdir. Məqalədə daha sonra oxuyuruq: "M.F.Axundov səs üsulu ilə yazdığı dərsliyini əsrin ikinci yarısında çap etdirdi". Tamamilə səhv fikirdir. M.F.Axundov belə bir dərslik yazmamış və onun belə bir dərsliyi çap edilməmişdir. Qələm dostlarımızdan biri M.F.Axundzadəni Zaqafqaziya Şeyxülislamı Əbdüssəlam Axundzadə ilə qarışıq salmışdır. M.F.Axundovun irsinə yersiz əlavələr etməyə, bir növ yamaq vurmağa ehtiyac yoxdur. Məqalə müəllifinin "Gəncə şəhərində 1830-cu ildən fəaliyyət göstərən oğlan gimnaziyası bir tədris ocağı kimi diqqəti cəlb edirdi..." fikri də yanlışdır. Gəncədə oğlan gimnaziyası (klassik gimnaziya) çox sonralar, yəni 1870-ci il iyulun 1-də açılmışdır.

Məqalələrdən birində deyilir ki, Ü.Hacıbəyli və H.Mahmudbəyov Qori Müəllimlər Seminariyasında A.O.Çernyayevskinin şagirdi olmuş, müəllimliyin sirlərini ondan öyrənmişlər. Əslində nə Ü.Hacıbəyli, nə də H.Mahmudbəyov A.O.Çernyayevskinin şagirdi olmamışlar. Belə ki, Həbibbəy Mahmudbəyov Qori seminariyasında deyil, Tiflis Müəllimlər İnstitutunda oxumuşdur. Üzeyir bəy Hacıbəyli isə Qori Seminariyasında oxuduğu zaman (1899-1904) A.O.Çernyayevski orada işləməmişdir. O, xeyli əvvəl, 1894-cü il dekabrın 14-də vəfat etmişdir. Hərçənd ki, onun vəfatının tarixi də bir sıra sanballı kitablarda səhvən 1897-ci ilə aid edilir.

Bəzi müəlliflər tədqiqat aparmadıqlarından dövlət məktəbləri ilə, o cümlədən XIX əsrin 80-ci illərində meydana gələn Bərdə, Xaçmaz, Padar, Ağdaş və Ağdam kənd məktəbləri ilə xüsusi təhsil ocaqları olan "rus-tatar" (rus-Azərbaycan) məktəblərini qarışıq salırlar. Əslində, 1875-ci il yanvarın 2-də əsası qoyulmuş və 1878-ci ildən zemstvo məktəbinə çevrilmiş Salahlı kənd "rus-Azərbaycan" məktəbi nəzərə alınmazsa, bütün XIX əsr ərzində Azərbaycan kəndlərində göstərilən tipdə tədris müəssisəsi olmamışdır.

Yubiley xarakterli yazılarında bəzi müəlliflər əsaslı tədqiqat aparmadan, ilk mənbə, arxiv sənədi üzü görmədən, bolluca istifadə etdikləri kitab və məqalələrin müəllifini göstərmədən, daha doğrusu, səhifələri bütövlükdə, bəzən də təhrif olunmuş şəkildə köçürürlər. Bu da bir növ ədəbi oğurluqdur. Belə yazılar nə əqlə qida verir, nə də elmə fayda. Əksinə, vaxt ötdükcə onlar bir mənbəyə çevrilir və mədəniyyət tariximizdə dolaşıqlığa səbəb olur. Ayrı-ayrı qəzet və jurnallarda, habelə kitablarda özünə yol tapan belə dəqiq olmayan faktlar və ifadələr nəticə etibarilə tarixi təhrifə gətirib çıxarır.

Bu cür qüsurlara dair faktların sayını artırmaq da olar. Fikrimizcə, bunlar da kifayətdir. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdəki çıxışında demişdir ki, biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq. Təəssüf ki, əvvəlki dövrlərə aid tariximizdə çox fikirlər təhrif olunub, indi də təhrif edilir. Əgər o vaxt bir istiqamətdə təhrif olunurdusa, indi başqa bir istiqamətdə təhrif edilir.

Ulu öndərin tarixçilərin qarşısına qoyduğu vəzifələr məktəb və pedaqoji fikir tarixini tədqiq edənlərə - pedaqogika tarixçilərinə də aiddir. Tarixçi tarixin keşikçisidir. O, öz elminin keşiyində ayıq-sayıq olmalıdır.

Zənnimizcə, qeyd olunan qüsurlar bir sıra səbəblərdən irəli gəlir.

*Birinci səbəb* odur ki, gənc tədqiqatçılar öz əsərlərini köhnə materiallar əsasında yazırlar. Yəni Sovetlər Birliyi dövründə nəşr edilən mənbələrə istinad edirlər. Bunlar isə o dövrün tələbləri, kommunist-bolşevik ideologiyasının təsiri altında yazılmış əsərlərdir ki, onlardan nihilizm qoxusu gəlir. Bu qəbildən olan əsərlərdə Azərbaycan xalqının inqilabdan əvvəl başdan-başa savadsız olması, məktəb və mədrəsələrimizin yalnız dini təlim verməsi kimi yanlış fikirlər uzun zaman yer almışdır.

*İkinci səbəb* budur ki, gənc tədqiqatçılar Azərbaycan xalqının tarixi, o cümlədən məktəb və pedaqoji fikir tarixinə aid zəngin materialların saxlanıldığı arxivlərə, - bu gün qonşu ölkələrin dövlət arxivlərinə üz tutmurlar və bu da bir sıra səbəblərlə bağlıdır.

*Üçüncü səbəb* isə budur ki, gənc tədqiqatçılar son illər yeni təfəkkür baxımından nəşr olunan əsərləri oxumurlar.

Bu fikirlərimi qeyd etməkdə yeganə məqsədim elmə gələn gəncləri belə qüsurlardan xilas etməkdir. Nəzərə almaq lazımdır ki, bu gün özünü göstərən qüsurlar sabah mənbəyə çevrilir və gənc tədqiqatçılar da bu mənbələrə istinad edirlər. Beləliklə, səhvlər, qüsurlar get-gedə daha da dərinləşir.

Respublikamızda pedaqoji tənqidin olmaması və ya zəif olması da elmdə yeni-yeni səhvlərin ayaq açmasına imkan verir.

**Hüseyn ƏHMƏDOV,**
*pedaqoji elmlər doktoru, professor, Rusiya Dövlət Təhsil Akademiyasının akademiki, Prezident təqaüdçüsü*

## Gözəgörünməz robot hazırlanıb



Massaçusets Texnologiya İnstitutunun tədqiqatçıları parametrlərinə görə digər materiallardan fərqlənən hidrogelin yeni növünü yaratmağa müvəffəq olublar. Yeni materialın imkanlarının nümayişi üçün tədqiqatçılar akvariumda kiçik balıqları tutmaq və saxlamaq imkanına malik şəffaf gözəgörünməz robot istehsal ediblər. **www.dailytechinfo.org** saytının məlumatına görə, gözəgörünməz robotlarda hidrogelli gövdə şəbəkə vasitəsilə müəyyən konfiqurasiyaya malik boşluğa daxil edilib. Hidravlik sistem boşluqların müəyyən seksiyalarına su yığmaq üçün təşkil edilib. Doldurulmuş və boş seksiyaların kombinasiyaları robotun bədənini müəyyən yolla sıxmağa və digər hərəkətlər etməyə imkan verir. "Robotu suda görmək mümkün deyil, çünki o, özü 99 faiz sudan ibarətdir. Bərk materialdan istehsal edilmiş istənilən manipulyatordan fərqli olaraq robot balığı onun kövrək gövdəsinə ən kiçik zərər belə yetirmədən tuta və saxlaya bilər", - professor Xuanhe Jao bildirib.

Bundan başqa, hidrogelli robot bioloji cəhətdən pasiyentin bədəninə tam uyğun olan təbii materialdan istehsal edilə, həmçinin təbii maye ilə doldurula bilər ki, bu da insanın orqanlarının işinə əvəzolunmaz kömək göstərər.

## Yeni əməliyyat sistemi təqdim olunub



Proqramçı Kevin Lencinin rəhbərlik etdiyi mütəxəssislər qrupu yeni əməliyyat sistemini təqdim edib. "ToaruOS" adlanan platformanın əsasını "Linux" nüvəsi təşkil edir və sistem "C+" dilində yazılıb.

**www.dni24.com** saytının məlumatına görə, bu sistem üçün artıq çox sayda optimallaşdırılmış proqram təminatı və oyunlar mövcuddur. Platformanı hər kəs yükləyərək quraşdıra bilər.

Hazırda sistemin stabil işi təmin olunub və yaxın zamanda sistem yaradıcıları aşkarlanan səhvləri düzəltmək və ümumilikdə işi yaxşılaşdırmaq məqsədilə yenilənmə təqdim etməyi planlaşdırırlar.

"ToaruOS" təkcə standart fərdi kompüterdə deyil, həm də smartfon və planşetlər vasitəsilə dəstəklənir. Əsas fərqləndirici cəhəti elastikliyində olan sistemi geniş istifadəçi ehtiyaclarına uyğun quraşdırmaq mümkündür.

"ToaruOS" üçün tətbiq və oyunların əksər hissəsi "Python" proqramlaşdırma dili vasitəsilə yaradılıb. Əvvəlcə sistem tədris materialı kimi yaradılsa da, sonradan onun tam proqram məhsulu şəklinə salınması qərara alınıb.

## Dünyada ən sürətli yaddaş kartı




"Sony" şirkəti SF-G UHS-II SD-yaddaş kartlarını təqdim edərək onları "dünyada ən sürətli" adlandırıb. Oxuma və yazma sürəti müvafiq olaraq 300 MB/s və 299 MB/s təşkil edir. 32, 64 və 128 QB həcmli kartlar zərbə, temperatur fərqi, su və rentgen şüasının təsirlərinə dözümlü korpusdan ibarət olacaq.

**www.itc.ua** saytının məlumatına görə, SF-G standart kart-rider (card reader) vasitəsilə fərdi kompüterə qoşulduqda məlumatların ötürülməsinin yüksək göstəricilərini əldə etmək mümkün olmayacaq. Bu səbəbdən Sony USB W - S1 qadcetindən USB 3.1 formatının dəstəyilə istifadə etmək tövsiyə edilir.

Yeni SD-kartlar yüksək təsvir ölçüsünə malik foto və videoların çəkildiyi texnikalarda tətbiq ediləcək. SF-G UHS-II-nin satışlarına bu ilin martında başlanılacaq. Onun təxmini qiymətinin nə qədər olacağı hələlik məlum deyil.

**www.ikt.az saytının materialları əsasında hazırladı: Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*

# Yeni informasiya texnologiyalarının tədrisə tətbiqində müəllimin rolu

**İlahə FAZİLOVA,**
*"Təhsildə İnnovativ Texnologiyalar-İTE" əlavə təhsil mərkəzinin dövlət proqramları üzrə mütəxəssisi, "Elektron təhsil" və "Ən yaxşı müəllim" müsabiqələrinin qalibi*



XXI əsrdə məktəbin necə olması məsələsi pedaqoq alimləri daim düşündürür. Görkəmli Amerika pedaqoqu Fillip Şlexti "XXI əsrin məktəbi. Təhsil islahatının prioritetləri" əsərində sahibkarlarla, iş adamları və məktəb funksionerləri ilə çoxsaylı sorğular apardığını və onların məktəbdən nə istədiyini soruşduğunu yazır. Qeyd edir ki, sorğunun nəticəsinə əsasən müasir cəmiyyətə müstəqil öyrənməyi, məqsədinə çatmaq üçün yollar tapmağı, problemləri müxtəlif müasir informasiya vasitələrindən istifadə etməklə həll etməyi bacaran şəxsiyyətlər lazımdır. Bunun üçün müasir dövrdə müəllim şagirdi inkişafa yönəlmiş bir şəxsiyyət kimi yetişdirməli, sərbəst və davamlı öyrənmə vərdişləri formalaşdırmalıdır. Bəs öyrənmə prosesini necə etmək olar ki, şagirdlərin maraqlarına cavab versin və onlar bu prosesə həvəslə cəlb olunsunlar? Müasir şagirdlərin maraq dairəsini nəzərə alsaq görərik ki, İKT-dən istifadə onların diqqətini cəlb edən bir sahədir.

Ümumilikdə İKT təhsil üçün aşağıdakı kimi geniş imkanları yaradır:

* Hər şagird üçün fərdi yanaşma imkanı yaradır, onların öyrənmə prosesini daha cəlbedici edir və motivasiyalarını artırır, müstəqil fəaliyyətini intensivləşdirir;

* Müxtəlif elektron materiallardan yararlanma imkanı yaradır;

* Tədris prosesinin daha maraqlı olması üçün multimediadan istifadə etmək imkanı yaradır;

* İnternetin ünsiyyət alətlərindən istifadə etməklə digər ölkələrdə, yaxud bölgələrdə yaşayan şagirdlərlə və ya mövzunun öyrənilməsinə səmərəsini verə biləcək mütəxəssislərlə əlaqə saxlamaq imkanı verir;

* Virtual laboratoriyalarda fənlərlə bağlı təcrübələrin aparılması imkanı yaradır;

* Şagirdlərin nailiyyət səviyyəsinin izlənilməsini təmin edir.

Müasir dövrün tələblərindən irəli gələn bu dəyişikliklərin məktəblərdə uğurla tətbiq edilməsi müəllimin də tədris prosesinə fərqli yanaşmasını zəruri edir. Artıq müəllimin məqsədi məktəblilərdə qərar qəbul etmə bacarığını dəstəkləmək və inkişaf etdirmək, onların öyrənilən mövzuların məqsədini anlaması üçün tənqidi, məntiqi və yaradıcı təfəkkürünü inkişaf etdirmək və sərbəst tədqiqata sövq etməkdir. İKT-dən istifadənin pedaqoji məqsədlərinə nəzər salaq:

* Öyrənənin informasiya cəmiyyətində faydalı fəaliyyətə cəlb olunması üçün onun fərdi inkişafını təmin edir;

* Düşünmə qabiliyyətini və tənqidi təfəkkürü inkişaf etdirir;

* Öyrənənin ünsiyyət-kommunikativ bacarıqlarını inkişaf etdirir;

* Müxtəlif sahələr üzrə elmi axtarış və tədqiqat bacarığı yaradır;

* Çevik qərar qəbuletmə bacarığına yiyələndirir;

* İnformasiya mədəniyyətini formalaşdırır;

* Öyrənən informasiya cəmiyyətinin tələblərinə cavab verir;

* Öyrənəni sərbəst idrak fəaliyyətinə cəlb edir;

* Öyrənəni sağlam rəqabətə hazırlayır;

* İKT-dən məqsədli surətdə istifadə edən mütəxəssislər hazırlayır;

* Təlim və tədris prosesini daha da dərinləşdirir və intensivləşdirir;

* İdrak fəaliyyətini aktivləşdirərək öyrənmə prosesinə qarşı maraq yaradır;

* Tədris prosesinin səmərəliliyi və keyfiyyəti artırılır, informasiya daha əlçatan və cəlbedici olur;

* Fənlərarası inteqrasiya imkanları yaradır.

Məlumdur ki, şagirdlərin İKT-dən faydalı və məqsədyönlü istifadəsini təmin etmək üçün müəllimlər tədris prosesində İKT-dən səmərəli istifadə bacarığına yiyələnməlidirlər. Gəlin görək tədris prosesində İKT-dən səmərəli istifadə üçün müəllimlər hansı İKT kompetensiyalarına (səriştəliliyə) malik olmalıdırlar? İKT kompetensiyaları tədris prosesində və ya tədris prosesindən kənar İKT-dən istifadə etməklə öyrənmənin təşkili üçün qarşıya çıxan texniki və metodiki problemləri peşəkarcasına həlletmə bacarığıdır.




İKT kompetensiyalarını xarakterinə görə iki istiqamətdə qruplaşdırmaq olar:

Bəs görəsən İKT üzrə ümumi və peşəkar kompetensiyalar dedikdə nə başa düşülür? Bu kompetensiyalara malik müəllimlər hansı bacarıqlara malik olmalıdırlar?

| Xarakterinə görə İKT kompetensiyaları | |
|---|---|
| **İKT üzrə peşəkar kompetensiyalar** | **İKT üzrə ümumi kompetensiyalar** |
| • Fərdi kompüterlərin əsas və əlavə qurğularından iş prosesində istifadə edir;<br>• Hazırladığı mətnə cədvəllər, diaqramlar, şəkillər əlavə edir və əlavə etdiyi obyektlər üzərində müəyyən formatlaşdırma işləri aparır;<br>• İnformasiya axtarışında internetdən səmərəli istifadə edir;<br>• Müxtəlif cədvəllər hazırlayır, hazırladığı cədvəllərə düsturlar, funksiyalar tətbiq edir və daxil etdiyi məlumatın diaqramını çıxarır;<br>Sadə məlumat bazası və müxtəlif elektron sorğular, hesabatlar hazırlayır. | • Öyrənmə prosesinin təşkili üçün İnternetdən müxtəlif resurslar tapır;<br>• Didaktik materialların və elektron tədris resurslarının hazırlanmasında müxtəlif kompüter proqramlarından istifadə edir;<br>• Cədvəl prosessorundan istifadə etməklə şagird nailiyyətlərinin reytinqlərinin izlənməsi üçün avtomatik hesablamaları özündə əks etdirən cədvəl və diaqram hazırlayır;<br>• Tədrisə yararlı müxtəlif kompüter proqramlarından istifadə etməklə interaktiv test və tapşırıqlar hazırlayır;<br>İnternetdən istifadə edərək öz şəxsi resursunu hazırlayır və internet icmalarda paylaşır. |

Sürətlə dəyişən informasiya cəmiyyətinin tələbinə uyğun olaraq nəzərdə tutulan bu kompetensiyalar təbii ki, zaman keçdikcə daha da təkmilləşə bilər.

İKT üzrə kompetensiyaları məzmun və pedaqoji təyinatına görə də iki istiqamətdə qruplaşdırmaq olar:

* Ümumi pedaqoji təyinatına görə - tədris və tərbiyə prosesində informasiya texnologiyalarından ümumi istifadə bacarıqlarını özündə əks etdirir;

* Fənn üzrə təyinatına görə - fənnin xüsusiyyətlərini özündə birləşdirərək xüsusi istiqamət üzrə informasiya texnologiyalarından istifadə bacarıqlarını əks etdirir.

Ümumiyyətlə, İKT-dən istifadə edən müəllim daim yeni təlim və informasiya texnologiyalarını öyrənməyə, beynəlxalq təcrübələrdən yararlanmağa həvəsli olur. Belə müəllim fasiləsiz öyrənmə vərdişinə yiyələnir və öyrənmə prosesində əldə etdiyi şəxsi təcrübələri şagirdlərlə bölüşməyə, onlarda da fasiləsiz öyrənmə bacarıqları formalaşdırmağa maraqlı olur. Psixoloq və filosof Jan Piaje və psixoloq Brunerin fikrincə, alınan məlumatın qavranılma səviyyəsi öyrənmə prosesinin özünün maraqlı və cəlbedici olmasından asılıdır. Öyrənmə prosesinin maraqlı və cəlbedici olmasında isə İKT-dən istifadənin rolu əvəzsizdir.

Aparılan müşahidələrə uyğun olaraq müəllimlər İKT-ni tədris prosesində əsasən aşağıdakı istiqamətlərdə tətbiq edirlər:

* Tədris prosesində və tədris prosesindən kənar təlim-tərbiyə prosesində;

* Şagirdlərin müstəqil idrak fəaliyyətinin və araşdırma bacarıqlarının formalaşdırılmasında;

* Didaktik materiallar hazırlamaq üçün yardımçı vasitələrdən biri kimi;

* Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi prosesində;

* Məktəbdaxili və məktəbdənkənar icmalarla ünsiyyətin formalaşdırılmasında.

İKT-dən uzunmüddətli istifadə zamanı yaranan mənfi vərdişlərin aradan qaldırılması da diqqət mərkəzində durmalıdır.

İnformasiya axtarışı zamanı internetdən istifadə:

* Axtarış saytlarından istifadə zamanı şagirdlərə müxtəlif yararlı olmayan informasiyaları özündə əks etdirən və ya etik normalara uyğun olmayan internet ünvanlar təqdim oluna bilər. Bu mənfi hallarla qarşılaşmamaq üçün müəllimlər məktəbdə şagirdlərin istifadə etdiyi kompüterlərə müxtəlif filtrlər qoya bilərlər. Eyni zamanda bu məsələ ilə bağlı müəllim valideynlərlə də sıx əməkdaşlıq qurmalı və internetdən istifadə qaydalarına aid onlarla da maarifləndirici söhbətlər aparmalıdır. Məsələnin digər həlli yolu isə müəllimin şagirdlərə istənilən informasiyanın axtarışı zamanı konkret olaraq bir neçə informasiya mənbələri - internet ünvanları təklif etməsidir;

* İstənilən məsələnin həlli üçün internetdə mövcud olan və müəlliflik hüququ başqalarına aid olan mənbədən, hazır materiallardan istifadə;

* Təbii ki, şagird istənilən mənbədən aldığı informasiyadan yararlana bilər, amma həmin informasiyanı özünün yaratdığı məhsul kimi təqdim edə bilməz. Bu həm müəllif hüquqlarının pozulması, həm də şagirdlərin başqalarının təqdim etdiyi hazır bilikdən istifadə etməsi deməkdir. Müəllim şagirdlərlə bu istiqamətdə maarifləndirici söhbətlər aparmalı, onlarda informasiya mədəniyyəti (informasiyadan istifadə zamanı mənbənin göstərilməsi və s.) və müəyyən qaydalara riayət etmə bacarığı formalaşdırmalıdır;

* Kompüterdən istifadə zamanı vaxt itkisinə yol verilməsi və internet aludəçiliyin yaranması;

* Şagird hər hansı informasiyanın axtarışı, virtual laboratoriyadan istifadə, hər hansı interaktiv testlərin həll olunması və s. zamanı çox vaxt həmin tapşırıq üçün ayrılan vaxta düzgün riayət etmir, müxtəlif mənbələrdən məqsədsiz istifadə edərək vaxt itkisinə yol verir. Bunun üçün müəllim şagirdləri kompüterdən düzgün və təhlükəsiz istifadə qaydaları ilə tanış etməli, İKT-dən səmərəli istifadə üçün onda müəyyən vərdişlər formalaşdırmalıdır;

* Müasir dövrün tələblərinə cavab verə bilən, çevik zəkaya sahib, əldə etdiyi informasiyanı düzgün təhlil edə bilən və həyati bacarıqlara çevirən, milli və ümumbəşəri dəyərlərə malik şəxsiyyət yetişdirmək üçün müəllim istənilən təlim texnologiyasından, eləcə də informasiya texnologiyalarından məqsədyönlü istifadə etməli, əsas diqqəti fənnin məqsədinə yönəltməli və İKT-dən fənnin məqsədinə nail olmaq üçün səmərəli vasitə kimi istifadə etməlidir. Çünki istənilən təlim texnologiyası yalnız ondan düzgün istifadə edildikdə öz müsbət təsirini göstərə bilər. Unutmaq lazım deyil ki, İKT tədris prosesinin daha maraqlı və cəlbedici olması üçün sadəcə köməkçi vasitədir, bu köməkçi vasitədən məqsədyönlü və ehtiyaca uyğun istifadə hər müəllimin vəzifəsidir.

# Həyat bilgisindən dərs nümunəsi

**Aynur CƏFƏROVA,**
*"Unikal-1" MMC-nin təlimçisi, Mingəçevir şəhər Dilqəm Nağıyev adına 9 nömrəli tam orta məktəbin coğrafiya müəllimi*

*Fənn:* Həyat bilgisi
*Sinif:* V
*Mövzu:* Mənəvi borc
*Standart :* 3.2.2. Mənəvi borcun əhəmiyyətini izah edir.
3.2.1.Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir.
*Məqsəd:*
1. Cəmiyyət qarşısında mənəvi borcun əhəmiyyətini izah edir.
2. Mənəvi borcun təbiət, ailə, cəmiyyət, dövlət qarşısında əhəmiyyətini izah edir.
3. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir.
*İnteqrasiya:* 1.1.4 Ədəbiyyat
*İş forması:* kollektiv iş, qruplarla iş.
*İş üsulu:* beyin həmləsi, müzakirə, klaster
*Resurslar:* Dərslik, iş vərəqləri, videoçarx.

*Motivasiya:* Şagirdlərdən borcları olub-olmadığı soruşulur. Sonra Ə.Kərimin " Qaytar ana borcunu" şeiri səsləndirilir. Şeir parçasında hansı borcdan söhbət getdiyi müzakirə olunur. Şagirdlər müzakirələr nəticəsində mövzunun adını aşkara çıxarırlar. Daha kimlərə və nələrə qarşı mənəvi borcumuzun olduğu müzakirə edilir və slaydlar nümayiş olunur.




*Tədqiqat sualı:* İnsanın kimlər qarşısında hansı mənəvi borcu var?

*Tədqiqatın aparılması:* Şagirdlər 5 qrupa ayrılır. Qruplara tapşırıqlar verilir.

*Qrup 1.* "Ailə" qrupu
1. "Ailə qarşısında borc" dedikdə nəyi başa düşürsünüz?
2. Ailə haqqında hansı atalar sözünü bilirsiniz?

*Qrup 2.* "Cəmiyyət" qrupu
1. "Cəmiyyət qarşısında borc" dedikdə nəyi başa düşürsünüz? Fikrinizi əsaslandırın.
2. Dostluq, yoldaşlıq haqqında hansı atalar sözünü bilirsiniz?

*Qrup 3.* "Dövlət" qrupu
1. "Vətən qarşısında borc" dedikdə nəyi başa düşürsünüz? Fikrinizi əsaslandırın.
2. Vətən haqqında hansı atalar sözünü bilirsiniz?

*Qrup 4.* "Təbiət" qrupu
1. "Təbiət qarşısında borc" dedikdə nəyi başa düşürsünüz? Fikrinizi əsaslandırın.
2. Təbiət, torpaq haqqında hansı atalar sözünü bilirsiniz?

*Qrup 5.*
1. "Məktəb qarşısında borc" dedikdə nəyi başa düşürsünüz? Fikrinizi əsaslandırın.
2. Elm, bilik haqqında hansı atalar sözünü bilirsiniz?

*Məlumatın mübadiləsi və müzakirəsi.* Qrup liderləri öz təqdimatlarını edirlər. Təqdimatlar müzakirə olunur.

*Nəticə və ümumiləşmə.*
1. Şagirdin mənəvi borcu haqqında biz nə öyrəndik?
2. Bu borc kim qarşısında nə üçün yerinə yetirilməlidir?
3. Vətəndaşlıq borcu haqqında biz nəyi öyrəndik?
4. Vətəndaş cəmiyyətdə qəbul olunmuş qaydaları pozsa, nə baş verə bilər?

**Qiymətləndirmə**

| Meyar / Qruplar | I qrup | II qrup | III qrup | IV qrup | V qrup |
|---|---|---|---|---|---|
| Tapşırığın tam və düzgün yerinə yetirilməsi | | | | | |
| Tərtibat | | | | | |
| Təqdimat | | | | | |
| Yekun | | | | | |

**Qiymətləndirmə**

Meyarlar: *izahetmə, fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mənəvi borc anlayışı haqqında fikirləri söyləyir | Mənəvi borc anlayışı haqqında ümumi sözlər söyləyir.Onun əhəmiyyətini izah etməyə çalışır | Cəmiyyət qarşısında mənəvi borcun əhəmiyyətini müəllimin istiqamətləndirici suallarının köməyi ilə izah edir. | Cəmiyyət qarşısında mənəvi borcun əhəmiyyətini əsaslandıraraq sərbəst izah edir |
| Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirməkdə çətinlik çəkir. | Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirməyə çalışır. | Əxlaq və davranışlara təsir edən amilləri müəllimin köməyi ilə fərqləndirir. | Əxlaq və davranışlara təsir edən amilləri misallarla sərbəst fərqləndirir. |

*Ev tapşırığı:* Jurnallardakı şəkillərdən, rəngli karandaşlardan istifadə edərək "Vətənimizlə fəxr edirəm" adlı foto-albom hazırlayın.

Molla Pənah Vaqif - 300

# Molla Pənah Vaqifin yaradıcılıq xüsusiyyətləri



Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri olan Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Mədəniyyətimiz, ədəbiyyatımız tarixində xidməti olan elm və sənət adamlarının xatirəsi dövlətimiz tərəfindən əziz tutulur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" sərəncam vermişdir. Sərəncamda deyilir: "Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir". Molla Pənah Vaqif Azərbaycan elmi ictimaiyyəti, ziyalıları, ümumiyyətlə xalqımız üçün çox əzizdir. O, anadan olanda valideynləri- atası Mehdi, anası Ağqız ona sadəcə "Pənah" adı vermişlər. Təxəllüs kimi götürdüyü "Vaqif" sözü isə onun hər şeyə bələd, zəngin bilik sahibi olduğunu göstərir. Xalqımızın yaratdığı bir ifadə var: "Hər oxuyan Molla Pənah olmaz". Bəli, Molla Pənah haqqında söylənən bu deyimləri anlamaq üçün ədəbiyyatımızda, mədəniyyətimizin inkişafında Vaqifin xidmətlərini bilmək gərəkdir.

Böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlı "Füzuli haqqında" məqaləsində ədəbiyyatımıza Füzulinin təsirini, həm də yaxşı təsirini göstərərək yazırdı:

"Füzulinin bir qəzəli yüzlərlə şairlər üçün ilham mənbəyi olur, şairlər öz şeirlərini ona bənzətməyə çalışırdılar. "Füzuliyanə" qəzəllər yazmaq şairlərin idealı olmuşdu. Bənzətmələr, təxmislər yol alıb gedirdi. Ədəbiyyat öz normal yolunu itirmiş, həlqəvi bir gedişlə Füzulinin başına hərlənir, haraya getdiyini özü də bilmirdi. Füzuli elə bir tilsim idi ki, ədəbiyyatımız ondan bir addım belə olsun bayıra çıxmayır və uzun illər yeni bir şəklə keçmirdi".

Həmin məqalədə qeyd olunduğu kimi, Füzuli türk (Azərbaycan) dilinin şeir-sənət dili olduğunu əsərləri ilə təsdiq etdi, onun yazdığı əsərlər başqaları üçün nümunə oldu, şairlər bu təsirdən çıxa bilmirdilər, sanki Füzuli ədəbiyyatı sehirləmişdi, ədəbiyyat inkişafdan qalırdı. Bu tilsimi Molla Pənah Vaqif sındırdı, şeiri real həyat, real varlıqla bağladı, sadələşdirdi, xalqımızın canlı danışığına yaxınlaşdırdı.

Azərbaycan şeirinin görkəmli sənətkarı, respublikamızda ilk xalq şairi adına layiq görülən Səməd Vurğun rus şairi A.S.Puşkinin "Yevgeni Onegin" əsərini Azərbaycan dilinə tərcümə etməsi münasibəti ilə deyirdi:

*Axıtdım alnımın inci tərini,*
*Yanmadım ömrümün iki ilinə,*
*Rusiya şeirinin şah əsərini*
*Çevirdim Vaqifin şirin dilinə.*

Səməd Vurğun "Rusiya şeirinin şah əsərini, çevirdim Vaqifin şirin dilinə" deməklə qüvvətli metonomiya yaratmışdır - Azərbaycan dili əvəzinə "Vaqifin dili" işlətmişdir. "Dil" sözünə "şirin" epiteti verməklə onun ahəngdarlığını, sadəliyini, Azərbaycan dilinin əsl poeziya dili olduğunu bildirir və şeir dilimizin bu səviyyəyə çatmasında Molla Pənah Vaqifin böyük xidməti olduğunu qeyd edir.

Molla Pənah Vaqif Azərbaycan poeziya dilində "islahat" aparmağın vaxtı çatdığını hiss etmiş və bu vəzifəni sanki öz öhdəsinə götürmüş, öhdəçiliyi yerinə yetirmiş, şeir dilini xalqın başa düşəcəyi şəklə gətirmişdir.

Molla Pənah Vaqif lirik şairdir. Bu lirikanın məzmunu məhəbbət, insan gözəlliyinin tərənnümü, insanlar arasında xoş münasibətin, səmimiyyətin, bədii sözün ecazkar gücü ilə ifadə olunmuşdur. Vaqifin tərənnüm obyekti real insanlardır, nəcib, gözəl Azərbaycan qızlarıdır. Şair seçdiyi təsvir obyektini söz sənətinin bütün imkanlarından istifadə etməklə oxucuya çatdırmağı qarşıya məqsəd qoyur və nail olur. Onun işlətdiyi, yaxud yaratdığı təsvir vasitələri - epitet, təşbeh, istiarə, metonimiya, mübaliğə, litotalar və s. sadə, anlaşıqlı, lakin sadə olduğu qədər də güclü təsir gücünə malikdir. Nümunə kimi şairin qələminin məhsulu olan bir qoşmadan aşağıdakı misralara nəzər salmaq olar:

*Cəmalın günəşdir, qəmərdir üzün,*
*Şəkərdir dəhanın, şirindir sözün,*
*Yağıdır müjganın, cadudur gözün,*
*Cəllad kimi qəmzən qəsdədir, ay qız!*

Bu misralarda şair təşbehdən istifadə etmişdir, belə ki, şair tərənnüm etdiyi qızın camalını günəşə, üzünü aya bənzədir, dəhanın şəkər, sözünün şirin olduğunu deyir. Bu bənzətmələr hamının başa düşəcəyi və danışıqda tez-tez istifadə etdiyi əşyalardan, onları ifadə edən sözlərdən ibarətdir. Lakin şair bunları məharətlə işlətmişdir. Belə ki, nəzəri cəhətdən yanaşdıqda bənzətmənin dörd ünsürü məlumdur - bənzəyən, bənzədilən, bənzətmə əlaməti, bənzətmə qoşması. Göründüyü kimi, göstərilən misralarda bu əlamətlərin hamısı işlədilməmişdir.

Diqqət edilərsə, aydın olar ki, şair bənzətmə əlamətini və bənzətmə qoşmasını işlətmir, sözə qənaət etməklə mükəmməl bənzətmə (təşbeh) yaratmışdır. Bu isə ustalıqdır.

Görkəmli filoloq alimlərimiz inkarolunmaz ümumiləşmiş bir fikirdədirlər ki, Azərbaycan ədəbiyyatında poema janrında Nizami, qəsidə janrında Xaqani, qəzəl janrında Füzuli möcüzə yaratmışdır (bax: Əlyar Səfərli, Xəlil Yusifli "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı", Bakı "Ozan" 1998, səh 109).

Biz cəsarətlə deyirik: insan gözəlliyini sadə, bədii dillə ifadə etməkdə M.P.Vaqif möcüzə yaratmışdı. Bu isə ədəbiyyatımız tarixində onun ən böyük xidmətidir.

İnsan gözəlliyinin tərənnümü baxımından onun aşağıdakı misralarına nəzər salmaq olar:

*Ləblərin ləli-Yəmən, qönçeyi-tərdir dəhənin,*
*Tazə gül xərmənidir başdan ayağa bədənin,*
*Lal edər tutiləri ləhceyi-şirin suxənin,*
*Gülşənin rövnəqisən, zinəti bağü çəmənin,*
*Boyun oxşar sənin ol şumşada, qurbanın olum!*

Bu misralarda işlədilən təsvir vasitələri oxucunu heyrətə gətirir. Bənzəyənlə bənzədilən arasında oxşarlığın ifadəsi, bir əşyaya məxsus əlamətin başqa bir əşya üzərinə köçürülməsini həyəcansız oxumaq mümkün deyil. Misralarda bədiilik, qafiyə sistemi o qədər güclüdür ki, şeir misralarının çoxhecalı əruzun dörd bölüm bəhrində olması hiss olunur, yüngül oxunur. Təsvir vasitələri diqqəti daha çox cəlb edir:

"Ləblərin ləli-Yəmən" deyilir - ləlin incəliyi, parlaqlığı insan (əlbəttə, qadın, qız dodağının) üzərinə köçürülür - istiarədir. Sual yaranır: nəyə görə Yəmən ləli deyilir? Ona görə ki, Yəmən ləli daha parlaq hesab edilir.

Yaxud: "qönçeyi-tərdir dəhənin". Şairin təsvir etdiyi qızın ağzı gül qönçəsinə bənzədilir. Qönçə yeni açılanda kiçik olur. Qadının ağzının kiçik olması gözəllik əlamətidir. Qızın (qadının) bədəni oxucuya "tazə gül xərmənidir başdan-ayağa bədənin" kimi təqdim olunur. Şair qadın gözəlliyini, demək olar ki, yaradıcılıq nümunələrinin əksəriyyətində vəsf edir. "Bəh bu bağın nə əcəb sərvi dilaraları var" misrası ilə başlanan müxəmməsində daha qabarıq şəkildə deyir:

*Mərhaba, Tiflis imiş cənnəti dünya yerinin,*
*Yığılıbdır ona cəmiyyəti huru pərinin,*
*Mən bu şəhrin nə deyim vəsfini dilbərlərinin,*
*Filməsəl, şəklü şəmayildə, bəli, hər birinin*
*Məhi-tabanə bərabər səru simaları var.*

*Ol qədərdir büti-nazikbədənü incəmiyan,*
*Eyləmək olmaz onun vəsfini məlumu əyan,*
*Hər biri nazü-nəzakət bilə min afəti-can,*
*Cümlə bir cilvədə, bir şivədə, xoş sərvi-rəvan,*
*Məst tavus kimi gərdəni-minaları var.*

Molla Pənah Vaqif şeirdə sadələşdirmə apararaq xalqın başa düşəcəyi şəklə salmaqla özünəqədərki ənənəni inkar etmir, bunu şeirin nəzəri cəhətdən zəiflədilməsi kimi anlamaq olmaz, yaranmış ənənəyə onun mənfi münasibəti demək deyil. Məlum olduğu kimi, Azərbaycan poeziyasında əsasən iki şeir vəznindən; milli şeir ölçüsü olan heca vəznindən (buna barmaqhesabı deyilir) və mənşə etibarilə ərəblərə məxsus olan əruz vəznindən istifadə edilmişdir. Vaqifə qədər yazılı ədəbiyyatda əruz vəzni milli şeir ölçüsü olan heca vəznini, demək olar ki, sıxışdırmışdı. Molla Pənah Vaqif xalqımızın milli şeir ölçüsünü ön plana çəkməklə yanaşı, əruz vəznində də gözəl nümunələr yaratmışdır.

Molla Pənah Vaqif qələminin məhsulu olan qəzəllər, müxəmməslər, müstəzadlar, müəşşərlər forma kamilliyi və məzmunca insan hisslərinin ifadəsi baxımından diqqəti cəlb edir. Şairin istər heca, istərsə də əruz vəznində yazdığı şeir nümunələri poetik tələb vəznin xüsusiyyəti, sözün işlənmə məqamı, qafiyə sistemi baxımından nəzərdən keçirdikdə əsl sənət nümunəsi olduğu qənaəti hasil olur. Məzmuna uyğun forma seçmək söz sənətkarından - şairdən nəzəri bilik və ustalıq tələb edir. Fikir aydınlığı üçün ayrı-ayrı ahəngə, ölçüyə malik olan poetik ifadəni nəzərdən keçirmək olar: "Dəhanın sədəfdir, dişlərin inci" adamda xoş əhval yaradır, heca vəznindədir, II hecalıdır, ona görə də yüngül oxunur; zəmanədən, ictimai münasibətlərdən narazılıq bildirən "Mən cahan mülkündə mütləq, doğru halət görmədim" şeir vahidi (misra) başqa ahənglədir, nisbətən ağır sakit deyiliş tələb edir, ona görə də şair hər birinə daha münasib forma seçir. *Birinci heca vəzninin onbirlik, ikinci isə əruzun rəməl bəhrinin dörd bölümlü növünü fikri ifadə üçün ən uyğun ahəng hesab edir.*

Bunlar onu göstərir ki, məzmuna uyğun forma seçməkdə M.P.Vaqif usta sənətkardır. Molla Pənah sözün sərrafıdır. Hər hansı bir sözü müxtəlif məna çalarında işlətməkdə mahirdir, söz gövhərinin zərgəridir. Fikir aydınlığı üçün nümunə kimi deməyi lazım bilirik: "Gözəl boylu, gözəl soylu, gözəl yar" misrası ilə başlanan təcnisində "gözəl" sözü 42 (qırx iki) dəfə təkrar olunur, hər dəfə yeni çalar bildirir.

M.P.Vaqifin yaradıcılıq xüsusiyyətlərindən biri onun, əsasən nikbin, optimist olmasıdır. Vaqifin şeirləri oxucunu həyatı sevməyə ruhlandırır. Əlbəttə, öz dövründə ictimai münasibətlərdə, yaşadığı mühitdə Vaqifi də təmin etməyən məsələlər olub, bunu şairin əsərlərindən də görürük, lakin belə hallar onun həyata olan sevgisini azaltmır. Vaqifin həyata nikbin baxışını şair dostu Molla Vəli ilə müşairəsində (şeirləşmə, deyişmə) aydın görmək olur. Əlbəttə, müşairənin həcmi geniş olduğundan hər birinin həyata münasibətini geniş şəkildə vermək imkan xaricindədir, lakin nümunə kimi hərəsindən bir neçə misra verməyi lazım bilirik.

*Ey Vidadi, sənin bu puç dünyada*
*Nə dərdin var ki, zar-zar ağlarsan?*
*Ağlamalı günün axirətdədir,*
*Hələ indi səndə nə var, ağlarsan?*

**Vaqif**

*Vaqif, nə çox yan, baş-ayaq atarsan,*
*Mənə dersən, nə bu qədər ağlarsan?*
*Sənin də başında məhəbbət beyni*
*Əgər olsa, eylər əsər, ağlarsan!*

**Vidadi**

Müşairədən aydın olur ki, eyni dövrdə yaşamış iki böyük şairin həyata baxışı müxtəlifdir. Molla Vəli Vidadi küskündür, zəmanəsindən şikayət edir, M.P.Vaqif isə "Toy-bayramdır bu dünyanın əzabı, ağlı olan ona gətirər tabı" deyərək onu səbr etməyə çağırır.

Molla Pənah Vaqifin yaradıcılığı olduqca ahəngdar, musiqili poeziyadır. Onun yaradıcılıq nümunələri; istər heca vəznində, istərsə də əruz vəznində yazdığı şeirlərə musiqi bəstələmə də heç bir çətinlik yaratmır. Vaqifin qəzəlləri xanəndələrimizin, qoşmaları isə müğənnilərin sevə-sevə oxuduqları şeir nümunələridir. Görkəmli incəsənət xadimlərinin sözlərinə əsasən demək olar ki, muğamda musiqi ilə şeir nisbəti bərabərdir. Bu baxımdan yanaşdıqda Azərbaycanda musiqi mədəniyyətinin inkişafında Molla Pənah Vaqifin böyük rolu olmuşdur. Azərbaycan bəstəkarlarından Cahangir Cahangirov, Qəmbər Hüseynli, Əşrəf Abbasov, Səid Rüstəmov, Şəfiqə Axundova, Andrey Babayev və b. M.P.Vaqifin əsərlərinə musiqi bəstələmişlər.

**Şəmistan MİKAYILOV,**
*Təhsil İnstitutunun baş elmi məsləhətçisi,*
*pedaqoji elmlər doktoru, professor,*
*Prezident təqaüdçüsü*

# Məktəblilər "Vaqif" dramını səhnələşdiriblər



2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustadına yüksək məhəbbətin təzahürü olaraq ölkəmizdə müxtəlif silsilə tədbirlər keçirilir. Belə tədbirlərdən biri də bu günlərdə Bakı şəhəri 73 nömrəli tam orta məktəbin V "a"sinfi tərəfindən təşkil olundu. Bu sinfin rəhbəri Aybəniz Rüstəmova tədbir iştirakçılarına görkəmli söz ustadının həyat və yaradıcılığından danışdı. A.Rüstəmova bildirdi ki, XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, qələmi, ictimai fəaliyyəti ilə özünün ədəbi məktəbini yaratmış xalq şairi Səməd Vurğunun yaradıcılığında "Vaqif" mənzum dramı çox mühüm yer tutur. Qarabağın tarixi, burada yaşayan insanların milli ruhu və adət-ənənələri, məişəti ölməz sənətkarın yaradıcılığında ana xətt olaraq keçib. "Vaqif" dramı bizdə öz keçmişimizə, böyük ədəbiyyatımıza, xalqımızın qəhrəmanlığına, onun azadlıq uğrunda apardığı mübarizəyə dərin məhəbbət oyadır, xarici istilaçılara qarşı amansız olmağa çağırır, Vətənimizi daha da dərindən sevdirir.

Qeyd edildi ki, Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə, həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

"Vaqif" pyesinin milliliyi və ədəbisevərliyi, yüksək sənətsevərliliyinin ən yaxşı nümunəsi bu əsərə Azərbaycan teatrının ən çox müraciət etməsidir.

Sonra söz ustadının həyatının mürəkkəb və dramatik dövrünü təsvir edən Səməd Vurğunun "Vaqif" mənzum dramının V "a"sinfinin şagirdlərinin ifasında təqdimatı olub. Şagirdlər "Vaqif" dramına əlavə elementlər qatsalar da, yeni tərz və müasir yanaşma üsulları gətirmək istəsələr də, süjet xətti qorunmaqla, əsərin əsas dramaturji strukturuna xələl gətirmədən dinamizliyinin və lakonikliyinin saxlanması "balaca aktyor heyəti"nin məharəti hesab oluna bilər.

Dramın sonunda şagirdlərin şux bir qamətlə irəliləyərək "Məhv olsun düşmən, biz Vətənin bir qarış torpağını da düşmənə verməyəcəyik. Qarabağ bizimdir, bizim olacaq... Heydər Əliyev ideyalarının layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Qarabağı düşməndən azad edərək bayrağımızı Qarabağda asacağıq... Üçrəngli bayrağımız Qarabağda dalğalanacaq..." söyləmələri tamaşanı izləyənlər tərəfindən alqışlarla qarşılandı.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*

# Uşaq ədəbiyyatımıza yeni töhfə

Yeni nəşrlər




Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan qələm sahiblərindən biri də tanınmış şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğludur. Bütün həyatını yeni tipli uşaq ədəbiyyatının yaranmasına, tədqiqinə, təbliğinə həsr edən Rafiq müəllimin yaradıcılığı çoxşaxəlidir. Onun poeziya, ədəbiyyatşünaslıq, tərcüməçilik sahəsində uğurları böyükdür. Yeni tipli dərsliklərin yaranmasında da Rafiq Yusifoğlunun xidmətləri danılmazdır. Onun ali məktəb tələbələri üçün yazdığı "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri", "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" adlı sanballı dərslik və tədris vəsaitləri mütəxəssislər tərəfindən yüksək dəyərləndirilmişdir. Rafiq Yusifoğlu eyni zamanda yeni təhsil sisteminin tələbləri əsasında yaradılan ilk "Ana dili" dərsliklərindən birinin də əsas müəlliflərindəndir ("Ana dili - 1", Bakı, 2008).

Qırx beş ildən yuxarı pedaqoji staja malik Rafiq müəllim uşaq psixologiyasını yaxşı bildiyi üçün onun yaratdığı şeirləri və hekayələri uşaqlar maraqla oxuyurlar. Rafiq Yusifoğlunun bu il nəşr olunmuş "Bulud fayton" (ADPU, 2017) kitabına müəllifin son illərdə yazdığı bir-birindən maraqlı, vətənpərvərlik ruhu ilə yoğrulan əsərləri toplanıb. Bu şeirlərdə vətənimiz, onun son illərdə çiçəklənməsi, qazandığı uğurlar, təbiətimizin gözəlliyi məhəbbətlə tərənnüm olunur. Uşaqların qəlbində doğulduğu torpağa məhəbbət yaratmaq baxımından bu şeirlər xüsusi əhəmiyyət kəsb edir.

*Mənə dayaq, mənə həyan olanım,*
*Pərvanə tək qoy başına dolanım!*
*İşıq olub gözlərimə dolanım,*
*Çiçək olub ürəyimdə bitənim! -*
*Vətənim!*

Kitabdakı bir-birindən maraqlı, düşündürücü və öyrədici səciyyəli şeirlər ayrı-ayrı bölmələrdə toplanıb. "İşıq, su, torpaq, hava, bütün dərdlərə dəva" adlı bölmədəki şeirlərdə vətənpərvərlik motivləri güclüdür. Şair balaca oxucularını vətəni sevməyə, onun təbiətini qorumağa səsləyir.

Kitabın "Küləyin nəğmələri", "Bahara bax, qışa bax, qara bax, yağışa bax" bölmələrində şairin poetik tutumlu təbiət şeirləri yer alıb. Burada da öyrədici səciyyəli əsərlər üstünlük təşkil edir. Uşaq ədəbiyyatının məqsəd və vəzifələrini gözəl bilən müəllif təbiət hadisələri haqqında uşaqlara bədii şəkildə məlumat verir. Bu şeirlərdəki külək də, ot da, çiçək də, ağac da, bulud da bədii obraz səviyyəsinə qaldırılır.

"Gəzdim düzü, dünyanı, yurdumdan gözəl hanı" bölməsində şairin səyahət şeirləri toplanıb. Rafiq Yusifoğlu oxucuları dünyanın maraqlı ölkələrinə - Amerikaya, Dubaya, Ukraynaya səyahətə aparır. Bu şeirlərin balaca qəhrəmanları isə müvəqqəti xaricdə yaşayan, vətən üçün darıxan Azərbaycan övladlarıdır.

"Ömrün baharı, yayı, Tanrının sevgi payı" adlanan bölmədəki şeirlərdə maraqlı uşaq obrazları yaradılıb. Bu bölmədə toplanan şeirlərdə uşaqlar məzəli, qeyri-adi hərəkətləri ilə diqqəti cəlb edirlər.

"Xoşbəxtdi, bəxtəvərdi, Dünya deyil özündə. O ayrı bir aləmdi Uşaqların gözündə" adlı bölmədə şairin dünyaya uşaq gözü ilə nəzər salıb onu mənalandırması maraqlıdır.

"Çəmən çiçəyi ilə, insan əməyi ilə" adlı bölmədəki şeirlərin əsas ideyası isə uşaqları zəhmətə məhəbbət ruhunda tərbiyə etməkdən ibarətdir.

Sonuncu bölmə "Ağacın kökü torpaqda, insanın kökü eldədi" adlanır. Buradakı şeirlərdə uşağa təkcə vətənin təbiətini deyil, xalqımızın adət-ənənələrini, onun dilini də sevdirmək missiyası qarşıya qoyulur. Mövzusundan asılı olmayaraq bütün şeirlərin uşaq təfəkkürünə uyğunluğu və bədiiliyi onların təsir gücünü qat-qat artıran vasitəyə çevrilir. Üzünü kiçik qəhrəmanlarına tutan müəllif yazır:

*Unutma ki, heç zaman*
*Bu torpağa bağlısan.*
*Azərbaycan qızısan,*
*Azərbaycan oğlusan!*

İstər mövzu və problematika, istərsə də bədii sənətkarlıq baxımından diqqəti cəlb edən nəfis tərtibatlı bu kitabdan təkcə uşaqlar deyil, müəllimlər, tərbiyəçilər, valideynlər də faydalana bilərlər.

**Günel HÜSEYNOVA,**
*AMEA Folklor*
*İnstitutunun doktorantı*

Azərbaycan Respublikasının
Prezidenti yanında Bilik Fondu

Azərbaycan Respublikası Təhsil Nazirliyi
"Azərbaycan müəllimi" qəzeti

# "II YAZI" MÜSABİQƏSİ

## ELAN EDİR

Ölkənin təhsil müəssisələrində çalışan müəllimlər, pedaqoqlar tədris etdikləri fənlərlə bağlı fərdi pedaqoji təcrübələrini, müasir dərsin əsas meyarlarını özündə əks etdirən metodiki yazılarını təqdim etməklə müsabiqədə iştirak edə bilərlər. Yazılar 01 mart 2017-ci il tarixdən 31 mart 2017-ci il tarixinədək ***muallim@edu.gov.az*** elektron poçt ünvanında qəbul ediləcək. Təqdim olunan yazılar tanınmış pedaqoq, alim və təcrübəli müəllimlərdən ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Təşkilat Komitəsi tərəfindən keçiriləcək təntənəli mərasimdə qaliblərin qiymətli hədiyyə və diplomlarla mükafatlandırılması nəzərdə tutulur.

### Müsabiqənin əsas şərtləri:

İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (ad, soyad, əlaqə telefonu, çalışdığı müəssisənin adı və tutduğu vəzifə) qeyd etməlidir. Hər iştirakçı müsabiqəyə bir yazı təqdim edə bilər. Yazıların əvvəlində müsabiqə üçün hazırlandığı qeyd olunmalıdır.

**Əlaqə üçün:** (012) 538-51-41

**TƏŞKİLAT KOMİTƏSİ**

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

| | |
|---|---|
| **Baş redaktor müavini** Sarvan İbrahimov | s.ibrahimov@muallim.edu.az 538-21-55 |
| **Məsul katib** Elman Əbdülov | e.abdulov@muallim.edu.az 510-68-73 |
| **Elm və təhsil şöbəsi** Yusif Əliyev | y.aliyev@muallim.edu.az 538-51-41 |
| **Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev | o.mustafayev@muallim.edu.az 538-67-41 |
| **İnformasiya şöbəsi** Niyazi Rəhimov | n.rahimov@muallim.edu.az 538-66-05 |
| **Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova | s.kerimova@muallim.edu.az 539-19-74 |
| **Məktublar şöbəsi** Şakir Cəfərov | sh.cafarov@muallim.edu.az 539-64-00 |
| **Mühasibatlıq** | 539-67-74 |
| **Kompüter mərkəzi** | 539-07-98 |
| **Reklam və elanlar** | 539-20-77 (tel./faks) |

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6260, **Sifariş** 803
**Məsul növbətçi:** N.Rəhimov

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

**Kafedralar üzrə boş olan vəzifələr:**

| | |
|---|---|
| 1. Coğrafiya | - kafedra müdiri |
| 2. Musiqi fənləri | - kafedra müdiri; baş müəllim, 1 yer |
| 3. Azərbaycan dili | - baş müəllim, 1 yer |
| 4. Azərbaycan tarixi | - baş müəllim, 1 yer |
| 5. Praktik xarici dillər | - baş müəllim, 2 yer |
| 6. Leksika və ölkəşünaslıq | - baş müəllim, 1 yer |
| 7. Təhsilin pedaqogikası və metodikası | - baş müəllim, 1 yer, 0,75 ştat |
| 8. Bədən tərbiyəsi və idman | - baş müəllim, 1 yer |
| 9. Ümumi fizika | - baş müəllim, 1 yer |
| 10. Botanika | - dosent,1yer; |
| 11. Anatomiya, fiziologiya və zoologiya | - dosent, 1 yer; baş müəllim, 1 yer |
| 12. Kimya | - dosent, 2 yer; baş müəllim, 2 yer |
| 13. İnformatika | - dosent, 1 yer |
| 14. Təsviri incəsənət | - baş müəllim, 1 yer; müəllim, 1 yer |

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.03.2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**ÜNVAN:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 159.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:** (022) 56-73-10; (022) 56-22-69

**REKTORLUQ**

# "Şahin" hərbi-idman oyunlarına ciddi hazırlıq işləri gedir

Bakıdakı 54, 61, 242 nömrəli tam orta məktəblərdə "Şahin" hərbi-idman oyunlarına ciddi hazırlıq işləri gedir. Hərbi-idman oyunlarının keçirilməsində məqsəd gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinə diqqət və qayğını daha da artırmaq, məktəb şagirdlərini hərbi idman oyunlarına cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına köməklik göstərməkdir. Biz bununla əlaqədar bir neçə paytaxt məktəbləri ilə əlaqə saxladıq. 54 nömrəli tam orta məktəbin direktoru Sahibə Abbasova bildirib ki, gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən Ceyhun Salmanov bu tədbirin təşkilində fəal iştirak edir. Çünki gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində fənnin məzmununa uyğun fiziki, riyazi, coğrafi və s. xarakterli hərbi çalışmalardan daha səmərəli istifadə məktəbdə tərbiyə və təhsilin ümumi məsələlərinin həllində də böyük əhəmiyyətə malikdir. Bu məsələnin həlli yalnız hərbi işin əsaslarının daha şüurlu və möhkəm mənimsənilməsinə deyil, eyni zamanda digər həyat hadisələrinin gedişində şagirdlərə qazandıqları biliklərdən daha düzgün və səmərəli formada istifadə etməyə kömək göstərir.

61 nömrəli tam orta məktəbin direktoru Zenfira Şıxəliyeva qeyd edib ki, gənclərin çağırışaqədərki hazırlığı müəllimi Əli Əhmədovun rəhbərliyi altında qarşıdakı "Şahin" hərbi-idman oyunları yarışında qalib çıxmaq üçün şagirdlər arasında məşqlər davam edir. Dərslərdə ümumtəhsil fənləri üzrə biliklərə istinadən hərbi anlayışları öz aralarında müqayisə etmək bacarığı aşılanır, bu bilik və bacarığın mənimsənilməsi prosesinə nəzarət olunur, nöqsanlar müəyyənləşdirilib aradan qaldırılır. Möhkəm hərbi bilik əldə edən şagirdlər müvafiq hərbi anlayışları həm öz aralarında, həm də onları digər fənlərdə öyrədilən anlayışlarla müstəqil şəkildə müqayisə etmək bacarığına yiyələnirlər.

242 nömrəli tam orta məktəbin direktoru Arif Rəsulov da gənclərin hərbi vətənpərvərlik tərbiyəsində "Şahin" hərbi-idman oyunlarının böyük rolunu qeyd edib. Böyük uğur qazanmaq üçün ilk gündən məktəbdə işlərin yaxşı təşkil olunduğunu bildirib.

**Şakir CƏFƏROV,** *"Azərbaycan müəllimi"*

# Etibarsız sayılır

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Lalayeva Gülnar Fikrət qızına verilmiş 399125 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Əliyeva Nuran Malik qızına verilmiş B-225239 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Texniki Humanitar Liseyini** 2008-ci ildə bitirmiş Məcnunova Vüsalə Əlihəsən qızına verilmiş B-482133 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Fətəlikənd kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Həşimova Hidayət Əmir qızına verilmiş B-305832 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Pedaqoji Texnikumu** tərəfindən 1982-ci ildə Kərimova Zenfira Kərim qızına verilmiş ZT-050493 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Qıraqlı kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş (Şıxıyeva) Abasova Aytəkin Elçin qızına verilmiş A-431927 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**55 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1982-ci ildə Axıyev Elçin Sralyan oğluna verilmiş 138320 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Abdullayev Samin Şirinbala oğluna verilmiş A-344299 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Abdiyeva Xuraman Adil qızına verilmiş 104975 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 8 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Sadiqov Toğrul İlqar oğluna verilmiş A-184800 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 319 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Həşimli Elmin Museyib oğluna verilmiş A-188536 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Fəxri Kamil oğluna verilmiş A-295429 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Yusifova Narmida Şöyüb qızına verilmiş ЦВ-832467 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Texnikumu** tərəfindən 1998-ci ildə Rəşidov Böyükağa Abasağa oğluna verilmiş AB-II-013517 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayonu** Cocuq Mərcanlı kənd tam orta məktəbinin IX sinfini 2012-ci ildə bitirmiş Quliyev Ruslan Nizami oğluna verilmiş A-191325 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2001-ci ildə Abdullayev Nazim İbad oğluna verilmiş A-084043 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Novruzova Emilya Namiq qızına verilmiş A-413434 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Qapanlı kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Behbudova Rəşidə İlham qızına verilmiş B-177271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 24 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əsədov Ramal Şakir oğluna verilmiş B-231457 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Camiyev Malik Şərafəddin oğluna verilmiş A-111588 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 30 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Şükürova (Vəliyeva) Aytəkin Sahib qızına verilmiş 192291 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Zeynalov Qubad Alim oğluna verilmiş B-338690 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2016-cı ildə Quliyev Əbülfəz Əli oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** I Şahsevən kənd 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Musayev Elmir Atamoğlan oğluna verilmiş 473712 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** II Şahsevən kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Teymuri Nurlan Ələmşad oğluna verilmiş B-707503 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Moskva Dövlət Universiteti** (Bakı filialı) tərəfindən 2013-cü ildə Bektaşi Fərəh Etibar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Kərimova Firuzə Lətif qızına verilmiş A-013107 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılova Xanım Məzahir qızına verilmiş B-248916 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş İbrahimzadə Sənan Nazim oğluna verilmiş A-197740 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 15 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Rəsulova Qıyma Şeruya qızına verilmiş O-581 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 29 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Seyfullayeva Səbinə Həsən qızına verilmiş A-199322 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası (indiki ADNSU)** tərəfindən 2011-ci ildə Adıgözəlov Teymur Yuryeviçə verilmiş MNB-023072 nömrəli magistr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Hil kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Həsənbəyov Rahim Asəf oğluna verilmiş A-258100 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Çiləgir kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Fərzəliyeva Nübar Kamal qızına verilmiş B-201027 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Şapovalova İrina İqoryevnaya verilmiş A-072479 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 41 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Nəbiyeva Səbinə Zülfi qızına verilmiş A-515456 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş İsmayılova Xalidə Fəxrəddin qızına verilmiş 0117 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Fərhadov Fərhad Cavanşir oğluna verilmiş B-365495 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Nəzərova Ellada Fəxrəddin qızına verilmiş A-441467 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 1998-ci ildə Naftaliyeva Elona Muxayıl qızına verilmiş AB-II-035833 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 4 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Kərimov Əliqənbər Fuad oğluna verilmiş B-681576 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 190 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qafarov Vüsal Valeh oğluna verilmiş B-483234 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2007-ci ildə Qənbərova Turanə Vaqif qızına verilmiş B-105304 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universiteti nəzdindəki "Gənc istedadlar" liseyinin kollektivi liseyin müəllimi Çingiz Qələndərliyə bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Humanitar Kollecinin direktoru Vaqif Əmiraslanov və pedaqoji kollektivi kollecin müəllimi Züleyxa Nəzərliyə həyat yoldaşı

**ƏSƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# İNGİLİS DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – British Isles

by Andy Keedwell

### Gelert and the baby

The castle of Prince Llywelyn stood in the Welsh mountains, near Mount Snowdon, next to a dark forest full of wild animals. (1) ..........., and there were three things that he loved most in the world: his wife, his baby son, who one day would become prince, and his dog, Gelert. Gelert was a strong, brave dog (2) ........... . Gelert loved the baby boy and each night slept beneath his bed to protect him.

One day, Llywelyn and his wife had to leave the castle early in the morning. Llywelyn told the dog to look after the baby carefully while he was away. At the end of a long day, Llywelyn and his wife returned to the castle (3) ........... . As Llywelyn walked into the baby's bedroom, he saw that the walls were covered in blood, and he could not see the baby anywhere. Whatever had happened? Gelert too was covered in blood. Llywelyn's first thought was that the jealous dog had killed the baby. Terribly angry, he immediately (4) ........... and killed the dog he had loved so much.

It was then that he saw his baby alive and well and sleeping under a blanket. The dead body of a huge wild dog lay next to him. Gelert had not killed the baby but had killed the wild dog which had tried to attack the baby. Llywelyn realised what a terrible mistake he had made. The prince buried Gelert under the castle wall (5) ..........., and his story is still told today.

### Activity 1

Match the phrases (a–e) to the gaps (1–5) in the text.

**a.** so people would always remember how brave Gelert had been
**b.** took out his sharp knife
**c.** as the sun was going down
**d.** Llywelyn led a happy life, however
**e.** who followed the prince wherever he went and listened to his every word

### Activity 2

Answer questions 1–5.

1. Why was the forest dangerous?
2. Where did Gelert sleep every night? Why?
3. What instructions did Llywelyn give his dog before he left?
4. Why did Llywelyn think his dog had killed the baby?
5. What did Llywelyn do to make sure no one forget his brave dog?

### Activity 3

Read these sentences from the story:

Past simple: *He **saw** his baby alive and well. The dead body of a huge wild dog **lay** next to him.*

Past perfect: *Gelert **had not killed** the baby but **had killed** the wild dog.*

We use the **past simple** to describe events in the past.
We use the **past perfect** to describe events which happened **before** a fixed time in the past.

Change each verb 1–8 in the description of the story below into the **past simple** or the **past perfect**. An example has been done for you.

It ***was*** (be) early evening. Llywelyn (1) ........... (be) away all day and he was tired. As he (2) ........... (walk) into his baby's bedroom, he had a horrible surprise. During the day, a large wild dog (3) ........... (enter) the room but brave Gelert (4) ........... (protect) the baby. Llywelyn (5) ........... (think) it was Gelert who (6) ........... (attack) the baby and he immediately (7) ........... (kill) the dog he loved. Seconds later, when he saw his baby was safe, he realised he (8) ........... (make) a terrible mistake.




© Hannah Eaton/British Council

### Activity 4

Llywelyn made a terrible mistake. Have you ever made a mistake that made other people unhappy in some way? How can we make sure we don't make mistakes that hurt other people?

## Answers

**Activity 1**
1. d; 2. e; 3. c; 4. b; 5. a

**Activity 2**
1. Because it was full of wild animals
2. Under the baby's bed, to guard him
3. To look after the baby carefully
4. Because the dog was jealous. / Because the walls were covered in blood.
5. He buried him under the castle wall.

**Activity 3**
1. had been
2. walked
3. had entered
4. had protected
5. thought
6. had attacked
7. killed
8. had made

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017